*Mükafat Əliyev*

# GÜNBATANA BAXAN QƏBİR



**Bakı – Mütərcim – 2009**

Redaktor: Vüqar Əliyev

Operator: Vəfa Əliyeva

Korrektor: Elnarə Səfərova

Dizayner: Vəfa Əhmədova

Mükafat Əliyev. «Günbatana baxan qəbir». Bakı: Mütərjim, 2009. – 240 s.

*«Günbatana baxan qəbir» kitabında müəllifin son illərdə yazdığı şeir və hekayələrlə yanaşı, uzun illər zamanın saxlanjında qalmış əlyazmalarının bir qismi - 1950-1960-jı illərə aid poeziya və nəsr nümunələri, tərjümələri, eləjə də rus dilində qələmə aldığı köhnə və yeni yazıları yer alıb. Dövrün və zamanın mürəkkəb sualları, Xeyir və Şər, məkr və məhəbbət, həyat və ölüm arasındakı əbədi dilemma, torpaq, yurd itkisinin ağrı-ajısı, gənj nəslə Vətən sevgisi, vətəndaşlıq ruhunun aşılanması kitabın əsas leytmotivini təşkil edir.*

$Ə\frac{4702060000}{026}11-09$

**©M.Əliyev, 2009**

# TƏRCÜMEYİ-HAL

Azərbaycan elim mənim varlığımdır,
Sinəm üstə həkk olunmuş yarlığımdır.
Cəbrayılım, doğma diyar, mənim yurdum,
Quycaq kəndim, zümrüdlərdən bəzək vurdum.

Mükafatam, verilmişəm anama,
Düz deyirəm, dostum, məni qınama.
Atam Surxay, anam olubdur Pəri,
Dördcə ərən böyüdübdü əlləri.

Oğlum Vüqar, Eldarımın qardaşı,
Elnarəmin Elmira dost-sirdaşı,
Bir-briinə olsun ürək yoldaşı.
Tanrım məni qoy eyləsin bəxtəvər.

Vüqar – «atam», Eldar mənim «qardaşım»,
Elnarəni hiss edirəm anamdı.
Elmira tək xatırladır bacımı,
Özün qoru, ya Rəbb, başım tacını.

Gecə-gündüz nazımızı çəkibdi,
Kotan olub bağ-bostanım əkibdi.
Qara saçın vaxtdan əvvəl tökübdü,
Nər balası, nərdən olub Nərminə,
Övladlarım götürübdü zaminə.

*Dekabr, 2007.*

# Köhnə yazılar



## XOŞUM GƏLDİ

Adını eşidib, üzün görəndə
Ürəyim çırpınır, könlüm sevinir.
Dodağın qaçırıb, qönçə güləndə
Gözümdə surətin bir də yenilir.

Gəl odlayıb könlümü qan eyləmə,
Odlanmaqmı sənlə mənə yaraşır?
Neştər olub ürəyimi teyləmə,
Səni görcək halım yaman qarışır.

Səba kimi gör necə də əsirsən,
Unutma ki, onun ömrü az olur.
Dönürsən qılınca, bəzən kəsirsən,
Qılıncın da kəsən üzü tez solur.

«Bülbül» olub hərdən nəğmə yazırsan,
Bülbülün baharı, inan, tez solur.
«Yox» deyirsən, mənə qəbir qazırsan,
Məzarda da sevənlər «pərvaz olur»

Könül açıb sənə sirrim söylədim,
Pak sevgimə səndən cavab gözlədim.
Susdun, əfsus, mənə «sevdim» demədin,
Susduğundan mənlə Məcnun yarışır.

*Bakı, 1962.*

## UNUTMA

Mən sevirəm həyatımı,
Çünki indi o sənsən.
Səni ona görə ki,
Mənim ürəyimdəsən.

## AQİLLƏR DEMİŞ

Bu bir həqiqətdir ki, doğruluq etsə hər kəs,
Öz doğru işlərində ömründə ziyan görməz.
Sözlərinlə işinə əməl eyləsən, əlbət,
Eylər doğru iş üçün ulu Tanrı kəramət.
Qəm, qorxu gətirsə də ağıllı düşmən sana,
Mərifətsiz bir dostdan çox yaxşıdır insana.

*(qədim Şərq filosofu)*
*Ruscadan tərcümə. 1962.*

## DİLLƏNSƏNƏ!

Harda qaldı gecələr, yanaşı əyləşərdik,
Birgə mahnı qoşardıq, oxuyardıq, səs-səsə?!
O incəlik hardadı, harda qaldı təbəssüm,
Harda qaldı təravət, harda qaldı göy meşə?!

*Bakı, 1962.*

## HƏR İKİSİ ƏZİZDİ

Baş qaldırıb qalx ayağa,
Bax alışan bu torpağa,
Tüstülənib yanan dağa,
Bax o solmuş göy yarpağa, sevinmə!

Dön qartala, uç qayadan,
Seyr et göyü, asimanı!
Ciyər dolsun, al qüvvəni,
Darda qoyma el-obanı, unutma!

Əlifbanı verdi sənə
Ata yurdun, Ana vətən.
Ana əli üstə gəzdin,
Oldu yolun Ata beyni, fəxr elə!

*Bakı, 1963.*

## STALİN

**S**iləcəklər tarixlərdən adını,
**T**arix böyüdəni unutmaq olmaz.
**A**dınla «fəxr etsin» gərəkdir xalqın;
**L**eninin əmrilə ona yarandın.
**İ**radələr ram edərdi görkəmin,
**N**iyə indi nifrətlərə qatıldın?!

*Bakı, 1962.*

## OLUB

Bu incə bel, bu şux sinə, gül dodaq,
Ay gözəl qız, söylə kimə bəxş olub?
Bu ipək tel, nazlı yeriş, al yanaq
Hansı Fərhad tişəsiylə nəqş olub?

Maral duruş, ceyran baxış, gözəlsən,
Görüm, gülüm, gündən-günə təzəlsən,
Elə bil ki, oxunmamış qəzəlsən.
Siyah telin, söylə mənə, dur gəl sən,
Hansı xoşbəxt bəxtəvərə tuş olub?!

*Bakı, 25.V.65.*

## AXTARIRSAN

Çəmənlikdə gəzən ceyran,
Nə itirib axtarırsan?
Ay göylərdə süzən tərlan,
Şikarını axtarırsan?

Niyə gözün hey yol çəkir,
Uzaqlarda kimin vardı?
Yanaqların qan-yaş tökür,
Kimin itib, axtarırsan?

Səninlədir çəmən, çiçək,
Səninlədir arzu, istək,
Səninkidir xoş gələcək,
Niyə səfil dolanırsan?

De, bəlkə də yaralayıb
Namərd ovçu oxu səni?
Bəlkə qartal parçalayıb,
Tək balanı axtarırsan?

*Bakı, 1963.*

## CIĞIRDA

Bir cığırda qanlı cığır görəndə
Fikirlərim asimana ucaldı.
«Namərd ovçu gülləsinə tuş gəldi,
Xallı ceyran bu cığırla gələndə».

Əzilmiş qarışqa görəndə hərdən,
Cığıra baxıram hey dönə-dönə.
Yox olmasın yaranmışlar bu yerdən,
Qan axmasın süzgün-süzgün gözlərdən.

Hər insan oğulu sanki qonaqdı,
Bivəfa dünyada, fani dünyada.
İnan mənə, dostum, sözlərim haqdı,
Yaranmışa məzar kiçik məkandı.

*1963*

## QƏRƏNFİL

Çəməndə gəzərkən səhər şehində
Boynu bükük qərənfili gördüm mən.
Əl saxlayıb qoxuladım mehin də,
Elə bil ki, əhvalını sordum mən.

Gəl boynunu yana əymə, qərənfil,
Yaralıyam, mənə dəymə, qərənfil.
Bir kimsəni qəlbi sınıq görəndə
Öz-özünü nahaq söymə, qərənfil.

Bilirəm, sevirsən el məsəlini:
«Barlı ağac hökmən əyər budağın!»
Yəqin, sən də bildin mənim dərdimi,
Görüncə qızarır çünki yanağın.

Nə edim ki, sən gözəlsən, mən şikəst,
Usandırır, yəqin, səni şikəstəm.
Tale belə yazıb, bəlkə, beləymiş,
Sən qəmgin yarandın, mənsə şikəstəm.

*Sahil bağı, 1963*

## TƏNHA QAYIQ

Səni görcək qövr elədi yenə dərdim,
Xatırlatdın keçmiş gənclik çağımı.
Bir zamanlar qucağında əyləşib
Sevgilimlə birgə avar çəkərdim.

Nə müddətdi o günlərim itibdir.
Gözüm yolda, axtarıram onu mən.
Soraq yoxdu, gəl könlümü sevindir,
Əlac eylə, ol dərdimə dərdimən.

Kimlərə mən nə elədim, nə etdim,
Sevincimi alıb məndən apardı?
Söylə mənə, köhnə qayıq, səmimi
Tale onu niyə məndən qopardı?

*Zabitlər bağı, 1963.*

## BAL ARISI

Çiçəklərdən uçur arı,
Dincəlməyir bir an barı.
Toplayır bal, bilmir birdən
Uçub gedər o ömürdən.

«Neyləryirsən çoxlu balı,
Ay qanadı xallı-xallı?
Çox yığırsan, daha bəsdi!»
Qanadları əsdi, əsdi,
Durub baxdı o üzümə,
Dedi cavab son sözümə:
«Yığıblar ki, yığırıq biz,
Yesinlər körpə nəslimiz».

*İməcilik zamanı, 1963.*

## TANIŞ YERLƏR

Səyyah kimi bu yerlərdən keçəndə
Düzənlikdə boz yovşanı görərdim.
İndi tanış qobulardan ötəndə
Ətrafımda yaşıl bağçanı gördüm.

Qayalıqdan sızan bulaq başında
Tumarlanır ağcaqayın, göy söyüd.
Puçur-puçur axan bu göz yaşından
Çoxlarının camalına pay dəyib,
(Gözəllərin qulağına toy dəyib).

Tanış yurdum, tanış obam,
Gözəlləşib gülşən oldun.
Səni gördüm, vallah, birdən
Sevincimdən donub qaldım.

*24.V.1963 (Kəndimizə işıq gəldi).*

## GÖZƏLLƏMƏ

Ay incə bel, qönçə dodaq, al yanaq,
Neyləmişəm, məni sən odlayırsan?
Xəstə düşdüm, buyur bizə gəl qonaq,
Əzrail tək xəstə canım alırsan!

Aşiq oldum camalına, gül üzə,
Ulduz kimi parıldayan o gözə,
Səndəki zəkaya, səndəki sözə,
Məni niyə od-alova salırsan?

Həyat bivəfadı, ömür az olur,
İnsan qocalanda yararsız olur,
Gözəl görsə gözü gülür, saz olur,
Gözlərində dünya tamam yaz olur.

*Quycaq, 1965*

## SON GÖRÜŞ

Qara zülfün qaranlıqda mən «gördüm»,
Al günəşdə saçlarını görəydim!
Bir zamanlar telimizi sən hördün,
O, telindən indi mənə verəydin.

Ağ çiçəyi qara saça hörəydim,
Bəlkə onda sevmək nədir biləydin.
Məni görüb xatırlarsan bir daha,
Göz yaşını dodağımla siləydim.

*Bakı, 1967*

## NECƏ FƏXR ETMƏYİM?

*(Qələbə gününə həsr olunmuş ballada)*

Vətənim bu günlər geyinib qızıl,
Hər tərəf bəzənmiş tər gül-çiçəklə.
Dağları, çölləri olub yamyaşıl
Fəxr edirəm mən də xoş gələcəklə.

Nə olub, kim deyər, bu nə şənlikdir,
Nə üçün insanlar oynayır, gülür?!
Hayana baxırsan güldür, çiçəkdir,
Hər insan qəlbindən sevinc tökülür.

Bəli, anlayıram mən baxışlardan,
Sanki oxuyuram üzlərdən bu gün.
Hər kəsin sevdiyi əziz bayramdan,
Yenə tamam olur bu gecə bir gün.

İndi bütün azad millətlər gülür,
Yeni domna peçə filiz tökülür.
Yeni şəhərlərin xətti çəkilir,
İnsanlar fəxr edir öz əməyilə.

Bu insan əməyi, bu insan təri,
Bu ana Vətənin qoçaq gəncləri,
Təzə işə düşən domna peçləri
Baxdıqca ruh verir indi hamıya.

İndi hər ölkənin insanı gülür,
Bu gün hər bir evdə bayram günüdür.
Necə də gülməsin, insanlar bilir:
Bu gün qələbənin bayram günüdür.

Bu gözəl şənliyi kim vermiş bizə?
Kim bəxş etmiş bizə bu gözəlliyi?
Vuruşub çarpışan xoşbəxt insanlar,
Gələcəyi quran bu mərd insanlar.

«İnsan – insan üçün» deyirlər bizdə,
Qoy xoşbəxt yaşasın hər yerdə ellər!
Çünki insan üçün hörmət qalacaq,
Yaşamaq, yaratmaq, sevmək qalacaq!

Bu gün Uzaq Şərqdə Sibir elləri,
Buzlu şimaldakı Rusiya çölləri,
Bu gün cənubdakı Qafqaz xalqları,
Uzaq Qərb elində Baltik xalqları…

Hamının üzündə sonsuz məhəbbət,
Hamının hamıya sədaqəti var…
Bu nə xoş xəbərdi, bir deyin görüm.
Bu nə şad xəbərdi, deyin, insanlar!

Azaddır xalqımız azad Vətəndə!!!
Adını çəkdiyim bu azad xalqlar
Bir də əsarətdə qalmayacaqlar.
Bir də aclığından özgə qapıda
Çörəkçün qalmaqal salmayacaqlar.

Əgər versə xalqlar bu gün əl-ələ,
Azad yaşayacaq bax indən belə.
Unutma, azadlıq – ən şirin nemət,
Onunçün vuruşaq – budur həqiqət!

P.S. Qoç igidlər basılmadı döyüşdə,
Qan da verdi, öndə getdi hər işdə.
Yuz yol ölçdü, bir gün getdi behiştə.
Tarixi yaratdı Vətən uğrunda,
Sədası hər yerə yetən uğrunda!
Boy atsın hər zaman gözəl Vətənim.
Qoy xoşbəxt yaşasın əzəl Vətənim!

Ana Vətən, bu şənliyi sən verdin,
İlhama gətirdin, ruha yetirdin.
Hər insan əməyi bizdə qiymətli,
Qurub-yaradanın yolu şöhrətli.

Mən də doğma ellə bu əziz gündə
Görürəm səadət elin üzündə.
Baxıram, ellərim gülür, sevinir,
Onunla sevinir, sevir, gülürəm,
Onunla birlikdə mən də bilirəm:

Bu gün aya, marsa, qızıl günəşə
Romantik olsa da uçub gedirəm.
Bu gün aya uçan raket içində
Sabah canlı insan uçub gedəcək.

Məskən salıb orda istənilən vaxt
Bizi «Aylı qızla» tanış edəcək.
Bütün arzulara çatan bir insan,
Qoruyur yağıdan hər zaman bizi!
Yetişək arzuya həqiqət kimi,

Yetişək vüsala bir millət kimi.
Mənə bu sevinci Vətən veribdi,
Ondan ayrılmaram son mənzilədək.
Vətənim, qarşında mən diz çökərək
Deyirəm: Sənləyəm axır günədək!!

*01.V.1959.*
*Minsk şəhəri, Maçulişşi qəsəbəsi.*

# İRƏLİDƏ GEDƏNLƏR

Hər tərəf ağappaq idi: tarla, meşə, ağ cübbə geymiş adamlar, kəşfiyyatçıların başı üzərindəki ağ duman. Xeyli vaxt idi ki, əsgərlər belə bir sakit ağ aləmdə irəliləyirdilər.

- Yoldaşlar, irəlidə dincələcəyik! – dəstə boyu səslənən komanda eşidildi.

Axır ki! Azacıq da olsa dincəlmək. Əsgərlər addımlarını tezləşdirdilər. Bu da arzulanan dərə. Kəşfiyyatçıların vzvodu aşağı enib sıraya düzülür.

- Düzlən!.. Farağat! – baş leytenant Salahov əmr verir. O da yorulub, amma bunu büruzə vermək olmaz. - Azad! – Zabit asta-asta sıra boyunca gedir, əsgərlərə baxır: donan yoxdur. – Yorulmusunuzmu, uşaqlar?

- Xeyr, yoldaş baş leytenant! – əsgərlərdən kimsə töyşüyə-töyşüyə cavab verir. Zabit gülümsünür.

- Mən də xeyr, – əsgərlər gülüşürlər. Salahov avtomatını rahatlayır, özünü düzəldir. - Madam yorulmamısınız, onda dincəlməyəcəyik! - Kimsə arxa cərgədə dərindən köks ötürür. Hamı gülüşür. – Tapşırığı bir də müəyyənləşdirək, - deyə zabit əlavə edir.

Vzvod «məğlub» edilmiş «düşməni» izləyir. «Düşmən» hiyləgərdi. O, pusqu qoyur, gizlincə bizim dəstəmizə yaxınlaşır, atəş açır və gözdən itir. Məqsədimiz – «düşmən» kəşfiyyatçılarına aman verməməkdir: əvvəlcə biz onları görməliyik.

Vzvod komandiri xizəyində dəstə boyu sürüşür. Düşünür: kimi bu gün «düşmən» təyin etsin? İki nəfər işbilən, bacarıqlı və dözümlü əsgər lazımdır. Belələri vzvodda az deyil. Bax elə bu Həmidov hərbi hissədə gözəçarpan təşkilatçıdır, birinci dərəcəli xizəkçidir, yaxşı kəşfiyyatçıdır. Daha kimi? Nədənsə belə vaxtlarda eyni adamlar təyin edilirlər. Bəs ən çox yorulanlardan birini göndərsə, necə olar? Onda Həmidov yoldaşına da kömək etməli olacaq: ikiqat vəzifə.

Zabit dal sıraları gözdən keçirir. Deyəsən, kimsə burada ah çəkdi. Kəşfiyyatçıların üzü ciddi idi. Təkcə bir nəfər gözünü döyürdü. Bu, zarafatcıl, məzəli söz ustası əsgər Seyidov idi. Son vaxtlar Həmidovla dostluq edir, həvəslə idman nömrələrini yerinə yetirir, nizam-intizamı da pis deyil. Hərçənd hərdənbir işləri korlayır. Komandir sıranın ortasında dayandı, ağ geyiminin altından xəritə qoyulmuş kiçik yol çantasını – planşeti çıxardı. Hamı sakitcə gözləyirdi.

- Əsgərlər Həmidov və Seyidov, yanıma gəlin! – komandir səsləndi.

Yenə hər yan ağdı. Qabaqda Həmidovun ağır-ağır sürüşən xizəyinin səsi eşidilir. Heç olmasa bir az, bircə dəqiqə dayanıb dincini alaydı. Axı onun işi çox ağırdı: xizəklərin izini itirir. Bəs niyə tələsir: guya doğrudan da əsl «düşmənlə» üzləşəcək. Heç əsgərlər Babayev və Qazıyevdən də «düşmən» olar? Lap başqalarından da. Bu Babayevə o bir vaxt əlborcu da verib. Qazıyevə gəlincə, onunla məhəbbət məsələsində sirlərini bölüşür, məktubu birgə yazır. Hə, axırıncı məktub çox maraqlı idi. Xeyli götür-qoy etdi ki, nədən başlasın: göndərəcəyi şəkildən başqa, qızı maraqlandırmaq üçün təbiət təsvirindən başlayıb əsgəri xidmətdən söhbət açmaq istədi. Fikir ağlabatan idi. İstədi ki, son təlim haqqında, hissə təşviqatçısının dediyi kimi, «sərt iş günləri» barədə də yazsın. Birdən dayandı. Necə olmasa da, bu, hərbi sirdi axı. Axırıncı fikri kənara qoyub «məhəbbətdən» söhbət açmaq istədi: belə yaxşı olar. Yox, bu lap qəliz məsələdi! Fikirləşdi, qəşəng xətlə başladı yazmağa. «Sənin məktubunu aldım və çox xoşbəxt oldum. Mənim keçirdiyim iztirabları anlamağa çalış…» Deyəsən, hər şey yağ kimidi. Məhəbbət haqqında yazacağını daha təsirli etmək üçün yazıçı İ.S.Turgenevdən istifadə etmək lazımdı. Belə şeyləri o yaxşı bilir. «Yox, bu ki vicdansızlıqdı, özgəsindən oğurlamaq». Düşündü ki, məktubun bu yeri lap çətin imiş. Birtəhər yekunlaşdırdı və dostuna oxudu.

- Məktubun lap «zirehdeşənə» oxşayır, heç kəs belə məktubun qarşısında dayana bilməz, təslm olar.

Həmidov dostunu başdan-ayağa süzdü, lap gözlərinin içinə baxdı, şübhələndi. Qazıyev az qala inciyəcəkdi.

- Niyə belə baxırsan, lap qvardiyaçı kimi düz deyirəm, məktubun «zirehdeşənə» bənzəyir.

Həmidov məktubu başqa birinə oxumaq istədi, daha ciddi adama. Elə bu dəm o məşğələ otağına getdi. Əvvəlcə digər dostuna oxumaq istədi. Dostu etiraz etdi ki, özgəsinin məktubunu oxumaq mədəniyyətsizlikdi. Həmidov onu yola gətirə bildi. Bu dostu məktubu bir nəfəsə oxudu və gözlərini Həmidova tuşladı.

- Hə, necədi? – Dostu üz-gözünü qırışdırdı: nəsə xoşuna gəlmədi.

- Bax, yazırsan ki, ondan məktub alanda xoşbəxt idin. Bilirsən, xoşbəxtlik elə bir sözdür ki, onu hara gəldi calamaq olmaz. Onu qorumaq lazımdı, çox qənaətlə işlətmək lazımdı. Bax, sən özün xoşbəxtliyi necə anlayırsan?

Həmidov duruxdu, fikirləşdi.

- Doğrusu, çox ciddi sualdı. E… necə deyərlər, xoşbəxtlik odur ki, əhvalın çox yaxşıdı… belə başa düşürəm, - özü də dediyinə şübhələndi. Qazıyev gülümsündü.

- Əgər hər şey səninçün yaxşıdırsa, bu hələ xoşbəxtlik deyil. – Həmidovun yadındadı. Bu sözləri eşidəndə hətta söz ustası, hazırcavab Seyidov da özünü itirdi. Doğrudan da, əgər bir nəfər özünü məmnun hesab edirsə, bu xoşbəxtlik ola bilərmi? Xoşbəxtlik mübarizədir. Bax belə!

- Nə dedin, haa!.. – Seyidov gülümsündü. – Səncə, suda boğulan da mübarizə edir, həyatını xilas etməyə çalışır, məgər bu xoşbəxtlikdi?

Həmidov hiss etmədi ki, bayaqdan əsgərlər onları dövrəyə alıblar, boylanırlar, gülüşürlər.

- Bəli, xoşbəxtlik – mübarizədir, hamının yaxşı yaşaması üçün edilən mübarizədir. Mən belə anlayıram.

Məşğələ otağında heç kəs yox idi. Həmidov bir küncə çəkilib məktubu yenidən yazmağa başladı. Çox fikirləşdi, qərarını dəqiqləşdirəndən sonra «xoşbəxt oldum» kəlməsini qaraladı, razı halda «sevindim» yazdı. Bir az fikirləşdikdən sonra «lap çox sevindim» yazdı. Zərfi yapışdırıb ətrafına boylandı. Gördü ki, Seyidov Qazıyevlə əyləşib şahmat oynayır, ancaq o taxtaya deyil, başqa səmtə

baxır: gediş haqda fikirləşir, yoxsa, yoxsa… Kim bilir, insanı anlamaq asandırmı?

Bax, o qabaqda xizəklə sürüşür, elə bil heç dayanmayacaq. Niyə belə tələsir? Seyidov əyildi, isti əlilə bir qədər qar götürdü, ağzına basdı.

- Əsgər Seyidov, tez olun qarı yerə tüpürün! – O, bunu necə gördü: bəli, Salahov həmişə belədi: etiraz etmək olmaz, axı, o böyükdü. Əvvəllər lap starşinayla mübahisə edə bilirdisə, rota komandirini narazı halda dinləyirdisə, indi olmaz. Bir dəfə mübahisəyə, narazılığa görə onu cəzalandırdılar da, «yoldaşlıq məhkəməsində!». Rəyasət heyəti seçib, gündəlikdəki məsələni elan etdilər. Qarşısında dostları da əyləşmişdi. Katib seçilən dostu hamının çıxışını protokola yazmalıdır, başqa cür ola da bilməz. Onun haqqında deyiləcək bütün iradları da. Belə də lazımdır, dostlar heç nəyi gizlədə bilməz axı.

Beləcə fikiriləşə-fikirləşə əsgərlər təlim yerinə çatmağa tələsirdilər...

***Minsk şəhəri, Maçulişşi qarnizonu, 1959-cu il.***



# Lirika səhifəsi

## GETDİ

Dağ başında bir qız gördüm,
Qayalarla qaçıb getdi.
Ha boylandım, yalqız gördüm,
Yamaclardan aşıb getdi.

Gül-çiçəkdən qida alıb.
Çoxlarını oda salıb.
Zirvələrdə səda qalıb,
Buluda söz qoşub getdi.

Ağlım başımdan apardı,
Yaşın yaşımdan qopardı.
Məni çəmənə yapardı,
Görkəmimdən çaşıb getdi.

*2007*

## MAT QALMIŞAM

Deyəsən, bu dünya dəyişməyəcək,
Bu dünya yamanca qəlizləşibdi.
Kor olub gözləri, düzü görməyir,
Şeytanlar gözünü çoxdan deşibdi.

Haqqı eşitməyir, hey onu qovur,
Uçurur dağları, dibini oyur.
A dostum, köməyə Tanrını çağır,
Şeytanın külünü göylərə sovur.

Anlaya bilmirəm, necə olub ki,
Mələklə birlikdə şeytan yaranıb?
Mələyi xəlq edən, indi bilib ki,
Şeytanın üzünə aləm dayanıb.

Nə bilsin Yaradan yara olacaq,
Şeytanlar dünyanı tora salacaq.
Dünyanın çarxını şeytan fırladır,
Dünyaya ən böyük qara yaradır.

Ya Rəbbim, bizlərə özün kömək ol,
Bu dünya şeytana oyuncaq deyil.
Dünyanı qoruyaq, bizə örnək ol,
Sənin qüdrətinə olaq biz mail.

*2007*

## LÖVHƏ

Yollar uzun, zaman qısa, söhbət şirin, ya acı,
Kəhərimiz zarıyaraq iməkləyir yamacı.
Göydə günəş yoxa çıxır, gəlir gecənin tacı.
Sərin hava üzür məni, susdurur.

* * *

Uca dağlar, boz qayalar, göy duman,
Soyuq bulaq, yaddan çıxır yay tamam.
Bax qayaya, baş fırlanır, ay aman,
Qıy vuraraq qartal sarı uçdurur.

* * *

Əldə qələm, əldə dəftər, ya kitab,
Axtar sözü, qur cümləni, de xitab,
Gözüm gəzir bənövşəni, o itib.
Dağlar mənə bir ceyranı pusdurur.

* * *

Qəlb sevinir, gözlər gülür, açılır,
Günəş baxır, ətrafa nur saçılır,
Yad gəlişdən kəpənəklər qaçılır.
Ov tüfəngi düşür yerə, uzanır,
Uzandıqca yaman savab qazanır.

*2007*

## ŞİKAYƏT

Dəli könlüm, nə gəzirsən biyabanda,
Bağ-bağçalar səni görüb yox olub?
Kimlər gəzir sən tikdiyin eyvanda,
Sən əkdiyin gül-çiçəklər yox olub?

Kimlər gəldi yurd-yuvanı taladı,
Tüstü qoydu, orda ocaq qaladı?
İnanmır ki, yurdum qoca qaladı,
Bu yurdlarda neçə yağı yox olub.

At çapıblar bu yerlərdə ərənlər,
Elə dayaq, dosta qılınc verənlər,
Haray salıb yağı düşmən görənlər,
Ömür sürüb, güzəranı tox olub.

Zaman gələr, yanmış yurdum cücərər,
Gül balalar bu yurdları becərər,
Onda mənim ruhum gülər, dirçələr.
Elmizin toy-bayramı çox olub!

*2007*

## İSTƏK

Açılan çiçəklər barsız olmasın.
Bağçalar heyvasız, narsız olmasın,
Ərənlər sevinsin, yarsız olmasın,
Bu dünya necə də məzəli imiş.

Bağlanmış qaplıar açılmayırsa,
Ovçunun əlindən qaçılmayırsa,
Torpağa bir toxum sancılmayırsa,
Bu dünya nə qədər qərəzli imiş…

*2007*

## NƏSİHƏT

Gəl əzizlə torpağını, daşını,
Ana yurdun öp üzünü, başını,
Yadda saxla tarixini, yaşını,
Qoru onu yad əllərdən həmişə.

Çiçək açsın, bar gətirsin bağları,
Yaşıllaşsın yamacları, dağları,
Əssin yellər, sığallansın zəmilər,
Avaz çalsın, mahnı desin göy meşə.

Təzələnsin cığırları, yolları,
Yaşıllaşsın qobuları, yalları.
İgidlərin güclü olsun qolları,
Baxım, gülüm, həm sevinim bu işə.

Gözəlliyə qoy öyrənsin gözümüz,
Tikək, quraq, qoşa qalsın izimiz.
Nəğmə desin gündüzümüz, gecəmiz
Səriştəli, avand olsun işimiz.

*2007*

## DÜŞÜNÜRƏM

Nə müddətdi gəzinirəm şəhəri,
Dolanıram künc-bucağı səhərdən,
Qaçıb yuxum, axtarıram səhəri,
Dərdə dərman soruşuram şehlərdən.

Biləydim kaş kimlər qarğış eylədi,
Neştər aldı, ürəyimi teylədi.
Dedilər ki, günahkarsan, böylədi,
Kömək üçün axtarıram mən həmdəm.

Ağ duvaqda doğulmuşam dünyaya,
Elə bil ki, atılmışam röyaya.
Üz tuturam səmadakı tək Aya,
Zühur etsin, mənə göndərsin məlhəm.

Şəhər nədi, qaytar mənə yurdumu,
İblis bizə bu tələni qurdumu?
Haqq vuruşa hazır olsun ordumu!
Qollarımı bağlayanlar vardımı?!

Qarı düşmən, tez ol, tərk et yurdumu,
Köməyimə çağırıram ordumu!
Kəsər, tökər, oda tutar yurdunu,
Tükəndirmə gəl səbrimi, gec olar!

*2007*

## DODAQDƏYMƏZ

Asta yeri, dəli ceyran, yarın gəlir sənə sarı,
Çoxlar oldu hüsnə heyran, al kəndiri, qolun sarı,
Gəldi-gedər dünyasından rənglər köçdü, qaldı sarı.
Gileylidi gözlərindən, göndər gəlsin sarı-sarı.

Çöhrən yandırır elləri, hey ağlayır nazın çəkən,
Xəzan titrədir telləri, haraylayır sazın çəkən,
Yada salır tar illəri, haray salan, yazan, çəkən,
Sızıldadır könülləri, dərdin, sərin azın çəkən.

Xəstə salır hörüklərin, xəstə yatır, olur qara,
Çox igidlər dərdə düşür, qanı donur, dönur qara.
Çarə yoxdu aşiqlərə, söyləyirlər qara-qura
Çarəsizlik üzər səni, hey gedərsən qara-qara.

*2007*

## DEDİN

- Sənə sarı bir də addım atımmı? -
İtələdin əllərimi «yox» dedin.
- İnanmaqçün badəmə zəhr qatımmı? -
Gül dəstəmi atdın, «yerə sox!» dedin.

Səndən ötrü tək deyiləm divanə,
Nə edim ki, sevgim düşsün bəyanə?
Həsrətindən dünyam dönüb zindana,
Nə dedinsə, ürəyimə ox dedin,
İnanmadım sözlərinə, çox dedin…

*2007*

## CAVAB VER

Nə baxırsan yanı-yanı
Ay arımın balı, şanı,
Gözləyirsən sən axşamı
Qaranlığı yox etməyə?

Cüt gözlərin yanar çıraq,
Sevənləri hayqıraraq
Yol gedirsən qıraq-qıraq,
Bəxtəvəri tox etməyə?

Gözün gülür, ürək açır,
Telin hürkür, ləbin qaçır,
Dan sökülür, işıq saçır
Naz-qəmzəni çox etməyə?

Kirpiyindən ox tökülür,
Qaşın qorxur, yan çəkilir.
Yanağında lalə yanır
Kabab kimi qax etməyə?

*2007*

## İNANIN

Çətin imiş el-obanın həsrəti,
Kimlərəsə qismət olsun demərəm.
Bal, yağ sürtsən ağ fətirin üstünə,
Zəhər billəm, canı-dildən yemərəm.

Vətən mənə bütöv dünya, bilinsin!
Vətən üçün qoy həyatım silinsin!
Düşmənimdən kaş qisasım alınsın!
Özgə diyar cənnət olsa, sevmərəm.

Silah verin, qoy sarılım silaha,
İndi verin, saxlamayın sabaha!
Vətən üçün mən yolumdan dönmərəm!
Yalan desəm batım məni günaha,
Qıyma-qıyma doğransam da, dinəmərəm.

*2007*

## QISQANCLIQ

Milçəyə də qısqanıram, yapışıbdı çiyninə,
Lənət olsun köynəyinə, sarılıbdı əyninə.
Kaş girməsin yad fikirlər beyninə,
Ətirə də qısqanıram, öpür bəyaz sinəni.

Külək necə cürət edib oxşar qara telini,
Kəmər niyə insafsızdı qucaqlayıb belini,
Çiçəklərin həddi yoxdu, bəzəyiblər əlini,
Saf sevgimə «yox» dediyin dodaqların qurusun.

Sənə sarı hey uzanır sol qolum,
Bağlı qalsın, açılmasın qoy yolum,
Özgəsinə könül versəm, lal qalım,
Taleh bizi birləşdirsin, qorusun.

*Dekabr, 2007*

## ÜZRXAHLIQ (ANAMA)

Ay nənəsi, yağı yolum kəsibdi,
Sən tərəfə qara yellər əsibdi,
Tufanlı qar yollarımı basıbdı,
Necə gəlim mən səninlə görüşə?

Xiffətindən günüm qara olubdu,
Dərdin məni dərdi-sərə salıbdı,
Yeyib-içmək zəhrimara qalıbdı,
Silahım yox, çıxım yola-yürüşə.

Ahü-naləm yağıları xar etsin,
Üzü dönsün, cəhənnəmə var getsin,
Dəstə-dəstə yollarına sar getsin,
Azıb yolun bəlkə mənnən barışa.

O gün olsun bəxt ulduzum parlasın,
Sevinc qarı hər tərəfə qarlasın,
Elim gəlsin, tapsın yurdun, tarlasın,
Açım qolum, biz səninlə öpüşək.

Dərsə gedən nəvələrim oxusun,
Nəfəs alım, duyum elin qoxusun,
Gülsün obam, yatsın şirin yuxusun,
Bəlkə onda ruhun mənlə barışa.

Yağış yağsın, dağ-dərələr yuyulsun,
Zəlil olsun yağı gözü, oyulsun,
Ana yurdum, qəm yuxudan ayılsın,
Kəhrizlərim bəlkə onda gurlaşa.

Yurdum deyib gecə-gündüz ağlaram,
Ata yurdsuz çətin bir də çağlaram,
Lal olaram, dilim-ağzım bağlaram.
Gözlərimi bağlayaram yağışa,
Düşmənlərim qərq olsunlar qarğışa.

*Dekabr, 2007*

## XİTAB

Çilvələnib nə diyardan gəlirsiz,
Qaqqıldaşa-qaqqıldaşa, a qızlar?
Sizi görcək aləm tamam odlanır,
Çaparlayır, yarın tapır yalqızlar.

Zülfün açıb dal gərdənə tökmüsüz,
Elə bil ki, bircə-bircə əkmisiz,
Sığal verib qələm qaşa çəkmisiz,
Əksinizi çölə yapar nərgizlər.

Sağa-sola ərənləri gəzərlər,
Çiçək olub dörd bir yanı bəzərlər.
Tələsəndə məhəbbətdən bezərlər,
Həvəslənib qatar tutar nər qızlar.

*Dekabr, 2007*

## DİLLƏNSƏNƏ!

Harda qaldı o günlər, yanaşı əyləşərdik,
Mahnı bəstələyərdik, oxuyardıq səs-səsə?!
O incəlik hardadı, sevinib gülüşərdik,
Sevgi payı verərdik dinləyənə, hər kəsə.

## AZƏRBAYCAN GÖZƏLİ

Bax ağlına, kamalına,
Bu yerlərin maralına.
Nəqqaş vurmaz camalına,
Tanrı vermiş gözəlliyi.

Görkəmi can, baxışı qan,
Ötkəmi lal, duruşu şam.
Dil qəfəsə qoymur, aman,
Yaratmışdır Azərbaycan.

*2007*

## QOŞA YAŞA

Daha bir il biz qocaldıq,
Günlər, aylar nə tez qaçır?
Əyilmədik, düz ucaldıq,
Həyat bizə qucaq açır.

Dan ulduzu, qızıl günəş,
Qalx yuxudan, oyna, güləş,
Qazı yeri, torpağı eş,
Zəhmətinlə tərlə, əlləş.

Əl edirik ötən ilə,
Sevinirik gülə-gülə.
Bircə bunu görmürük ki,
Ömür itir gilə-gilə,
İllər bir-bir gələ-gələ.

Elə bil ki, uşaq idik,
Yaş üstünə bir yaş gəlir.
Sevinirik: böyüyürük,
Demirik ki, il keçdikcə
Ömrümüzlə ötüşürük.

Dünənki gün uşaq idik,
Bu gün bir yaş böyümüşük.
Düsər çaldıq, ağac əkdik,
Bəhrəsini indi gördük.

Gəl ömrünü elə yaşa,
Deməyəsən: dəydi daşa.
Zəhmətinlə ol baş-başa,
Qoşa yaşa, qoşa yaşa,
Qışı yaşa, qışı yaşa.

*01.01.2008.*

## AZƏRBAYCAN VƏTƏNDAŞI

Yuxusuna haram qatan,
Bünövrəyə sal daş atan,
Bayrağını uca tutan,
Titanlardan fərqli titan,
Azərbaycan vətəndaşı.

Dalğaları ram eyləyir,
Əzəl işin tam eyləyir,
Şübhəni viran eyləyir,
Sevinci bayram eyləyir
Azərbaycan vətəndaşı.

Dediyi söz işə dönür,
Haqq işini peşə sanır.
Ölkələrdən soraqlanır,
Hər uğura yaraqlanır
Azərbaycan vətəndaşı.

Hər daşı bir yadigardır,
Hər kəndində igid vardır,
Hər diyarı laləzardır,
İnsanları bəxtiyardır,
Azərbaycan vətəndaşı.

Tapılacaq itən daşın,
Torpaq altda yatan daşın,
Dəryalarda batan daşın.
Zirvələrə çatsın başın,
Baş ucaldan vətəndaşım,
Azərbaycan vətəndaşı.

*10.01.2008.*

## ƏLVİDA

Daha gəlmə, nəyə gərək,
İnnən belə göz yaşların?
Fərman verdin rədd edərək
Haça çatdın sən qaşların,
Bəyənmədiyin ağ saçlarım.

Kimə gərək hay-harayın,
Nəyə kömək ahu-vayın?
Yaşayardıq şad-şalayın,
Əgər inansaydın onda –
Haqq söylənən dar məqamda.

Gün batıbdı, karvan gedib,
Hər tərəfdə orman yatıb,
Xar vurulub, xırman batıb,
Ələk qaçıb, xəlbir itib,
Yol boşalıb, zaman bitib.

Gözlərindən qan töksən də,
Özün çarmıxa çəksən də,
Çöllərə nərgiz əksən də,
Lələ köçüb, yurdu qalıb,
Sənə olan sevgim solub.

Bu dünyada yoxam, inan.
İndi gedib rahat dolan.
Sənə hamı lənət söylər,
Olacaqsan tamam peşman,
Göstərəcək bunu zaman.

*15.01.2008.*

## BƏXT ULDUZUM

Nə deyirsən, söylə, görüm,
Gileyini eylə, görüm,
Niyə oldu böylə, gülüm?
Bəxti yazan belə yazıb?

Yollarımız ayrılanda,
Ulduzumuz parlayanda,
Saçımıza qarlayanda,
Yəqin ki, bəxtimiz azıb.

Əhdi-peyman etsək də biz,
Döyünsə də bir qəlbimiz.
Düşünmədik sonun şəksiz,
Bəxti yazan özü pozub.

Başqa səmtə getdi yollar,
İmdad dilər göydən qollar,
Qovuşmursa cüt amallar,
Haradansa günah sızıb.

*25.II.2008.*

## KAMİLİN QABOYU

Ay Kamilin qaboy səsi,
Sənə kim verdi həvəsi?
Sədan yaman haray salır,
Dərd çəkənin canın alır.

Hayqırırsan dağ başında,
Nalə çəkir, saç yolursan.
Ərşə çəkmisən yuxumu,
Sədan yox edir qorxumu.

And verirəm Ana südə,
Bir az dolan sən asudə.
Alov saçan qaboy səsin
Qəlbi yaxıb yandırmasın.

Gəzib dolan el-obanı,
Çalış yetişsin zamanı.
Gözləməyək biz amanı,
Tarımlayaq ox-kamanı.

Balası itmiş ananın
Fəryadını qoparırsan.
Lənətə gəlmiş zamanın
Harayını aparırsan.

Daha bəsdi, sızlamayaq,
Təbil çaldır, el yığışsın!
Selə dönsün, sellər axsın,
Qoy göylərdən şimşək çaxsın!

Yağı düşmən qoy səsindən
Tir-tir əssin nifrətindən.
Qol götürüb qız-gəlinlər
Yollara çiçək səpsinlər.

Vağzalı çal, şur səslənsin,
Qarabağa gəlin gəlsin.
Haray salsın toy havası,
Unudarıq bəlkə yası.

Qara geymiş qız-gəlinlər,
Həvəslənib oynasınlar.
Qatarlanıb söz desinlər,
Bulaq kimi qaynasınlar.

*26.II.2008.*

## YAZIÇI ƏLİRZA XƏLƏFLİYƏ

Əlirza bəy, and verirəm Tanrıya,
Diridağdan xəbər tutsan, mənə de!
Talan olur, qoymazlar ki, tanıyaq,
Qorumuruq, bu bizlərçün tənədi.

Sağa-sola əl-qol atıb yazırsan,
Səhv düşəndə yazdığını pozursan,
Düz sözdən də bəzən qaçıb azırsan,
Toxunmasın, sözüm sənə, sənədi.

Kimə deyək dərdimizi eşitsin?
Kimlər bizim sözümüzdən diksinsin?
Kimsə, dedik, bəlkə kömək eyləsin,
Demədik ki, dərdimizdən yan keçsin!

Nə azardı, biz olmuşuq mübtəla?
Bilirsənmi, necə gəldi dərd, bəla?
Kimlər saldı, de, bizləri bu hala?
Tutacaqmı onları da ah, nala?

El malını talayanlar bəllidi,
Hamı bilir, sayı ya qırx, əllidi.
Düşəcəklər bir zamanlar tələyə?!
Cümləsini tapşırıram Fələyə!

Səcdəgahlar yolumuzu gözləyir,
Hacıqaraman, Mazan nənə sızlayır!
Aldanmışıq yağılara, yadlara,
Kaş düşsünlər bir zamanlar odlara!

Odumuz yox, ocağımız sönübdü,
Ərənlərin çoxu yurda dönükdü!
Bir çarə de, yandı bağrım, çatladı,
Bir də gördün ürəyim lap partladı.

P.S. Bağışlamaz nə qocanı, cavanı,
Kəsdi üstüm Əzrail, ta haqladı!!!

*4.IV.2008.*

## YAZ GƏLƏNDƏ

Yaz yağışı duman, çiskin gətirər,
Yağar yağış, hər tərəfi ot eylər.
Çoban yatsa sürüsünü itirər.
Günəş doğar, yal-yamaclar isinər.
Yaz günəşi tez alışar, tez sönər.

Sısqa yağış adamları bezdirər.
İslansa da çoban bürük gəzdirər,
Quluncunu çomağıyla əzdirər,
Aşıq olar, söz axtarar, düşünər,
Tez diksinər, xam xəyaldan daşınar.

Külək əsər, ağacları oyadar,
Uzaq getməz, tez-tələsik qayıdar.
Qayalar sərt, dağ sürüşkən, cığır dar,
Qoyun-quzu hey çırpınar, qaşınar,
Fürsət tapsa dağ başına daşınar.

Qız-gəlinlər bulaq üstə tələsər,
Soyuqlayar, gah titrəyər, gah əsər,
Bilirlər ki, yaz yağışı gec kəsər.
Gur yağışdan gərmə-təzək aşınar,
Çal-çağırla mərəklərə daşınar.

Yetim qardaş, əlinə al tişəni,
Əldən qoyma öz işini, peşəni,
Dağ döşündə əkib becər meşəni.
Bir zamanlar burdan odun daşınar,
Sən ölsən də, heç olmasa, daş anar.

*10.IV.2008.*

## ŞAİR ZƏLİMXAN YAQUBA MƏKTUB

Ay Zəlimxan, halın məni ağrıdır,
Çal-çağırın sonu bumu cahanda?
Ürək dözmür, dağ sinəni dağıdır,
Nəki qoca, heç dözməyir cavan da.

Özü kiçik, yükü nəhəng, neyləsin?
Dərdlər böyük, getsin kimə söyləsin?
Çalış dözsün, dərdə dərman eyləsin,
Yaşayırıq, dostum, əcəb zamanda.

Ox dartılar, çəkər zülmü kamanla,
Gecə-gündüz hey səslənər amanla.
Dünya bitməz nə yaxşıyla, yamanla.
Vaxt yetişər dəqiqəsi tamamda.

Çox yetirib qoca dünya xan, aşıq,
Çox deyiblər sevilənə xan aşıq.
Sən aşıqsan, külli-aləm sevəcək.
El deyəcək, yaşa, ey azman aşıq!

*15.IV.2008*

## ŞAİR MƏMMƏD ARAZI XATIRLARKƏN...

Niyə söyləyirsən «dünya heç kimin»?
Bu dünya həm sənin, həm də mənimdi.
Dünya sənin, dünya mənim vətənim,
Dünyanı dağıdan mənə qənimdi.

Dünyaya biganə olaqmı, səncə?
Dünyanı viranə qoyaqmı, səncə?
Dünyanı hər zaman soyaqmı, səncə?
Bu dünya hamıya gərəkdi, qardaş.

Dünyadan hamıya pay düşür, inan.
Qaynayır dünyamız, hey aşır, inan.
Dünyada gurlayan çay çaşır, inan.
Bu dünya hamıya mələkdi, qardaş.

Gəl quraq, yaradaq dünya evini,
Bu evdə hamımız yaşayaq, sevək.
İnsafmı talayaq dünya elini?
Dünyanı yaşadan əməkdi, qardaş.

Kimsə bu dünyadan əliboş gedir,
Duyuram, dünyadan bir sərxoş gedir,
Dayanmır yolunda, lap birbaş gedir,
Qeybətdi amalı, yeməkdi qardaş.

Yetimin sözünü anlayıb düşün.
Gileydən, qeybətdən ayılıb daşın.
Dünyanın bizlərə ehtiyacı var:
Şəninə xoş sözlər deməkdi, qardaş.

*14.IV.2008.*

## GƏL

Demişdim ki, özün məni sevib gəl,
Dемədim ki, səni mənə versinlər.
Demişdim ki, göy çəməni gəzib gəl,
Dемədim ki, sevgimi çox görsünlər.

Sevənlərin yolu daşlı, kəsəkli,
Heç olmayır açıq, yaşıl, bəzəkli,
Elədirsə sevgi yolun kəsəkmi,
Məhəbbətə sevinəkmi, əsəkmi?!

İmtahanlar vermək borcum olubsa,
Sınaqlardan çox keçmişəm, əzizim.
Səni sevmək mənim arzum olubsa,
Sevgi zəhrin çox içmişəm, əzizim.

Sevən kəsdə dözüm olmaz, onu bil.
Sevmirəmsə, izim qalmaz, onu bil,
Qışım olmaz, yazım olmaz, onu bil.
Eşq toxumun məhv edəkmi, əkəkmi?!

Sevənlərin ürəyində yağ olmaz,
Gecə yanar, gündüz yanar, çağ olmaz,
Ürək sızlar, bel bükülər, sağ olmaz,
Sevgi yükün çox çəkmişəm, əzizim.

Yalan yerə sevdim demə, günahdı.
Yalan sevgi, sonda nalə, ya ahdı.
Haqq sevənin ömrü, günü yaz olar,
Yetim sevsə, sevgisi pərvaz olar.

*21.IV.2008.*

## ATALAR SÖZÜ

Yaxın otlar dəvə, uşağı gözlər.
Bağban yatmaz, bağçanı-bağı gözlər.
Şimşək çaxsa vurar dağı, gözləməz,
Çaxar, yıxar, çox uzağı izləməz.

Yetim qardaş, gözünü qan örtməsin,
Gəl özünü kola-kosa dürtmə sən.
Yaxını gör, heç uzağa getmə sən,
Yovşan olub qəbirlikdə bitərsən.

*22.IV.2008.*

## DOSTUM BARAT MƏMMƏDOVA

Qoy qələmin pas atmasın,
Yuxu tutub fıs yatmasın.
Bədbinliyi yaşatmasın,
Söylədiyin sevilsin qoy.

Yazı-pozu çətin işdi,
Yazıb pozmaq bir vərdişdi.
Yəqin, bu da bir gərdişdi,
Qələm yazsa, yaşar boy-boy.

Yazmayırsa işi fəğan,
Yazdığına yox qadağa,
Düşsə əldən gər uzağa,
Dərdin çəkən olmaz, oy-oy!

Yetim bilir yazmaq nədir,
Yuxuları yozmaq nədir,
Haqq yolundan azmaq nədir,
Azsan yolun, yaşarsan «toy».

*24.IV.2008.*

# MƏN ŞAİR DEYİLƏM

Mən şair deyiləm, cürətim çatmaz,
Şairlik Tanrıdan qismətdi, bilin.
Hər şeir deyənin şöhrəti artmaz,
Sözləri dürr olsa tanıdar elin.

Nə çoxdu dünyada söz qoşan kəslər,
Söz qoşub, saz çalmaq aşığa qismət.
Ağıllı sözlərdən saz coşar, səslər,
Coşdurar insanı, yaradar qeyrət.

Sazın, sözün, balabanın şöhrəti
Bəllidir aləmə - babam Qorqudun
Qoç oğuz elinin malı, sərvəti,
Bayrağı, qopuzu Odlar yurdunun.

Söz sahibi gərəkdir ki, saz tuta,
Düşündürə, söhbətinə yaz qata.
Dürr söyləyə, sözlərinə duz ata,
Bəlkə, onda şan-şöhrətə tez çata.

Əzizlərim, mənə şair deməyin!
Şairlərin söz qüdrətin Haqq verir.
Deyiləmsə, «şair» sözün deməyim
Hansı vəchlə, deyin, mənə haqq verir.

Söz deməyi bacarmırsan, sus, otur,
Eşidən yox, hövsələni bas, otur.
Yetim bala, hər kəs səni susdurar,
Quzu bilib ayağından asdırar,
Qol-bud edib qora-közə basdırar.

*28.IV.2008.*

## EYLƏMİSƏN

Çöhrəni görənləri məst-xumar eyləmisən,
Əlinə neştər alıb gözün bimar eyləmisən.
Qəsd edib sevənlərə eşqi azar eyləmisən.
Eşqə düş, mən sevinim, özün qəddar eyləmisən.

Təbiət bəxş eləmir gözəlliyi hər bir kəsə,
Bir zamanlar qocaldıb əllərinə verər əsa.
Qorx ki, başın üstündən əsər xəzan küləkləri,
Susdurar, lal eyləyər, xatırladar əməlləri.

Bülbülün gülə eşqin əlindən alsalar birdən,
Çatladar ürəyini, sinəsini qan eyləyər.
Tapa bilməsə çarə, qışqırıb fəğan eyləyər,
Çırpınar tikan üstə, özünü qurban eyləyər.

Bu nə sirdi, ay Yetim, ay sərsəri, söylə görək,
Bəlkə,bir çarə qılaq, sözlərimiz olar gərək.
Eşq odu görməyənin gözləri kor, bəxti qara.
Sevənlər Məcnun olur, getdiyini bilmir hara.

*29.IV.2008.*

## OLMAYIB

Çox döyüb söyənlərin axırını eşitmişəm.
Qaynayan qazanların paxırını eşitmişəm.
Gurlayan dağ çayının axarını eşitmişəm,
Amma nə faydası ki, kimsəyə bu dərs olmayıb.

Gec yatıb tez durmağım uşaqlıqdan vərdiş olub,
Xeyirli ya xeyirsiz, axır ki, bu bir iş olub.
Başıma gələnlər də İlahidən gərdiş olub.
Bilmirəm nədən belə, qismətimə bəs olmayıb.

Üzümə çor deyənin sifətinə tərs baxmışam.
Acı bir təbəssümlə «ülfətinə bəs» baxmışam.
Lovğalıq eyləyənin üzünə əbəs baxmışam.
Qolunu çırmalayan beləsindən səs olmayıb.

«Yaxşılığa yaxşılıq hər igidin işidi».
«Yamanlığa yaxşılıq nər igidin işidi».
Yetim bilir, bu işlər zor igidin işidi,
Zor igidin zor işi heç vaxt əbəs olmayıb.

*01.V.2008.*

## SƏYYAHIN QƏMİ

Gülüşün görənlərin gözlərini qamaşdırır,
Andırır keçmişini, sözlərini, həm çaşdırır,
Mat qalır gördüyündən, içindəsə qan ağlayır,
Çevrilib yandan keçir, başına dərman bağlayır.

Cismini dağda sanır, gizlincə hey için çəkir,
Sayrışan çiçəklərin cümləsinə biçin çəkir.
Gileyi dağda qalır, qayalarda dalğalanır,
Qovrulur od-alovun tüstüsündə alovlanır.

Fələyin bəxş etdiyi ömur ona qəm gətirir,
Qaralır dörd bir yanı, gözlərinə nəm gətirir.
Dağların zirvəsinə ağ örpəkli çən toplanır,
Yetimin cismi donur, gördüklərindən xoflanır.

*2.V.2008.*

## DOSTLUĞUN TƏRƏNNÜMÜ

Candan sevsə dost dostunu, yetişəcək muradına,
Dostluğundan bezməz ürək, and içibsə Yaradana.
Sinəsini xəncər deşsə, ləkə salmaz dost adına,
Haray salar, dağlar aşar, çatar dostunun dadına.

Hey desən də «Dostum yoxdur», inan, sənə inanmazlar,
Varlığına şübhə edər yalnız onu anlamazlar.
Anlamazın bir üzü var, bunu bilir lap qanmazlar,
Anlamırsan, anlama sən, xəta vermə dost adına.

Tale dosta yar olarsa, kimsə bunu poza bilməz.
Fərhad güclü deyildirsə, dağa adın yaza bilməz.
Şər yol tapsa dost evinə, yəqin, Tanrı riza bilməz.
Ay işığı görünəndə dostlar gələr göz önünə.

Unutma gəl dostu bir an, onu tapmaq çətin olur.
Dostun yoxsa, onu bil ki, dünya sənə yetim olur.
Yetim bilir, əsil dostlar ilqarında mətin olur.
Çox görməsin Tanrım bizi, dostsuz dünyam matəm olar.
(Dostsuz dünya tamam sönük, hər gün ölüm-itim olar).

*27.V.2008. Dərnəgül.*

## SEVƏNLƏRİN ŞƏNİNƏ
## (TƏSNİFƏ BƏNZƏR)

Bir boyu bəstə, sevgidən xəstə,
Sanki can üstə, oxuyur asta,
Gülür ahəstə.
Can üzə-üzə, yol aza-aza
Cəhd edir naza, Məcnun gərəkdir
İşvəsin poza.

Duruşu candı, görkəmi qandı,
Görənlər yandı, Allah, amandı,
İşim fəğandı.
Sona tək yatır, çiçəkdə batır.
Diksinir hərdən, sevgidən, tərdən
Titrəyir gərdən.
Görən məst olur, gözləri dolur,
Çöhrəsi solur, sanki göylərdən
Ona qəsd olur.
Bu nə afətdi! Lap fəlakətdi!
Cürət et, dindir. Görən kimindi?
Kimə qismətdi?
Ay sarı bülbül, qanadı sünbül.
Qoyma qəmlənim, hey oxu, hey gül,
Açsın qızıl gül.
Qoca çağında, baba bağında
Yetim gəzinsin, çiçəklər dərsin,
Aşiqə versin,
Qəlbi sevinsin!

*30.V.2008.*

## MƏHƏBBƏTİ KORLAYARSAN

Yarım mənə yar olmadı, günahkaram mənim özüm,
Yar eşqimiz var olmadı, tapılmadı məndə dözüm.
Dünya-aləm yarla dolu, düzülübdü düzüm-düzüm,
Bilməm necə çarə tapım, yar dərdini necə çözüm.

Yar deməklə yar tapılmaz, gərəkdir ki, yarın ola,
Yar oduna qar atılmaz, yanğısı əğyarın ola.
Yar eşqini duymaq üçün göz önündə yarın ola,
Həsrətin çox, qeyrətin bol, üz ağardan arın ola.

Hər gözələ bel bağlama, ağı deyib ağlayarsan,
Göz yaşların selə dönər, görənləri dağlayarsan,
Sinən olar para-para, sevgi yolun bağlayarsan,
Sən cəhənnəm ol, ay Yetim, məhəbbəti korlayarsan.

*03.VI.2008.*
*Bakı.*

## BU SİRLƏRDƏN HALİ OLA

Sizlərə qurban olum, a yurdumun qız-gəlini,
Atanız izin versə, görüşünüzə gəlimmi?!
Sizlərdən ayrı düşmək ölümdən də çətin, betər,
Sizlərdən pənah gəlsə kifayətdi, mənə yetər.

Qəbahət eyləmişəm, könlümü açmadım sizə,
Çiçəkdən şirə çəkən arı kimi süzə-süzə.
Bilmədim çiçəklərin çəmən kimi sahibi var,
Sahibi-Zaman desə, çəmənlərin ətri daşar.

Hökmünə bax Tanrının, bütün aləm quldur ona,
Həddi nə gül-çiçəyin, O deməsə girə dona.
Yandırar külli-aləmi, döndərər buza, qara,
Boyayar dağı-daşı, gül səpələr yamaclara.

Hər fəslin öz zamanı, hər bir ayın fəsadı var,
Hər kəsin öz biçimi, hər aləmin öz adı var.
Düzülüb bir sıraya, nəğmə deyir çala-çala,
Gücü çatmaz Yetimin bu sirlərdən hali ola.

*8.VI.2008.*
*Dağıstan, Kizlyər şəhəri.*

## ELİM GƏLSİN KÖMƏYİMƏ!

Qan ağlayır könlüm yenə, ayrı düşmüşəm elimdən,
Yağı məni dustaq edib, qurtuluşum yox əlindən!
Zəhər yağır gözləririndən, alov püskürür dilindən!
Dönərəmmi, ya Rəbb, bir də Vətən adlı diyara mən?!

Kimlər qarğış etdi mənə, kimlər divan tutur yenə?!
Həsrət qaldım doğma yurda, qollarım çatmır Vətənə!
Ağzımda dilim quruyub, damarlarım sanki donub.
Yollarıma od ələnib, ata yurdum yanıb, sönüb.

Vətən mənə gəl-gəl deyir, dərdinə dərman diləyir,
Alovlanan yurd-yuvama göz yaşın hər an çiləyir.
Qollarıma qüvvə gəlsin, parçalayım qandalları!
Araz adlı atı minim, qovalayım yağıları!

Gələcəkmi təpər mənə, şimşək alım ildırımdan!
Ellər mənə kömək olsun, sel tək qopsun sıldırımdan!
Göz yaşından fayda olmaz, Yetim baba, haray elə,
Elin gəlsin köməyinə, igidlərin dönsün selə!

*10.VI.2008.*
*Dağıstan, Kizlyər şəhəri.*

## BU, SON NƏFƏSDİ

Yurddan ayrı düşdüm, ağır xəstəyəm,
Köçürəm dünyadan, «uğur» üstəyəm.
Hamı gücsüz, kimdən kömək istəyim?
Bu gedişdən geri dönmək əbəsdi.

Doğuldum dünyaya bir pətək kimi,
Uzanan əllərə ər, ətək kimi,
Səslərə qoşuldum tər tütək kimi,
Eşidənlər dedi: həvəsdi, bəsdi.

Yurddan ayrı düşmək çətin məsələ,
Kimsə möhtac qoy olmasın tək ələ.
Düçar olsam ağır dərdə mübtəla,
Köməyimə Tanrım, bəlkə, tələsdi.

Anam qəbri səcdəgahım, qibləmdi!
«Ana» sözü tək amalım, kəlməmdi!
Vəhyi gəlsə xeyir-duam, qüvvəmdi,
Gəlməyirsə, Yetim, bu, son nəfəsdi!

*14.VI.2008.*
*Kizlyər şəhəri.*

## DİNLƏ MƏNİ, MAŞUK DAĞI!

Maşuk dağı zirvəsində ömür sürən boz qartal,
Qaldır məni qanadında, Ziyarətə qonaq al...
Bir zamanlar görkəmindən ilham almış gənc şair
Sinəsini parçalamış qurğuşunlar birbəbir.

Qanı məndən, canı səndən, əsir düşdü yad elə,
Böyüdükcə haray saldı, döndü xarı bülbülə.
Sarısaçlar sinov getdi, vuruldular gözünə,
Valeh oldu görkəminə, saçlarına, üzünə.

Şərqdən gələn təzə dölə heyran oldu analar,
Paxıllıqdan saçın yoldu ağ marallar, sonalar.
Kin-küdurət kor eylədi qocasını, gəncini,
Qızışdırdı əsəbləri, lap oynatdı qəmgini.

Maşuk dağı, sən də mən tək ilişmisən kəməndə,
Şaxə qalxan köhlən at tək dolanırsan çəməndə.
Gəl yetişək Ziyarətə, bir dolanaq aləmdə,
Ürəyimiz bir döyünsün, ömür sürək səmimi.

Cəbrayılım gecə-gündüz məni deyib ağlayır,
Tapılmıram, acığından başın qara bağlayır:
Çalın-çarpaz dağ çəkilib sinəsinə, dağlayır.
Çatdır məni Quycağıma, indi mənsiz can verir.

Ana yurdun çiçəyindən dəstə tutum, bağlayım,
Səpələyim şəhidlərin qəbirinə, ağlayım.
Ruhlarından can diləyim, bağışlasa, çağlayım:
Deyirlər ki, şəhid ruhu vuruşana qan verir.

Eşit məni, Maşuk dağı, dinlə məni boz qartal,
Qaldır məni zirvələrə, dözmərəmsə, canım al.
Qoy eşitsin sarısaçlar, gedən karvan qayıdar.
Ümidvardır Yetim lələ, arzuları gül açar.

*28.VI.2008, Kizlyər şəhəri.*

## GƏRƏYİ OL VƏTƏNİNİN

Sevinirsən, sən get sevin, mənim buna haqqım yoxdur:
Ana yurdum talan olur, ürəyimə batan oxdur.
Sənin üçün vətən nədir, nə namusun, qeyrətin var,
Sən kimilər ar bilməzlər, pişik kimi sığallanar.

Ver yeyimdən, ört yatımdan özgə dərdin yoxdur sənin,
Eyş-işrətlə yaşayırsan, sənin yoxdur öz vətənin.
Yaltaqlıqdır peşən sənin, donuz kimi piylənirsən.
Başqaları yer şumlayır, sən yorğanda iylənirsən.

Tər tökməsən, təknəndəki çörəyinin dadı olmaz,
Xış-kotanla güləşməsən, ürəyinin odu qalmaz.
Qoy sevinsin əməlindən elin sənin, oban sənin,
Yetim bilir, zəhmət sevən gərəyidir Vətəninin.

*2.VI.2008.*
*Dağıstan, Kizlyər şəhəri.*

## TURŞSU PARKI (KİSLOVODSK PARKI)

Elə bir diyardayam, dağı, çölü yaşıl çəmən,
Haraya göz gəzdirsən, gəl-gəl deyir göy yasəmən.
Çiçəklər çiçək qovur, ətirindən məst olursan,
Bu yerin görkəmindən xumarlanır, mat qalırsan.

Fələyin sirrinə bax, hər tərəfi möcüzədir,
Elə bil gözəlliyin ünvanı tək bu üzədir.
Hər tərəf yaşıl, sarı, al qırmızı çiçək açır,
Günəşi utancaqdı, xəcalətlə işıq saçır.

Bu yerin quşlarının səsi incə, məlahətli,
Şimşəyi qorxuludur, qəfil gəlir, lap dəhşətdi.
Dağların döşü para, gözlərindən yaş tökürlər.
Bəzəyir insanları yol-irizi, daş əkirlər.

Qızları uca boylu, incəbədən, gözəldirlər,
Analar sığal çəkir, üzlərini bəzədirlər.
Nə həna, nə bir ətir qocasına lazım deyil,
Qəmzəsi can alandı, yerişləri veyil-veyil.

Buranın gəlininin təbəssümü, gülüşü çox,
Qəm-qüssə uzaq ondan, yanağı gül, kipriyi ox.
Saçları ilan kimi sarılıbdı gərdəninə,
Adamı yoldan edir, dərman olur hər dərdinə.

Kişilər tünd rənglidir, qartal kimi baxışlıdır,
Sinəsi həm qolları şəkillidir, naxışlıdır.
Qocanın əllərində əsa yoxdur, yol yeriyir,
Qarılar orda-burda oturub ver-al eləyir.

Yüz illik ağacları göy üzünə hücum çəkir,
Yarpağı ətirlidir, dörd tərəfə kölgə səpir.
Baxanda zirvəsinə papaq başından alınır,
Üz tutur yol aşağı, yavaş-yavaş dığırlanır.

Suyunun dadı turşdu, daş əridir, pas tamlıdır,
Çox dərdə şəfa verir, xəstələrin əncamıdır.
Sorağı uzaqlara gedib çatır, qonağı çox,
Gurlayır, haray salır, heç kimsəyə zərəri yox.

Bu yerin çörəyin ye, suyundan iç, çəməndə qal,
Heç yerdə eşitmədim söyüş, qarğış ya qalmaqal.
Şipşirin yuxuya get, məst eləyən havasın ud,
Oyanıb dağ aşağı uşaq kimi yüyür «dudud!».

Görəsən, bizim elin havasından varmı burda?
Ay Allah, qoyma ölüm bu yerlərdə, dönüm yurda.
Cənnətə yol göstərmə, cəhənnəmə yolla məni,
Gözlərim qoy görməsin öz yurdumda bir erməni.

Bu millət çox acgözdü, güclülərə qılıqlanır,
Vətəni olmasa da, aram-aram havalanır.
Elə ki boğazından yapışırsan, dil çıxarır,
Gözündən qıraq qoysan, ocağından kül qoparır.

Turş suya həsrət idi, qonaq gəlib Yetim baba,
Əlinə əsa alıb, kürəyinə atıb əba.
Dərdinə əlac dilər Tanrısından əzizinə,
Şəfalar arzulayar yaxınına, həm özünə.

P.S. Hökmünə fəda olum, Tanrım mənə rəhm eləsin,
Əzizim şəfa tapsın, ömrünə ömür calansın.

*7.VII.2008.*
*Kislovodsk şəhəri.*

## OLACAQMI HAQQ BƏRQƏRAR?!

Qonağı min-min idi Kəlbəcərdə İsti suyun,
Laçının Turş suyuna vurulmuşdu qohum-qayın.
Bulaqlar tamarzıdı burda indi övladına,
Ün salır hər tərəfə, çatanı yoxdur dadına.

Yağıya qismət olub İsti suyum, Turş suyum da,
Hələlik uduzmuşam, kor olmuşam bu «oyunda».
Qalxacaq xilasına doğma yurdun ərənləri,
Əzəcək çənəsini işğala yol verənlərin.

Minəcək at belinə Qorqud babamın nəvəsi,
Alacaq qisasını yağılardan, ay nənəsi!
Heybəyə isti fətir, kəsən qılınc doldur onun,
Oxunu tuş atacaq, düz tutacaqdır qalxanın.

Belə qalmaz, ay Yetim, hər gecənin gündüzü var,
Yaradan düz yaradıb, Haqq yolunun ulduzu var.
Nə qədər şaxta olsa, tufan qopsa, yağsa da qar,
Doğacaq isti günəş, olacaqdır haqq bərqərar!

*9.VII.2008.*
*Kislovdosk şəhəri.*

## TORPAĞIMI İSTƏYİRƏM

Meyvənin əsirgəyib yetişmişin vermə mənə,
Güllərin, çiçəklərin ətirlisin dərmə mənə.
Suların şır-şır axan çeşməsinə yol göstərmə.
Dünyaya göz açdığım torpağımı istəyirəm.

Yuxumu haram eylə, duz-çörəkdən imtahan et.
Günəşin saçlarını qollarıma dolama, get.
Tikanı yola döşə, çəpərləri qalın eylə,
Əkdiyim ağacların yarpağını istəyirəm.

Bağlasan yollarımı daş-kəsəklə, adlayaram!
Dönərəm qaynar suya, yandıraram, odlayaram!
Ağzımdan od püskürrəm, qayaları dağlayaram!
Yetimi əfəl bilmə, yaylağımı istəyirəm,
Doğmaca kəndimizdə oylağımı istəyirəm!

*10.VII.2008.*
*Turşsu şəhəri (Kislovodsk).*

## M.Y.LERMONTOVUN HEYKƏLİ ÖNÜNDƏ

Heykəlinə başsağlığı vermək üçün gəldim mən də.
Sağlığında çoxlarına sevilmədin vətənində.
Saçlarıma qar yağıbdır, sükutlara qatılmışam.
Niyə sənə qıydı «dostun», faciənə mat qalmışam.

Əzəl gündən adət olub, sağlığında tanınmazlar
Qurban gedib cəhalətə, sevinibdir anlamazlar.
Sadə əmək insanların dost bilmisən, əhsən sənə!
Nifrətini bölüşənin göz yaşları ehsan sənə!

Kubarların nifrətinə nədən belə tuş gəlmisən?!
Heykəlin də qüssəlidir, kədərlisən, həm qəmlisən.
Puşkin kimi bir dahinin qətli səni sarsıtdımı?!
Fətəlimin qəm-kədəri gecə yuxun qaçırtdımı?!

Saraydakı eyş-işrətdən kədərləndin, üsyan etdin.
Çırpıb çarın sifətinə əlcəyini sürgün getdin.
Yalan gülüş, saxta sevinc səndə nifrət yaratdımı?
Gənc yaşından saraylara sərt həqarət oyatdımı?

Qafqazımın qürurunu sındırmağa sövq edildin.
Qandal qırmış insanları yandırmağa göndərildin.
Şamaxımı, həm Qubamı susdurmağa məhkum oldun,
Qan tökməyə, baş kəsməyə istəmədən hakim oldun.

Qınamıram, qul olmağa yolladılar, istəmədin.
Xəncərini koraltmağa aldatdılar, istəmədin.
Gözəlliyə aşiq oldun, gecə-gündüz vəsf elədin.
Qafqazıma heyran oldun, camalına söz söylədin.

Heyif səndən, sağlığını sevməyənlər qanmaz olub!
Sevincini duyanların amalları yanmaz olub!
Sən Mixail, mən Mükafat – Yetim baba hüzurunda.
Qəbrini görməsəm də, rahat uyu məzarında.

*13.VI.2008.*
*Kislovodsk*

## BƏS EYLƏYƏR

Səni məndən ayırmağa cəsarətim, gücüm çatmaz,
Necə ki son zirvədə günəş yanar, sönməz, batmaz.
Zirvə gər həddin aşar, küfr söyləyər, lovğalanar,
Tuş gələr al günəşin hiddətinə, alovlanar.

Sən özün gəl deməsən hüzuruna, baş əymərəm.
Üzümə açıq qoysan darvazanı, boş döymərəm.
Haşa məndən deyinmək, küsdürməsən, ağlamaram,
Quruyar dil-dodağım, daşa dönər, yalvarmaram.

Bir kərə rədd eləsən, əlbət, mənə bəs eyləyər.
Sonradan yalvarmağa qonum-qonşu küs eyləyər:
Yalvarmaq – həyasızlıq, kənd-kəsəkdə səs eyləyər.
Yetimə inan, gülüm, dedikləri bəs eyləyər.

*14.VII.2008*
*Kislovodsk*

## YAŞASIN GÜNƏŞ!

Yamyaşıl dağ havası Günəş qədər fayda verməz!
Dağları qaranlıqlar kor eyləyər, oda girməz!
Günəşin saçaqları düşməyirsə dağ döşünə,
Qayalar haray salar, döyəcləyər göz-başına.

Yer üzünün al günəşə ehtiyacı əvəzsizdir!
Canlıya ya cansıza gün işığı çox əzizdir.
Üstündə günəş yatan meyvələrin faydası çox.
Ətirindən məst olursan, dadı bol, həm ləzizdir.

Rədd olsun qaranlıqlar, qızıl günəş qoy yaşasın!
Dünyanın ağırlığın çiyinlərində daşısın.
Qoruyaq dünyamızı, günəş bizə qoy olsun yar!
Yaşasın külli-aləm, abadlaşsın diyar-diyar!

Vətənim günəş dolu dörd bir yanı cənnət kimi,
Torpağı, suyu qızıl, dağ-dərəsi can həkimi!
Çoxları diş qıcırdır Vətənimin sərvətinə,
Dünyanın incisidir, Yetim bilir qiymətini!

*14.VII.2008*
*Kislovodsk.*

## ƏSİRGƏMƏ

Yenə Allah eşqinə Vətən doğru yol gedirəm,
Allahım, köməyim ol, kəramətin əsirgəmə.
Yurdumda şəhid olan eloğluma qul gedirəm,
Bu yolu qət etməyə dəyanəti əsirgəmə.

Aldandım satqınların sözlərinə, düşünmədim,
Silahım yerə düşdü, yad sözündən daşınmadım.
Sinəmdən axan qanın istisindən aşınmadım,
Ya Rəbbim, səfərdəyəm, hidayətin əsirgəmə.

Fikrimi dolaşdıran insanlardan uzaq olum,
Düz yoldan bir də azsam, el içində yazıq olum.
Son yolum Azıxadır dağ başında, Azıx olum,
Bu yolda qalib eylə, mətanətin əsirgəmə.

Günəşim parlaq olsun, qaranlığı parçalayım!
Yurduma göz dikənin kürəyini haçalayım!
Yetimin arzuları, ümidləri qoy çin olsun!
Qoluma qüvvə yetir, hörmətini əsirgəmə.

*17.VII.2008.*
*Kislovodsk.*

## ŞAİRLİYƏ SEVİNMƏ

Kimsə sənə şair desə, fərəhlənib öyünmə sən,
Şair ömrü qısa olur, bu həyata sevinməzlər.
Əzəl şirin görünəcək, sonrasından deyinərsən,
Şirinliyi qəbul edib, acısından deyinməzlər.

Gecələri yuxusuzdur, görən gözü tez torlanır,
Qiymətləri çox ucuzdur, şirin sözü az fırlanır.
Sağlığında sevilənlər el içində tez korlanır,
Yalan sözə tez aldanır, allı-güllü geyinməzlər.

Ömürləri acı keçir çox zamanlar öz yurdunda,
Xəcalətdən yan qaçırlar, gəzinərlər göz ardında.
Silahları kəsər olsa, qulluq edər söz ordumda,
Düzü sevər, düzü görər, dediyindən əyilməzlər.

Çox zamanlar ələbaxan böyüyürlər lap binadan,
Azdan qane, çoxdan ani doğulurlar həm anadan.
Döyülənlər, söyülənlər çox zamanlar şair olur,
Qismətindən, ismətindən, izzətindən gizlənməzlər.

Şair ömrü tez qocalır, əldən düşür, yetim qalır,
Çətinliyə dözsələr də, tez-tez ölüm-itim olur.
Çox kövrəkdi ürəkləri, inanma ki, mətin olur,
İstəməzdi Yetim bunu, şair ömrü çətin olur.

*29.VII.2008, Dərnəgül.*

## DÖZƏ BURDA

Nə çoxdur ki, təzə yurda köçməyinə sevinənlər,
Mənə qalsa, belə arzu ürəyimcə deyil mənim.
Təzə yurdda yaşamaqla, adət budur, öyünərlər,
İstəmirəm kimsələrə qismət olsun söyülməyim.

Ata yurdum mənə əziz, hörmətlidir cənnət qədər,
Ata yurdun tüstüsü də qiymətlidir, getməz hədər.
Doğma yurdda soğan-çörək ləzzətlidir, halaldırsa,
Söz-söhbətə düşməyim kaş təzə yurdda, əyilməyim.

Verin mənə köhnə yurdum Cəbrayılı, Quyçağı siz,
Verməsəniz, dürtmələyin Əzrailin qucağın siz,
Yetim kimi yaşamağı istəmirəm təzə yurdda,
Çox çətin ki, ömrüm-günüm adət edə, dözə burda.
(Odda yanım, külə dönüm, qoy düşməyim təzə dərdə!)

*2.VIII.2008, Dərnəgül.*

## MƏNİM DÜNYAM

Mənim dünyam, toxunmayın, mənim olsun,
Qiymətini duymursansa, qənim olsun.
Dünya kövrək meydançadır, əzizləyək,
Döyüş yeri dünya deyil, sinəm olsun.

Sülhə gələk, dünyamızı möhkəm edək,
Yaranmadıq orda-burda matəm edək.
Dünyamızın ömür yolun birgə gedək,
Yaralansa, yarasına məlhəm edək.

Yarandım ki, dünyamızda izim qalsın,
Yaranmadım dağ-dərədə tozum qalsın.
Ağ duvaqda körpə kimi doğuldum ki,
Yetim sayaq söz söyləyim, sazım çalsın.

*19.IX.2008*
*Dərnəgül.*

## MÜĞƏNNİ BALOĞLAN ƏŞRƏFOVA MƏKTUB

Səsinin məlahəti qoy hər kəsə xoş gəlsin.
Əl verib görüşənin əli əlinə tuş gəlsin.
Həsrətdən öpüşəndə, gözlərindən yaş gəlsin.
Kimsənin dəvətinə sağlam bədən, baş gəlsin.
Məclisdə qabağına məcməyidə aş gəlsin.
Heç kəsi incitmə sən, nə kimsə qoy inciməsin.

Qoy sənin qədəmlərin yolumuzdan çəkilməsin,
Təbəssüm, ya müdriklik sifətindən əksilməsin.
Gözlərindən öpənin gözlərini qəm yeməsin.
Varından qürrələnib qoy dilinə «yox» gəlməsin.
Xalqımız sevsin səni, yorulma sən, dincəlmə sən.
Daima şux geyinib xəstələnmə, incəlmə sən.

Sən kimi yaranmışa sevinirik, əl çalırıq,
Ekranda görünəndə fəxr edirik, ucalırıq.
Elə bir aləmsən ki, açılmamış qönçə kimi.
Görənə, eşidənə lazım deyil can həkimi.
Hər kəsə sevincindən yollayırsan nəğmə səsi,
Sehrinə alır səni muğamatın möcüzəsi.

Adı «bal» oğlana bax, Tanrımızın bəxşi bizə,
Sədası əzan səsi, yaraşıqdı nəqsi sözə.
Onu xoşbəxt yaradıb, Allah verib ölkəmizə.
Özü də səsi kimi insanları valeh edir,
Bir dəfə görənləri lap əməlisaleh edir.
O, bizə Tanrı payı, həm sevinir, həm sevdirir.

Baloğlan kimi kəslər dünyamızda az doğulub,
Mayası həm qayəsi Tanrı payından yoğrulub.
El üçün nəğmə deyir, şər işlərdən yan boylanır,
Avazından güc alır, gözəllikdən havalanır.
Aya da, ulduza da nəğmə qoşur, ilham alır,
Onu çox sevir Yetim, xalqımıza dürr-töhvədir.

*22.IX.2008, Dərnəgül.*

## QAYITMIŞAM

Qayıtmışam dost-tanışı görməyə,
Əlin sıxıb salam-əleyk verməyə,
Var-yoxumdan kasıb süfrə sərməyə,
El-obada dostun sayı çox olsun.

Ansın məni dostum çürük qoz ilə,
Sevindirsin yavan çörək-duz ilə,
İncimərəm, dindirməsə söz ilə,
Vardan verən dostun payı çox olsun.

Dost qolunda tək mətanət görəydim,
Ürəyimi yek əmanət verəydim,
Olanımdan əmanət göndərəydim,
Qış demirəm, dostun yayı çox olsun.

Düşmən verən hər sızaqdan küsərəm,
Külək qopan yar-yarıqdan əsərəm,
Dost yarası irin olsa, kəsərəm,
Nadürüstün ahı-vayı çox olsun.

*19.10.2008, Dərnəgül.*

## YETİM SONDA BASILARMI?!

Harda qalıb xanımanım,
Od tutubdu, yanır canım.
Axtarıram, yox dərmanım,
Əsirliyin sonu varmı?!

Nə tələydi, mən də düşdüm,
Qaynamadım, çiy ötüşdüm.
Həsrətimi kim bölüşdü,
Əsirliyin sonu varmı?!

Kim qarğadı, kim sataşdı,
Gözümdən axan qan-yaşdı.
Kələfim yaman dolaşdı.
Əsirliyin sonu varmı?!

Güney, quzey arar məni,
Soraqlayar göy çəməni.
Bəlkə tapılar dərmanım,
Əsirliyin sonu varmı?!

Nalə çəkib ağlamaram,
Qollarımı bağlamaram,
Açın qəlbimdən qandalı!
Yağıya qan ağladaram,
Yetim bilsə, müdam məni!

İndi yağı baxır, gülür,
Üzündən zəhər süzülür.
Diş qıcayır, göz büzülür,
Yəqin məni yetim bilir.
Fəqət bunu dürüst bilmir:
Yetim sonda basılarmı?!

*20.X.2008, Dərnəgül.*



# Uşaqlar üçün

# GÜL ÜZLÜ NƏVƏLƏRİ ƏZİZLƏ

İlkim Rəvanə,
Olum pərvanə,
Gündə yüz kərə
Uçum dövrənə.

Nəzrinim, ay Nəzrinim,
Varım, dövlətim mənim,
Yüz il ömür sürəsən,
Sənlə fəxr etsin elim.

Ay Orxan, Orxan.
Böyü, ol Elxan,
Elinə elcan,
Atana həyan.
Bağın, bağatın
Qoy olsun orman.

Nicatımsan, Nicatım,
Toy günündə dəm tutum,
Atan, anan sevinsin,
Sənə qurban həyatım.

Babanın atasısan,
Atanın babasısan,
Surxay, adınla yaşa,
Sən Həmzətlə ol qoşa.

Sənə ad verdim Həmzət,
Layiq ol, qazan hörmət.
Qurmaq, tikmək şüarın
Olsun daim həqiqət.
Göstər hamıya diqqət.

Çiçəklərin əzizi,
Atasının ilk qızı,
Babaların Nərgizi,
Daim sevindir bizi.

Çağırım Rəvan,
Yaşa firavan
Yüz il ömür sür,
Ömrü çirağban!

Nəzirə qız, Nəzirə,
Səni dönəsən pirə.
Tanrım arzum eşidib
Sənə bir qardaş verə.

*2007*

## UŞAQLARIN DİLİLƏ

Nənəmə bax, nənəmə,
Necə oxşayır mənə.
Qaçıram göy çəmənə,
Qaçır ki, çatsın mənə.

Babam baxır bizə, bax,
Qaçır çatsın sizə, bax.
İməkləyir uşaq tək,
Dönüb lap ilbizə, bax!!!

Mənə baxır, hoppanır,
Yumaq kimi toplanır,
Bizi güldürmək üçün,
Cuppuş-cuppuş tullanır.

Bacım dönüb kirpiyə,
Aldanıbdı qəpiyə.
Kimsə top bilib onu,
Qurban edər təpiyə.

Budur mənim toplanım,
Qaçım, tutum, tullanım,
Ona ət vermək üçün,
Gərək evə yollanım.

Oynayırıq şən, gülşən,
Nəvələrlə öpüşən.
Sevinir nənəm Gülşən.
Qaçır, açır qolların.

*2007*

# NAR ÇİÇƏYİ

*Savadsız anamın həvəslə söylədiyi*
*şirin-şəkər nağıllara ithaf edirəm.*

Yazın-baharın hökm sürdüyü bütün diyarlarda bir oxşarlığı, yəqin, çoxları görüb. Ətrafdakı çiçəklərin bir-birinə baxıb «gülümsəməsi», əsən mehdən yarpaqların xəfif-xəfif yellənməsi, böcəklərin, çəyirtkələrin, kəpənəklərin o yan-bu yana qaçışaraq səslənməsi, quşların budaqdan-budağa tullanaraq cikkiltisi adamlarda təbəssüm oyadır, insanları sevindirir.

...Taleyimə yazıldığına görə bir zamanlar kitablardan haqqında oxuduğum diyarda kiçik vaxt kəsiyində qonaq oldum. Çölləri göz işlədikcə uzanan bu əyaləti zaman-zaman qılınc gücünə işğal etmiş, istədiyi kimi idarə etməyə çalışan rus çarlarının canfəşanlığına baxmayaraq yerli xalqlar, tayfalar əsrlərdən bəri min-min çətinliyə dözüb, adət-ənənələrini saxlayıb, uca dağların ənginiliyində qərarlaşmış, iti gözlü, dəhşət yaradan caynaqlı qartal məğrurluğunu itirməyib. Yerindən sıçrayanda dağ qoçlarının çəldlyini xatırladır buranın insanları. Bir görkəmindən varlığı sarsılıb buranı özünə tabe etməyə zorla göndərilmiş puşkinlərin, lermontovların, qribojedovların, bestujev-marlinskilərin, radişşevlərin. Özləriylə dəhşət gətirən dağıdıcı tufanlara sinə gərib, onların uğultusunu, gürcatını ram edib buranın göylərə qıylanan dağları.

Dünyanın əksər diyarına səpələnmiş Türk-Turan xalqlarnın yaratdığı «stan» sözü bəşər aləminə məlumdur. Bu stanlardan birinə Dağıstan deyilir. Dağıstan dağlarına baxanda naəlac qalıb onların dözümlülüyündən vəcdə gəlirsən, qarşılarında diz çökmək, ulu Tanrıdan güc-qüvvət istəyirsən. İmam Şamil, Ammalat bəy, İsmayıl bəy, Qaçaq Nəbi, Qoç Koroğlu, Babək olmaq istəyirsən ki, əslini-nəslini-nəcabətini unutmayasan, keçmişini övladlarına sevdirəsən (Axı bu qafqazlılar kimsəyə baş əyməyib!). Bu diyarlarda yaranmış «qız» sözü bakirəlik təcəssüm etdirib həmişə. Stanlar dünyasında bu söz qürurla işlədilib. Dağıstanın «Qızlar» adlanan di-

yarına gəlmiş çağırılmamış yadellilər buranı «Kizlyar» deyə səsləndiriblər. Göz işlədikcə uzanan yaşıl düzənlikli, meşəli diyardakı kiçik parkda nəvələrim Surxay (atamın adlısı) və Həmzət (Peyğəmbərlərin ən ucası olan Həzrəti-Məhəmmədin həqiqət, məslək silahdaşı!) ilə gəzişdiyim vaxt buralardakı şaxtalara necə tablaşdığından xəbərsiz olduğum nar ağacına tuş gəldim (Sevincimi təsvir etməkdə acizəm).

-Baba, ağacların hamısı çiçəkləyir? – sükutu Surxay pozdu.

- Əlbəttə, gözümün işığı, çiçəkləməyən ağac olurmu? Hər ağacın özünü tanıdan çiçəyi olur, onlardan da bar yaranır: şirin, acı, turş… Bəzi ağacların çiçəyini görmək çətin olur.

- Belə ağacların barını yemək olurmu, məsələn, üzüm, qoz, əncir kimi?

- Ay qadası, bəzi ağacların meyvəsini insanlar yeyə bilmirlər, quşlar, heyvanlar kimi. Onlara dad, ləzzət paylananda hamısı birdən deyilən yerdə toplaşa bilməyiblər. Elə buna görə də hansı daha yaxında olubsa, dadın-tamın ləzzətlisini onlara veriblər. Gecikənlərin dadı insanlara xoş gəlmir. Elə bu səbəbdən də babalarımızın bizə ərməğan etdikləri bəzi söz deyimləri yaranıb.

- Babası, belə deyimlərdən mənə söyləyə bilərsənmi? – Qaldım fikirləşə-fikirləşə.

- Yaxşı, mən deyim, sən eşit, amma unutma, gərəyin olar: «Layiq bilinən yerə çağırıldınsa, gecikmə», «Məclisdə yerini tanı ki, tez-tez durmayasan», «Elə söz de ki, bəyənilsin», «Söz deməzdən əvvəl yaxşı fikirləş», «Sözün də dadı olmalıdır», «Almanı gördünsə, gözün gülsün», «Dərdə gilə-gilə yansan, sənə üzüm deyərlər», «Rəngin sarıdırsa, səni heyvaya bənzədərlər», «Söz yarası çətin sağalar», «Elə yaşa ki, səni nara oxşatsınlar».

- Babası, bütün çiçəklərdə bir neçə rəng olduğu halda, təkcə narda belə deyil. Necə olub ki, narın çiçəyi də, dənəcikləri kimi alqırmızıdır?

- Ayım, ulduzum, Günəşim mənim, elə sual verdin ki, vücudumu silkələdi. Çox vaxt suallardan yan keçirəm, bəzilərindənsə sevinirəm, səbəbini özüm də bilmirəm. Sənin bu sualına gərək

cavab verim, bir hekayətin köməyilə. Cavab qısa olanda dinləmək maraqsız olur. Çalış hekayətimdən darıxmayasan.

… Dünya yarananda insanların canlılarla birgə yaşadığı məkanda aləmə hökmranlıq edən Şahlar şahı ailə qurmaq üçün yaxınlarını, uzaqlarını, əyyanları, vəzir-vəkilləri, qocaları-cavanları, müdrikləri, bitkiləri, canlıları məsləhət üçün sarayına çağırır. Eşidib bilənlər üz tutur qanunların yazıldığı, var-dövlətin paylandığı, adların verildiyi, Günəşdən qüvvətlənən, Aydan-ulduzdan xumarlanan, böyüklərdən böyüyün yaşadığı sarayın baş meydanına. Deyib-gülənlər, şadlanıb-oynayanlar Şaha bacarıqlarını, töhfələrini nümayiş etdirirdi. Güllərin ən sevimlisi çiçəklərin ən zərifi olan bənövşəni görəndə qəhqəhəylə ləçəklərinin rəngini göstərir, yarpaqlarıyla havanı yellədir ki, şahın xoşuna gəlsin. Qocaqlar at çapır, igidlər məharətlərini təkrarlayırdı. Heyvanlardan kimisi ağacdan-ağaca tullanır, bəzisi nərə çəkir, iri ağacları dartır, başqaları isə oğrun-oğrun əyilib-qalxırdı. Nazlana-nazlana gəzişən, iri qanadlarını, min cür rəng çalan quyruğunu yelpik kimi tərpədən tovuzquşu qəflətən elə səs-şivən qoparır ki, adamların gözləri bərəlir, bədənləri titrəyir. Qulaqlarına barmaqlarını dürtmüş vəzir təlxəyin müşayiətilə gəlib əmrindən tir-tir əsdiyi Şahlar şahının qarşısında diz çökür.

- Qibleyi-aləm, izin verin bu anlamaza anrladım ki, gözəlliyindən qürrələnib həddini aşmasın. Əynindəkiləri soyundursam, bədəni əcaib görunər.

- Başımın ağası olan Şahım, vəzirə deyin ki, gözəlliyimə çoxları valeh olub, mənim geyimimdə bütün rəngləri görmək olar. Yeganə qüsurum səsimin eybəcərliyidi.

Tovuz quşunun ardınca heyvanlar, quşlar, çiçəklər, ağaclar, meyvələr özdərini tərifləyir, qüsurlarından başlarını sinələrinə əyirlər. Şahın mükafatını qazanmaqdan ötrü dəridən-qabıqdan çıxan vəzir irəli çıxır. Əlində tutduğu metal parçasını göstərir və deyir:

- Parpar yanan bu metaldan qiymətli nəyiniz varsa, Şahın hüzuruna çıxın. - Şah gülə-gülə deyir:

- Vəzir, söylə, bundan mənə bir cüt ayaqqabı tikmək olarmı?!

Bütün aləm vəzirin gözündə qaralır, başı gicəllənir, yanındakı sütuna söykənir.

– Əmrimi yerinə yetirməsən, sübh tezdən qanını günəşin qırmızı saçlarına calayacağam!

Uzun gecəni məmləkəti təlaş içində əlac tapmaq üçün gəzib dolaşan vəzir yol kənarında oturub ağlayır. Yoldan keçəndərdən heç kəs vəzirə kömək edə bilmir. Nəhayət, üz-gözündən nur tökülən ağsaçlı qoca vəziri Nar adlı dəmirçinin – çiçəyin yanına göndərir. Dan yeri qızaranda hazırlanmış başmaqları dəmirçidən alıb Şahın hüzuruna tələsən vəzir başqa bir əmr alır:

- Ayağımda parlayan bu geyimin adını de!

Adamlar bir-birinin üzünə boylanır. Gözlərindən qan tökən vəzir üz tutur Nara. Hamıdan axırda dayanmış, tünd-yaşıl rəngli xırdaca yarpaqlarla örtülmüş Nar utana-utana irəli çıxır, incə səslə dillənir:

- Qibleyi-aləmdən çox xəcalətəm: ağacımın qabığı bozqara, tikanlarım iri və ufuldadan, almadan böyük meyvəmin qabığı acı olsa da, çox dərdlərin dərmanıdı. İçindəki dənəciklərdən ən ağır xəstə şəfa tapır. Meyvəm tapmacaların açarıdır. Bir tərəfdə verdiyim bar yeyildiyi halda, digər tərəfdə çiçəkləyirəm. Saplağım nazik, üzüm göyə baxır. Yeyiləndə heç olmasa bircə dənəcik yerə düşməsə, vay o adamın halına. Məni tanıyanlar çox vaxt çaş qalır.

- Sualıma cavab ver, Nar baba! - Şah ayağa qalxır.

- Şah sağ olsun, ayağınızdakı qızıldan düzəlsə də, adı çarıqdı.

Sözünü qurtaran Nar başını sinəsinə əyir. Bir qədər sükutdan sonra şahın təbəssümlə ona baxdığını görən Narın rəngi allanır, utandığından tünd-qırmızı çiçəkləri qırış-qırış olur.

***6.XI. 2007.***
***Kizlyər şəhəri, Dağıstan.***

# ÜZÜK

*Çox uzaq keçmişdə nənəmdən bir nağıl eşitmişəm. Yastığımın yanında oturub danışardı…*

Ən bahalı əşyalardan, bəzək-düzəkdən müqəddəs sayıla biləni üzükdü. Bunu müdriklərimiz bizə əmanət edib. Onu ancaq ən sevilmi adamlara bağışlayarlar. Sədaqət, vəfa, möhkəmlik nişanəsidi, qabiliyyətdi üzük. Ona tabedi qalan bər-bəzək, silah-sursat, geyim-kecim. Demə, bunun göylərdən gəldiyindən bixəbərmiş çoxları.

Uzaq diyarlarımızın birində Ədalət adlı şah tabeliyində olan malikanəsində ətraf qonşularından daha çox sevilərmiş. Atası dünyanı tərk edəndə Ədaləti yanına səsləyir, vəsiyyət edir ki, heç vaxt adının qiymətini unutmasın. «Yalnız belə olsa, hamının sevimlisi olarsan».

Əyyanlar, kənizlər, qul-qaravaşlar, əkib-becərənlər, tikib-quraşdıranlar, bir sözlə, hamı şahdan razıymış. Elə buna görə də buralardan bin-bərəkəti, xeyir-duanı əsirgəməyib göylər. Ata-babadan qalmış var-dövlət getdikcə artır. İxtiyarındakılardan heç nəyi əsirgəmirdi çox cavankən taxt-taca layiq görülmüş Ədalət. Ədalət şahın xəlvəti gəzdirdiyi yeganə dərdi içini didikləyir, əridib sozaldırdı. Ən bahalı daş-qaşlarla, ipək-qumaşla bəzənmiş yatağında gənc şahı sinə xışıltısı, boğazında yaranan tutmalar, göz bəbəyini qızardan öskürəklər gecələr çox narahat edirmiş. Keşikçilər xəbərdar olsalar da, könlünü incitməsinlər deyə, cınqırlarını çıxartmazmışlar. Saray təbibləri qalmışdı əlacsız şahın dərdi qarşısında.

Bir dəfə öz həmyaşıdlarıyla sehrə çıxan şah xeyli dolanır, əylənmək üçün yer axtarırdı. Adamı ağuşunda şirin yuxuya qərq edən, çöl-çəmənlikdə tənhalıqla barışan, gəlib-gedənlərdən kölgəsini əsirgəməyən iri çinar ağacına tuş gəlir. Ətrafı əsrarəngiz çiçəklərlə boyanmış çinarın dibindən xısın-xısın axan bulaq suyundan xoşlanan Ədalət şah çadırlarının burda qurulmasına işarə verir. Atları suvarıb buraxırlar çəmənliyə. Təbiətin toxuduğu bu ucu-bucağı

görünməyən «xalının» gözəlliyindən xoşhallanan şah bulaq başında mürgüləyir. Ayılanda öskürəyini duymasınlar deyə yaxınlıqdakı uca dağa doğru səmtlənir. O yan bu yana boylanırdı ki, dağ döşündəki ağappaq ləçəkləri kəpənək qanadları kimi yellənən itburnu kolunun dibindən gözlərini ona zilləmiş, sarımtıl saqqalını sığallayan nurani qocanın dayandığını görür. Naqafil görüntüdən eyiblənən şah Ədalət başını sinəsinə sallayıb aralanmaq istəyirdi ki, qoca əlinin işarəsiylə onu dayandırmaq üçün gülümsünür. Şah tərəddüd etmədən bu görüşün necə qurtaracağını gözləyir.

- Şahım, bu gözəllikdə qamət sahibini əndişələndirən dərdinizin dərmanını qibleyi-aləminizə deyən yoxdumu diyarınızda?!

- Babam olaydın kaş, nədən mənim dərdli olduğumu söylədin? Şəxsinizi tanımadım.

- Ömrü-günü insanlara bəxş olunmuş qocaların çox şeydən xəbərləri olmalıdı, oğlum, yoxsa onlar kimə gərək. – Qoca gözünü zilləyir şaha. – Sənə deyəcəyim dərmanı bu bulağın başında taparsan, əgər bu yerlərə səyahət edə bilsəniz, - deyir və göründüyü kimi yox olur. Xeyli boylanır ətrafına, amma Ədalət bir inni-cinni görməyib çadıra qayıdır. Başına gələnləri yanındakılara söyləmədən «Atlanın!» əmrini verir, əsabələrilə yollanır iqamətgahına. Bir müddət rastlaşdığı əhvalatdan rahatlıq tapa bilmir, şah Ədalət, qalır düşünə-düşünə.

Şahlığından xeyli aralıda aya-günə görünməyi «qadağa edən» Rahillə-Rahilə adlı əkizlər yaşayırdı. Ata-anaya Tanrı payı verilən bacı-qardaş birlikdə oynayır-gülür, böyüyürdülər. Valideynləri çox bəxtəvər idilər. Çoxları onlara həsəd aparır, onlardan birinə ürəklərini açmaqdan ötrü yanıb-yaxılırdı. Əkizlərin atası çox məşhur zərgər, anası dərzi idi. Onların əl işləri şahlara yaraşıq idi. Vaxtvədə yaxınlaşdıqca uşaqlarından narahatlıqları da artırdı. «Kim bilir, kimlərə qismət olacaqlar», - düşünürdülər. Atanın qızına düzəltdiyi üzüyün həlqəsi gözlə güclə görünürdü. Ən kiçik firuzələrlə bəzənmiş qaşı noxud ləpəsi boyda olsa da günəşdən bərq vururdu. Əkizlər at çapmaqda, qılınc oynatmaqda, güləşməkdə ad-san sahibi idilər. Ayrılmaz dostlar kimi böyüyən əkizlər səfərə çıxanda yar-

yaraqlarını götürər, atlanar, «ha qocağım, görək kim kimi!» qışqırıb ötüşərdilər. Əkizlər böyüməkdə, həyat axarındaydı…

Günlərin birində qoca səyyahın dediyini xatırlayıb bulaq başına yollandı şah Ədalət. Mənzil başına yaxınlaşırdı ki, tənha çinarın kölgəsində bir oğlanla qızın atdan endiklərini gördü. Yanınca atını çapan bacısına baxıb «dayan!» dedi.

- Deyəsən, bura başqalarının da seyrəngahıdı, xəbərimiz yoxmuş!

- Gözəlliyi cavanlar tez tapır, yəqin, bura onlara da tanışdı, - bacısı dilləndi. Birdən «Aha, deyəsən, bizi qabaqlayanlar bacı-qardaşdı» - gülümsündü.

- Bunu nədən bildin? - Ədalət maraqlandı.

- Bax, qız bər-bəzəyini, yar-yaraşığını açıb çəmənliyə qoyur, oğlan üzüarxaya baxır ki, yanındakını utandırmasın. Görürsənmi, qız bulaqda yuyunub aralanır, saçlarını darayır, oğlan atının cilovundan yapışıb uzaqlaşır… Gəlsənə, ayaq saxlayaq?!

- Şah olsam da, bacıma tabeyəm. – Yəhərdən enib atlarını otlağa heylədilər, guya çiçək çələngi düzəldirlər.Başladılar arıların öpüb qaçdıqları əlvan çiçəkləri tərifləməyə.

Min bir dərdin dərmanısız,
Kimlər sizə sığal vurur?
Çəmənliyin ormanısız,
Ətriniz nağıl verir.

Görkəminiz yaraşıqdı,
Görənlər sizə aşiqdi,
Sıranız lap qarışıqdı,
Dərənlərə ağıl verir.

Biri aldı, biri sarı,
Dolanırıq sizə sarı,
Ay çəmənin ulduzları,
Dərman olun bizə barı.

Bu arada bir dəstə göy göyərçin havada mayallaq vura-vura, qanadlarını çalıb endi bulaq başına. Dimdiklərini axarın kənarına dirəyib çalışdılar dinməzcə sümürməyə, kamlanmağa. Bəziləri doyub çəkildi kənara, başladı dənləməyə. Bir neçəsi tüklərini qabardır, suda çırpınır, sərinlənir, sığallanırdı. Gözlənilmədən Rahilənin təlaşlı səsi hələ də atının cilovundan yapışıb yanınca gəzdirən Rahili yerindən oynatdı.

- Rahilcan, o qanadlarını yerə döyüb dalın-dalın çəkilən göyərçini görürsən, üzüyümü uddu. Tez ol, köməyə gəl, üzüyümü boğazından çıxar, yoxsa evdə mənə nə deyərlər! Tələs, nə durmusan!

- Qoy udsun, üzüyü niyə kənara qoymusan ki. – Heç nə olmayan kimi Rahil atılıb-düşür, şaqqanaq çəkirdi.

- Belə də qardaş olar, bir quşla bacarmır! – ayaqlarını yerə döyüb ağlayırdı Rahilə.

- Niyə ki, lazım gəlsə, canımı bacımdan əsirgəmərəm!

Gah yerində çırpınan göyərçinə, gah da mübahisə edənlərə maddım-maddım baxan şah Ədalət vəziyyətin nəylə qurtaracağını gözləyirdi. Birdən fikrini dəyişdi, əlindəki oxu yaya ilişdirdi, dartdı, şap-şapla çırpınan quşun sinəsini qana boyadı. Quşcuğaz susdu.

- Buna necə qıydın, Ədalət, belə də insafsızlıq olar? – bacısı Çinarə bağırdı.

- Göyərçin onsuz da öləcəkdi, onun müsibətli həyatına dözmədim. – təəsüflə başını buladı. Göyərçinlərin qalanı havada dövrə vurub gözdən itdi.

- Əhsən məharətinə, oğlum. Göyərçinin tüklərini yol, pətəyəsindən üzüyü çıxart!

Qəflətən Ədalətin itburnu kolunun yanında gördüyü qoca səsləndi, cavanlara yaxınlaşdı. – Göy göyərçinin ətini bişirib yesən, şəfa tapacaqsan, unutma. Üzük isə bəxtinə yazılandı, özündən kənara qoyma. – Mehribanlıqla gülümsədi, saqqalını sığallaya-sığallaya yollandı dağa doğru.

*27.10. 2008.*
***Kizlyər şəhəri, Dağıstan.***



# Yumor səhifəsi

# ÇARƏSİZ ÖLÜM

Uşaqlıq çağlarında
Kənd-kəsəkdə yaşardıq.
Oynayardıq birlikdə,
Tez küsüb barışardıq.

Yazda qora, göy alça,
Qışda bumbuz qarı da
Şirin-şirin yeyərdik,
Qoçu tək öyünərdik.

İndi aləm qarışıb,
Başım çıxmır nədəndi.
Bu qar o qardan deyil.
Vallah, bu qar çox soyuq,
İnanmırsan, mən deyim,
Sən qulaq as, ol ayıq.

O qarı çox sevərdik,
Oynayardıq bütün gün.
Qardan adam yapardıq.
Sonra yallı gedərdik.

Qartopunu yeməkdən
Tutulsa da dilimiz,
Üşümək nə deməkdi,
Anlamazdıq əsla biz.

Şaxta təsir etmirdi,
Oynayıb gülüşərdik.
Fürsət tapanda hərdən
Xəlvəti öpüşərdik,
«At çapıb» ötüşərdik.

Deyin, indi mümkünmü,
Qarı xırt-xırt yeyəsən?
Qəh-qəh çəkib kənardan
«Ağlı çaşıb» - deyəsən?

İndiki qar qorxulu,
İndiki qar dəhşətdi.
Vallah, indi qar yemək
Çarəsiz ölüm demək.

*13.01.2008, Bakı.*

## BEZMİŞƏM

Ay hazarat, çarə deyin siz mənə,
Şəhərdəki hay-haraydan bezmişəm.
Öyrənmişdim dağa, daşa, çəmənə,
Küçədəki zarhazardan bezmişəm.

Necə dözüm maşınların səsinə,
Ulayırlar bir-birinin bəhsinə,
Baxmayırlar nə sinnimə, şəxsimə.
Gecə-gündüz nırhanırdan bezmişəm.

Baxan yoxdu, kim qışqırır, hay salır,
Qışqırıqdan diksindirir, vay salır.
Gədə-güdə maşınlarda toy çalır.
Şuluqluqdan, vurhavurdan bezmişəm.

Eşidən yox nə hakimi, həkimi.
Dinən olsa susdururlar hər kimi.
Tutacaqmı qanun-qayda bərkini?
«Avtoşlardan», «barbarlardan» bezmişəm.

Kimsə deyər dilin lal qoy, ay Yetim!
Belə olsa hara çapım mən atım?
Bəlkə mən də qulağımı bərk tutum?
Ət tökdürən şoulardan bezmişəm,
Yalan-yanlış reklamlardan bezmişəm.

*15.IV.2008.*

## BU AYLARI SEVİMMİ?!

Yandı bağrım, döndü qana, nələr gəldi bu cahana:
Yanvar günü qəltan oldu atam oğlu Azərcana!
De, sevimmi fevralını, Xocalını yandırdılar?
Getsin, bir də qayıtmasın, «inam şamın» söndürdülər!

Mart ayında milyon insan məhv edildi hay əlilə,
Azlıqlara tay edildi bir millətə tay qəbilə.
Nə gətirdi aprel ayı, əsarətə tutulduq biz?!
Latın dilli əlifbanı tam itirdik, qalmadı iz.

May ayında yararanmışdır müstəqillik bayramımız,
May ayından dalğalanır ay-uldulzlu bayrağımız.
Top-tüfəngə əsir düşdü Şuşam mənim may ayında,
Ömür boyu yaddan çıxmaz müsibətə tay «oyun» da.

İyun ayı dünya-aləm alovlandı od içində,
Müsibətə düçar olduq yad ölkədə, yad köçündə.
Bilməm, niyə sevməyirəm qızmar iyul ayını mən.
Avqust ayı «göz dağımdı», məni tapdı qoca Vətən.

Sentyabr ayı gəlcək qovhaqovla məhsul yığır
Qan-tərilə əlləşənlər, çalışırlar olsun uğur.
Oktyabr ayı mənə «Avroradan» atəş açdı,
İnsanları qanla boğdu, gözlərinə «ulduz» sancdı.

Noyabrı sevənlərə o qədər də inanmıram,
Noyabrçün «yananları» mən sadəcə anlamıram (?).
Dekabrda yallı gedir ölkəmizdə qoca, cavan.
Dekabrda bayram edir həmrəyliyi Azərbaycan.

P.S. Sevirsən, sevməyirsən, kimin sənə ehtiyacı,
Çox giley etmə, Yetim, olar sonu fəna, acı.

*3.V.2008.*

## QOCALARIN DEYİŞMƏSİ

- Nədəndir ki, giley-güzar üzür səni,
Gecə-gündüz qoparırsan vaynövsəni?!
- Haram yeyən nədən belə artır yaman?
(Halalı ye, halal olsun, halal dolan).
- Dünya olub qaynar qazan, hey çoxalır yolun azan!
- Gün gələcək, asılacaq boğazından qanun pozan.
- Halal zəhmət üz ağardar, Qorqud babam demiş belə.
(Haram tikə göz çıxardar, haram yemə bilə-bilə).
- Beşi yeyir, göz bərəldir durub yandan baxanlara…
- Yetim bilir, qənim gələr halal evin yıxanlara!!!

*20.V.2008.*

## TƏNBƏLLƏR KİMƏ GƏRƏK

Tənbəllər kimə gərək, nə karı var, nə kirdarı,
Tənbəldən uzaq dayan, nə səri var, nə sərdarı.
Elə hey gileylənir, həmdəmi çox, qəmxarı var,
Əlindən xeyir gəlməz, zərəri çox, sərkarı var.

Nə bilir xeyir nədir, şər necədir, qulağı kar,
Qeyrəti olmaz onun, yalanı çox, yalağı var.
Başında güclə duran bir qulaqsız papağı var,
Yatmaqdan xor-xor olub, saqqal basmış yanağı var.

Beləsi nə bişirir, nə düşürür, hey aşırır,
Boynunun dalı yoğun, gözlərini piy basırır.
Ayda bir kərə çimmir, qotur olub, hey qaşınır,
Zığ-palçıq içindədir, qarşısında qalağı var.

Siz buna tay olmayın, Yetim baba layiq bilmir,
Acıyır taleyinə, dərdinə çarə söyləyir.
Tənbəllik xəstəliyin rədd eləyin, zərərlidir,
Bunu hər kəs bacarsa, nəticəsi xeyirlidir.

*3.VII.2008. Dağıstan.*

## TAMAHKARIN TAMAHI

Zəhərdən də betər olur tamahkarın tamahı,
Artıq olsa taxtdan salır həm soltanı, həm şahı.
Qəsd eləyir ömür-günə, heç doymayır gözləri,
Biri doğru, biri yalan olur sonda sözləri.

Əzəl gündən qurub-tikmək arzusuyla doğulur,
Tez aldanır şər sözünə, tamahından boğulur,
Haram qatır əməlinə, qoyun kimi sağılır,
Şah sarayı tikdirsə də, cadarlanır, dağılır.

Xoşlamayır Yetim baba, tamahkardan uzaqdı.
Yaxşı bilir uşaqlıqdan, artıq tamah yasaqdı.
Haram qazanc daş yaradar, daş atılar, baş yarar.
Təmiz qanla vuran ürək gec dayanar, hey vurar.

*30.VI.2008. Kizlyər şəhəri.*

# Tərcümələr



## YUMORİSTİK ATMACALAR

1) Yuxulu küknarın pəncəsi altda
Gizlənmiş göbələk hey öyünürdü:
- İnsan məni nə gördü, nə də yedi.

* * *

2) - Axı niyə əsirsən, səni bərkdən tutmuşam? -
Uçaraq göl üstündən qartal dedi dovşana.

* * *

3) «Nə mehriban insandı, beləsi heç tapılmaz!» –
Dedi soğan könlündə onu doğrarkən aşbaz.

* * *

4) Qoyyanı və Rubensi ötüb keçmək həvəsiylə
Durub əlləri üstə, o çəkir pəncəsiylə.

* * *

5) – Hə, necə yaşayırsan? – deyə bir gün sordum mən səbətdəki dələdən.
Gülüb dedi səmimi: - Hamı yaşayan kimi.

## «GECƏ QARANLIĞINDA»

### (Höte)

Qayann ucu yatmış,
Sakitləşmiş yollar da.
Qaranlıqlara batmış,
Yox olmuş buludlar da.

Yarpaqlar tir-tir əsir
Zülməti şimşək kəsir.
- Dayan, tələsmə bir sən,
Vaxt gələr, dincələrsən!

## İSTƏRƏM Kİ...

**(Səidə Zununova, özbək şairi)**

İstərəm ki, mənim bütün xəyalımın
Həyatda hüdudu tək sən olaydın.
Hər gün sənin oxuduğun kitabda
Əvvəlki, sonrakı səhifən olaydım.

İstərəm ki, bütün qayğı, düşüncəndən
Heç olmasa bir parasın alım mən.
İstərəm əqlinə gələydi birdən,
Talehinə sənin oldum səbəb mən.

İstərəm ki, sənə dinclik verməyəm,
Nə çox güclü, nə də çox zəifləyəm.
İstərəm adımı eşqinlə deyəm,
Axı bunsuz mən yaşaya bilmərəm.

İstərəm ki, ucalaydım bir zilə,
Yol tapıb könlünə orda qalaydım.
Dillərin susduğu köhnə çığırla
Mən ürəkdən ürəyə yol salaydım.

Yol uzaq olsa da, mən istərəm ki,
Bizi çöllə deyil, bağla aparsın.
İstərəm əkizlər – əmək və sevgi
Evimizdə daim birgə yaşasın.

*(Konstantin Simonovdan tərcümə)*
*Bakı, 1962.*

## A.KUPRİN

# İNNA

*Ev-eşiksiz adamın hekayəti*

Ah, bu Kiyev! Qəribə şəhər, şirin, sərfəli yağlanmış gözə və qırmızımtıl ağıza oxşayır. Mən o günləri necə unudum! İsti yaz gecəsinin çinar havasından oynayaraq kilsədən kilsəyə gedərdim. İnamlı misirliləri, köhnə mərasimləri unut görüm, necə unudursan. Ah, sanki ayaqdan başa canlı alovda işıldayan qadınların yanaqlarının gözəlliyi, bu ağ dişlərin parıltısı, gülümsər, incə dodaqların gözəlliyi, parlaq gözlərin şiş qaraltısı və incə barmaqlar…

Uşaq kimi lap kanardan görürdüm ki, hamı oynamaq-gülmək istəyir. Motivlərin hamısı qədim əyləncəli idi: tram- tram- tralyalyam. Hamı gülüşürdü. Yeni bahara, canlanmaya, çiçəklərə, bədənlərin xoşbəxtliyinə və ruha gülürdülər. Təkcə mən sürgün edilmiş kimi hasarın deşiyindən, hamıdan gizlənərək, özgələrinin xoşbəxt bayramına baxırdım.

Onun adı İnna idi. Sonralar kilsə rahibinin izahatından belə məlum oldu ki, İnna, Finna, Rimma və Alla adları heç də qadın deyil, lap kişi adlarıdır. Onda o, mənim yeganə, müqayisəsiz gözəlliyi qarşısında baş əydiyim İnna idi. Üç il əvvəl mən elə bilirdim ki, o da mənim məhəbbətimə isti münasibət bəsləyir. Lap gözlənilmədən mənə onların evini qadağan etdilər. Mübahisəsiz, nəzakətlə və anlaşılmadan qadağan etdilər. Bunu qəmli halda, anası, kök qadın, kart oyunu preferensi və güclü papiros çəkən arvad qadağan etdi. Mən özüm bunu belə anladım ki, gəncliyimə, kasıb maaşımla və gələcək perspektivimin olmadığına görə, ər üçün yaxşı var-dövləti olan, yaxşı tərbiyə almış, olduqca gözəl qıza yaramıram. Məcbur oldum. Nə edə bilərdim ki? Yalvar-yaxarla və ya güclə lazımsız olduğum evə dürtülməyəcəkdim ki.

Ancaq İnnanın görkəmi ürəyimdə ilişib qaldı və oradan çıxmaq istəmədi. Ucuz Amura (məhəbbət ilahəsi) heç vaxt uğur

olmamışdım. Deməliyəm ki, ilk günlər mən hələ də onun tez-tez olduğu yerlərə gedirdim, bəlkə bircə an onu görə bildim. Bir dəfə məşhur Prokopa körpüsündə şən cavanlarla əhatə olunmuş qayığa əyləşəndə məni ötəri gördü, gördüm ki, onun qəşəng… qaşları… aralandı. Bu vaxt mən utandım ki, onu istəyinin əksinə olaraq izləyirəm və ondan əl çəkdim.

Lakin hər dəfə böyük şəhər duasında, keçən Pasxamızın xatirinə, mən onun sevdiyi Onuncu kilsəyə gedirdim, kilsənin artırmasında onun günorta duasından çıxmasını gözləyirdim.

Elə biliridm ki, burada, dilənçilərin arasında, mən tənə və nifrətdən kənardayam. Bəli. Hələ uzaqdan-uzağa görürdüm ki, o, adamların arasından məni necə izləyir, amma həmişə yanımdan qaşlarını sallamış halda keçirdi. Nə etməli? Ondan pasxa öpüşü istəməyəcəkdim ki! Hərdən güman edirdim ki, nəsə bir kədər onun qönçə dodağına qonur. Elə bu müqəddəs gecə də mən Onuncu kilsə artırmasında dayanıb gözləyirdim ki, gəlib çıxsın. Bizim gözlərimiz görüşdü. Birdən qorxdum, nədənsə zəhlətökənliyimə görə özüm-özümə iyrənc göründüm. Çevrilib gözüm gördükcə getdim.

Yadımdadı, enli, alçaq pilləkənin daş pillələrilə bütün şəhər üzərində ağalıq edən Vladimir dağının lap təpəsinə qalxdım, yaxınlıqdakı ən qəlbi və sıldırım qayanın yanındakı skamayada oturdum. Şəhər ayağımın altından başlanırdı. Qoşa hava fənərlərinin arasından küçələrin qonşu təpələrə necə qalxdığını və onların başına dolandıqlarını görürdüm. Kilsələrdən yayılan zəng sədaları hissedilməz dərəcədə yüngül və sanki havadan asılı qalmışdı. Lap aşağıda isə ağ-mavi, hələ də çayın qorxunc qara yerləri açılmamışdı. Çayın ətrafında, yayda taxta barjların dayandığı yerdə, küçə işıqları anlaşılmaz iri bir topa olmuşdu: sanki böyük təntənəli yürüş yanan fənərlərlə qəflətən bir yerdə dayandı. Təzəcə bədirlənmiş ayın azacıq işığı var idi. İztirablı havada evlərin və ağacların sərt, qalın kölgələrində, titrəyən, cürbəcür rənglərə çalan kilsə zənglərinin səsində bir inciklik hiss edilirdi.

Birdən tələsən və yüngül addım səsi eşitdim. Çevrildim. Yaraşıqlı qadının yaxınlaşdığını gördüm. Fikirləşdim ki, sevgililər görüşüdür, aralanmaq lazımdır. Oturacaqdan durub getmək istədim.

Gözlənilmədən ürəyimi yandıran səs eşitdim: ürəyim tez-tez döyündü. İnna!

- Dayanın! Siz hara gedirsiniz? – soruşur və töyşüyür. – Siz nə tez addımlayırsınız, ardınızca düz Onuncu kilsədən yüyürürəm. Əvvəla, Xristos dirilib, təbrik edirəm!

Mən güclə şlyapamı çıxartdım. O, üç dəfə məni ürəkdən öpdü, sonra alnımdan öpdü və yanaqlarımı sığalladı.

- Oturaq, - dedi. – Vaxtım olduqca azdır. Onsuz da qorxuram ki, evdə artıq narahatdırlar. Amma mən sizə çox şey demək istəyirəm! Məni mühakimə edin, sonra bağışlayın.

Bax, qarşımda qorxunc, alçaq bir hadisə baş verir ki, heç vaxt həyatda görünməyib.

O zamanlar, hələ İnnanın evinə gedib-gəldiyim vaxt, məni məmnuniyyətlə qəbul etdikləri vaxt mənim yaxın sandığım dostum vardı – Fedya. Biz bir otaqda yaşamışıq. Sevinc, kədər, bir tikə çörək, pivə butulkaları – hamısını yarı bölərdik. Axı cavanlıq onunla gözəldir ki, dostlar qayğıkeş, təmənnasız və diqqətlidir, üstəlik, dost sevimlidir, sənin bütün gizli düşüncələrini dinləyir, bölüşür. Bir sözlə, bu Fedyaya İnnaya olan bütün əziz, şirin sirlərimi danışırdım. O, bizim bütün görüşlərimizi, söhbətlərimizi bilirdi, ən çox mənimçün füsunkar, mənalı sözləri, təsadüfi, uzun sürən baxışları, əl-ələ verməyimizi. Mən ondan bizim yazışmamızı da gizlətmirdim, Borşşakovkada, yaxud Kiyevdəki şəhərkənarı, tamamilə uşaq xatıratları. Çiçək və nota görə təşəkkür, teatra və ya sirkə dəvəti də. Hər şey bu tərzdə davam edirdi. Birdən Fedya bizim aramızdan çıxıb gedir, sonradan tamamilə gözümdən itir… O vaxt mən heç ağlıma da gətirməzdim ki, onunla birlikdə İnnanın xatiratları da yoxa çıxdı. Fikirləşdim ki, bizim ümumi nömrə qulluqçumuz, Anfisa arvad, kar, yarı kor, üstəlik tamamilə avam arvad, onları lazımsız qır-qırıntı kimi zibil səbətinə tullayıb; mən lap zibillikdə eşələndim də, ancaq nahaq yerə.

Bir dəfə İnna qəzetdən kəsilib düzəldilmiş mətbəə hərflərilə yazılmış məktub alır. Altından isə heç bir qüsuru olmadan, mənim imzama oxşayan, mürəkkəblə yazılmış imza.

Onu da deyim ki, Fedya bekarçılıqdan çox zamanlar mənim imzamın oxşarını cızmaqara edərdi. Məktubun mətni çox alçaldıcı idi. Alçaq yazıçı hazırcavablığı, murdar işarələr və ədəbsiz sözlərdən çəkinməmişdi. Bunların hamısı bizim hisslərimizə, İnnaya və onun ailəsinə iyrənc istehzalı ruhda idi. Ancaq imza, imza, sözsüz, mənimki idi. Bütün məktub üç fakta və sözə əsaslanırdı ki, bu da təmiz və günahsız uşaq paklığıyla təkcə mənə və İnnaya aydın idi, lap ay və gün kimi.

Bunların hamısı nə üçün edilmişdi – başa düşə bilmirəm. Sadəcə, özünün vəhşiliyilə günahsız adama murdarcasına toxunmaq… Bax elə bu vaxt mənə qapını göstərdilər. O zaman mən kimi günahkar sana bilərdim? Fedya çox yaramaz, özünəməxsus şərait yaratmaq üçün saxtakarlıqda ixtisaslı imiş. Çox keçmədən o, məhkəmənin əlinə keçdi, əvvəlcə Odessada, sonra isə, bu yaxınlarda, Kiyevdə. Onun bütün kağız-kuğazları məhkəmə müstəntiqinin əlinə keçdi. Onların arasında tək İnnanın xatıratları yox, Fedkanın gündəliyi də vardı. Təəccüblüdür, amma çoxdan bəllidir.

Peşəkar cinayətkarlar çox hallarda özləri üçün gündəlik-xatirə yazırlar ki, axırda özlərinicə kəməndə salırlar. Bu bir növ xəstəlikdir, ucalmaq üçün başdan çıxmadı.

Ailənin dostu olan müstəntiq İnnaya aid kağızların hamısını aldı. Çünki qalan sənədlərdə kifayət qədər dəlil tapıldı ki, Fedkanı üç il müddətinə həbsə alsınlar. Halbuki gündəliklərindən bunu mənim adımla imzalamış müəllif ləqəbindən aydınca müəyyən etmək olardı. Bunların hamısını mənə İnna danışdı. Danışdığı vaxt mən skamyada əyləşib onu dinləyirəm, o isə ürək ağrısıyla yanaqlarından axan göz yaşlarımı dəsmalı ilə silir. Mən onun əlini öpürəm.

- İndii isə, mən İvan Kiriloviçin nişanlısıyam, həmin o müstəntiqin. Gizlətmirəm, mən sizi bir az sevirəm, ancaq üç il, üç illik təhqir, kədər və etibarsızlıq məndə sizə qarşı yaxşı, xoşa gələn hər nə vardısa külə döndərdi. Lakin heç vaxt, eşidirsinizmi, heç vaxt həyatımda unutmayacağam ki, siz nə qədər mənə vəfalı idiniz, baxmayaraq ki, layiqsiz iztirab çəkdim. Mənim əzizim, məni bərk-bərk qucaqlayın, qardaşım kimi. Gəlin bütün ömrümüz boyu qardaş-bacı olaq. – Biz bir daha öpüşdük.

- Məni ötürmək üçün zəhmət çəkməyin, unutmayın: hər hansı kədərdə, ehtiyacda, bədbəxtlikdə, xəstəlikdə biz ən yaxın dostuq.

O getdi. Mən Vladimir qayasında çox oturdum. Artıq ürəyim açıq və sakit idi. Hər şeydən güclü tale üstümdən keçmişdi.

***10 avqust 1963-cü il.***

# DEBÜT

## Viktor Pitsiqoy
## (Rumın yazıçısı)

Cavan oğlan bu yaxınlarda institutdan təyinat alıb əlacsız qalmışdı, bilmirdi ki, iki kreslodan hansını seçsin. Sağdakını, yoxsa soldakını. Nəhayət, çəkinə-çəkinə onlardan birinin qırağına yanını qoydu. Onun qarşısında tərəfkeşlik edən özündənrazı redaktor əyləşmişdi. Redaktor tələsmədən stolun sürməsini çəkdi, oradan götürdüyü zərfdən bir əlyazması çıxartdı. Sözsüz görünürdü ki, bu, kreslonun kənarına yanını qoymuş cavan oğlanın sınaq oçerki idi. Həm də oçerkin necə yazılmasından asılı olaraq oğlanın redaksiyaya işə qəbul edilməsi məsələsi həll edilməli idi.

Hakim-redaktor hökmü oxumağa - oçerk haqqında öz rəyini izah etməyə başladı.

- Mən deməzdim ki, o, pis yazılıb. Amma qəhrəman həyata uyğun deyil.

- Siz beləmi hesab edirsiniz?

- Əlbəttə. Bu, açıq-aydın görünür. O, reallıqdan uzaq xəyalın məhsuludur.

- İnandırıram ki, bu bekarçılıqdan yaranan yazı deyil.

- Siz nə danışırsınız! Axı bizim qəhrəman həqiqətə uyğun deyil. Uşaqlıqdan o oxumağı sevir, məktəbdə birinci şagirddi. Sonra o zavoda işə girir, həm də işi onun xoşuna gəlir… Fərz edək ki, bu, birtəhər uyğun gəlir… İşdən sonra o, idmanla məşğul olur, bu da onun ürəyinə yatan şeydir… Fərz edək… Nəhayət, ixtisaslı fəhlə olandan sonra da o, az qazanc əldə etməzdi. Siz yenidən onu oxumağa göndərirsiniz. İnstituta. Yenə də ədəbiyyat, filologiya onun xoşuna gəlir. Məgər siz hiss etmirsiniz ki, belə olmaz?

- Necə yəni olmaz?

- Lap sadəcə… Hər şey sizin qəhrəmanın xoşuna gəlir. Onun təkcə yaxşı cəhətləri var. Bəs onun münaqişəsi hanı? Məsələn, siz

belə yaza bilərdiniz: o, həvəslə işləyirdi, amma oxumağı qətiyyən istəmirdi… Buradaca kollektiv meydana çıxardı. Onun təsiri altında da qəhrəman bir neçə səhifə ərzində tamamilə dəyişərdi… və gecə şöbəsinə daxil olardı… Beləcə. Onda bu, gerçəklikdən uzaq xəyalın bəhrəsi deyil, həyatdan götürülmüş qəhrəman olardı. Nə deyə bilərsiniz?

- İndi artıq gecdir.

- Gec-zad deyil, hələ ki, oçerk çap olunmayıb. Siz onu dəyişdirə bilərsiniz. Başqa bir məsləhət: birdəfəlik onun valideynlərini də dəyişin.

- Necə, valideynlərini də?

- Bəli! Onlar heç mənim xoşuma gəlmir, həqiqətə uyğun deyillər. Əgər atası dəmir yol maşinisti isə, onda heç uyğun gəlmir ki, anası rəssam ola. Məgər siz hiss etmirsiniz?

- Bu, mənim günahım deyil…

- Necə məgər? Siz ki onları yaratmısınız…

- Zarafatı boşlayın. Onları mən yox, onlar məni yaradıblar…

- ???

- Əlbəttə. Axı oçerk başqa zərfdə, sizin stolun üstündədir. Əlinizdəki isə mənim tərcümeyi-halımdı. Siz özünüz dediniz: onu hərtərəfli yazın… İşə qəbul olunmaq üçün belə tələb edirlər.

***1964-cü il.***



# Hekayələr

# QARĞANMIŞ QARAŞ

*(Tanrım səbrimi tükəndirməsin)*

Neçə gündür Qaraşın ölüm xəbərini araşdıran bibisi oğlu müstəntiq Şamil Vəliyev baş sındırır, qalaq-qalaq sənədləri vərəqləyirdi ki, bir vaxtlar canbirqəlbdə olmuş, canından artıq sevdiyi Qaraşın müəmmalı intiharının səbəbini öyrənsin. Axı Qaraşın haqqında ona yaraşmayan söz deyənin dili ağzında kömür kimi qaralardı. Nəinki tay-tuşları, onu rayonda tanıyanlardan heç kəs Qaraşa qara yaxa bilməzdi. Çoxları haqlı olaraq onu zəmanənin ən dözümlü, düz yol göstərməyi bacaran peyğəmbəri adlandırırdı. Söhbət zamanı, xeyir-şərdə həmsöhbətini təmkinlə, özündən rütbəli kimi dinləyər, məsələni dürüstləşdirərdi, yerbəyerində məsləhət verməyə çalışardı. Həmsöhbətindən suçlu imiş kimi söz almağa çalışar, üzünə dik baxmaqdan xəcalətli kimi başını sinəsinə sallayardı. Elə buna görə də qız-gəlinlər, cavanlar, qocalar Qaraşın dediklərini hökmən təsdiqləyərdi. Heç kəs onu ürəkdən gülən görməmişdi. Paxıllığını çəkənlər isə niyyətlərini dolayısı yolla da olsa gizlətmirdilər. Belələrinin hərəkətinə Qaraşsevənlər ağız büzərdilər. Bax buna görə də Şamil Vəliyev az qala bütün günü özünə rahatlıq tapmırdı. «Bu nə sirdi, ya Rəbbim!» deyər, alnını, çənəsini gücü gəldikcə ovuşdurar, kələfin ucunu tapa bilmədiyindən köksünü ötürərdi, sanki bu ona rahatlıq verəcəkdi. Amma fakt faktlığında qalırdı: Qaraş kənd-kəsəkdən uzaqdakı bağda qolları bağlı halda özünü qoca dağdağan ağacının iri budağından asmışdı. Elə bil kimsə onu Novruz yüyrüyündə yelləyirmiş.

- Niyə məhz dağdağan ağacı? – Şamil baş sındırırdı.

Ailədə Qaraş sonbeşik idi. Qardaşların heç biri analarının razılığı ilə ayrılmamışdı. Dul qalmış Səmail arvadı hamı «ekrər Tükəzban» adlandırırdı. Handa özündən deyən, sırtıq kişilər belə Səmailə yaxınlaşa bilmirdi: kor əfiyə dönürdü, «çaldığı» çətin ki, özünə gəlirdi. Zalım balası söz altda qalmazdı. Çoxları ondan yanıqlı idi.

Çox istəyirdi ki, oğlanları da onun kimi davransınlar. «Qoy deməsinlər ki, siz dul arvadın uşaqlarısınız, bilsinlər ki, dul Səmailin qollarının şah damarısınız. Onda atanızın da ruhu məndən inciməz!»

Yaxşı deyiblər: sən saydığını say, gör fələk necə tüğyan edir. Böyük qardaş əsgərdə olanda özündən bir neçə yaş böyük qızla evlənib orada da qalmaq istəyirdi. Bu dili qurumuş Qaraşa yaman pis təsir etmişdi. Hər dəfə ona məktub yazanda ağ kağızda anasının sol əlinin şəklini karandaşla cızar, anasından eşitdiyi yanıqlı bayatıları sədəf düyməsi kimi düzərdi sətirlərə. Bir neçə solğun rəngli iri nöqtələr çəkər, bunları anasının göz yaşları adlandırardı: bəlkə, naxələf qardaş insafa gələr, onlardan ayrılmaz, yoxsa «anamın südü sənə halal olmaz».

- Ay səni çərləyəsən, Qaraş, bunların hamısı sənin əməllərindi, anam bəlkə heç belə fikirləşmir, - qardaşı cavabında sonbeşiyi lənətləyərdi.

Xeyli keçəndən sonra Səfdərqulu, doğrudan da, arvadını və bir uşağını qoltuğuna vurub atıla-atıla gəldi ana-balaların hüzuruna. Yad yerdən gəlmiş gəlin yad yerlərə, insanlara, dolanışığa heç vəchlə öyrəşə bilmirdi. Gecə-gündüz özünü yerə sürtürdü ki, «bura mənlik deyil, qayıdaq geri, orda dolanışığımız, pis-yaxşı iş yerimiz vardı. Buralarda nə itirmişəm ki, tapmağa çalışıram».

- Allaha bax, tök yerə ətəyindəki daşları, arxaya bax, irəlini gör.

Səfdərqulu qalmışdı iki suyun arasında, keçə bilmirdi, ata elində qalmışdı vurnuxa-vurnuxa. Əlacsız qalıb ailəsilə birlikdə qonşu rayonda yaşamalı oldu. Bir neçə mitilini maşina atıb yola düşəndə Səmail arvad saçlarını yolmacladı ki, el içində onu qınayacaqlar. Köhnə yük maşını zarıyaraq həyətdən çıxanda Səmail yerdən bir daş götürdü, «get, dalınca da bu daş getsin!» qışqırdı.

- Dilin qurusun, ağız, necə qıyırsan belə deməyə? – Əlindəki çəliyə dayanmış Qaraqız qarı onu qınadı. İş-işdən keçmişdi. Deyilənləri köçkünlər eşitmirdi. Qonum-qonşular Səmaili sakitləşdirməyə çalışsalar da, onun bildiyi biləyində idi. Kor-peşman qapısını örtdü, çırağının şöləsini azaltdı, tifillərini qovdu yorğanın altına ki, gələnlərin ayağı həyətdə səslənməsin…

Şamil Vəliyev iş yerində oturub kağız-kuğazları araşdırırdı. Kimsə qapını tıqqıldatdı. Müstəntiq qələmi stolun üstünə qoydu, qəddini düzəltdi, narazı halda dilləndi:

- Buyurun içəri.

- Ay oğul, günün bu tüğyanında qapını da örtüb oturmusan içəridə, nəfəsin darıxmır bəyəm, nə cəhd gəlmisən canına? Cavansan, özünü indidən beləcə isti-soyuğa versən, axırın necə olar, bala? Məsəl var, deyərlər: paltarı təzəlikdə, ömrü cavanlıqda qoru. İşini səbrlə gör, sağlamlıq qırtmıq-qırtmıq gəlir, batmanla gedir.

- Nə deyim, ay Qədir dayı, vallah qalmışam lap çıxılmaz vəziyyətdə. Neçə gündü bu bədbəxtin ölüm səbəbini açmağa çalışıram, işıq ucu tapammıram. Hamı yaxşı bilir ki, Qaraş kimsəyə dəyib-dolaşmazdı. İnana bilmirəm ki, qəsdən bir qarışqanı ayaqlayardı. Biz onunla dost idik. Özünə niyə qəsd etdiyini bilmirəm. Elə bil iş tilsimə düşüb.

- Bax bunu düz deyirsən, oğul. Elə onun özü də tilsimə oxşayırdı. İçini bilmək olmurdu. Üz-gözündən kədərli nur tökülürdü. Dediyimə özüm də inana bilmirəm: kədərli də nur olar? Deyib-gülmək paylananda, bilmirəm, bu zalım oğlu harada yatıbmış. Sanki yaşıdlarından narazı idi ey. Mənimlə üz-üzə gələndə gümrahlaşırdı. Təəccüblənirdi ki, mən xalam qızıyla evlənmişəm. Burda təəccüblü nə var ki, bala? Məsəl var, deyərlər: qohum qohumun ətini yesə də, sümüyünü hara gəldi atmaz. Başqa bir deyim də var: yad oğlu ərim olsun, gündə biri ölsün. Yad qızına əl qaldırsan, bağıra-bağıra qaçar milisə, şikayətə.

- Sən düz fikirləşmirsən, Qədir dayı. Qohumdan aldığın yara uzun zaman sağalmaz. Qohumu nə söyə bilirsən, nə günahını anlada bilirsən. Qohum elə qohumdu də, yadı al ki, qohumun çox olsun, - etiraz edərdi gülə-gülə. Özündən böyük qardaşının qohumla evləndiyilə razılaşa bilmirdi: başına qırmızı kalağayı atıb ər evinə yollananda anası qızına «getdiyin yol quru qalsın» demişdi, nədənsə. Dediyi sözə görə bibisini ölənə qədər dindirmədi Qaraş. Yamanca sözü bütöv adam idi. Həddən artıq sevdiyi qardaşlarının yolunda torpağa dönməyə razıydı, halbuki onların bundan az qala xəbəri yox idi. Özündən böyüklərə məsləhət verdiyinə görə onu

gözümçıxdıya salardılar. Vaxt gəldikcə onlar «köç-köçün dalınca» deyib Səmail arvadı sonbeşiklə yurdda qoydular. Bəlkə elə buna görə Qaraş adamlardan gizlənməyə çalışardı, adamlarsa ondan nəyisə öyrənməyə can atardı. Dünyanın gərdişindən xoflanan Qaraş özünə çəkilər, ehtiyatlanırdı. Yaşlaşsa da ailə qurmaq fikrindən aralanırdı. Evlənməkdən söz düşəndə içinə buz çökər, üstümə gəlirdi.

- Qaraş, dost-tanışların çoxdan oğul-uşaq buyurub-çağırır, nəyi gözləyirsən, çillə kir-pasını haçan tökəcəksən? – dedim bir dəfə.

- Nə bilim, ay Şamil, dünyanın işini belə görürəm, canımı titrətmə tutur. İstəmirəm özümü günaha batıram.

- Ə, axmaq-axmaq danışma, evlənmək nə vaxtdan günah olub?

- Nə çoxdu dünyanı subaylıqla zibilləyən, mən də biri.

- Səfehləmə, ali təhsilin, iş yerin var. Qardan, yağışdan, küləkdən qorunmaq üçün dədə-babadan xosman da üstəlik. Daha nə çatmır? Tut birinin ətəyindən, sal evinə, bala-bala ək-becər. Qoy deməsinlər, kişi deyil. Palaza bürün, elnən sürün. Elnən gələn toy-bayramdı. Dalda qalanı toz basar. Gözünü yum, atıl çaya. Xalq necə, sən də elə. Nə birincisən, nə axırıncı. Sən mənim canım, Səmail xalanı incitmə, deyəsən, arvad yavaş-yavaş kəvəlləyir. Bir pis iş olmasın, yoxsa olarsan dedi-qodu mövzusu. Mən ölüm, düzünü de, heç bir nəfər döşünə düşən olmayıb?

- Şamil, ağzımı elə dağa dirədin ki, istəyirsən birdəfəlik «nu» deyim? Göz gördüyündən qorxar, qardaş. Düzünü desəm, tələbəlik vaxtı gözüm tutan qızlar çox idi, amma indi evdəki ab-havaya görə sevməkdən vaz keçdim, məcbur idim.

- Niyə birini qapazlamadın, ay fərsiz?

- Bax, bunu düz dedin, fərasətim çatmadı. Deyirsən, başımı cəncələ salım? Nə yazılıbsa, o da qəbuldu. İstəmirəm…

Çox cəhləşdik, amma yola gətirə bilmədim. Mübahisə qızışdıqca, Qaraşın rəngi tutqunlaşır, gözləri çuxurlanır, bərk töyşüyürdü. Yazığım gəldi nədənsə, sanki onu həbsxanaya salacaqdılar.

- Heç cırtı-pırtı yoxdu, - deyib onu qucaqladım, sakitləşdirmək istədim. Yerindən qalxdı, divara mıxlanmış köhnə kitab rəfinə yaxınlaşdı. Qalın bir kitabı götürdü, içindən bir neçə qəşəng göz-

lərilə adamın canına od vuran qız şəkillərini tökdü stolun üstünə: sevgi dolu etiraflar, xahişlər, ümidlər, hətta qarğışlar da yazılmışdı. Cavab gözləyirdilər.

- Bunlara nə cavab verim, dostum?! – Qaraş gözümün içinə zilləmişdi yorğun gözlərini, imdad istəyirdi məndən. Söz tapmadım, başladım xəstə qoyun kimi gözlərimi çırpmağa.

- Yaxşı, fikrin nədi? Yükü əyilmiş yabı uzun zaman yol gedə bilməz. Haçansa çökəcək. Hər çətinlikdən bir çıxış yolu olmalıdı, axı. Sənə baxıram, qollarım yanımdan asılı qalır. Daşı götür, vur başıma, qoy qanasın.

- Çarə axtarmaq istəmirəm. Qoy desinlər, «kişi deyil, xədimdi». Haray bəri başdan. Məndən qabaqkıların aqibətini yaşamaq istəmirəm: ailə qur, ayrılıb gedəndə dalınca daş atılsın. Həkim dərman buyurmayıb ki! Harda üzülər, orda batar.

Bu söhbətdən sonra bir daha bu mövzuya toxunmadıq. İş elə gətirdi ki, mən də bakılı oldum. Ayanda-sayanda görüşərdik, köhnə yaranın qaysağını qoparmaq istəmirdim. Nə dəyişərdi?

İşimlə bağlı məni Rusiyanın Nijnı Novqorod şəhərinə ezam etdilər. Bir neçə il hüquq-mühafizə işində çalışdım, püxtələşdim, oğul-uşaq sahibi oldum. Pis dolanmırdım. Az qala dostlarım, həmkarlarım, kəndimizin cavanları haqda fikirləşməyə macalım qalmırdı. Bir dəfə yorğun halda işdən qayıtdım evə. Əl-üzümə su vurub əl dəsmalını asılqandan asdım. Masanın üstündəki xörəyin iyi adamı bihuş edir, «gəl-gəl» deyirdi ki, nəfsini söndür. İştahamı öldürüb təzə qəzetlərə baxmaq üçün divanda rahatlandım. Xanımım Nargilə nədənsə ehtiyatlanırmış kimi yaxınlaşdı və Bakıdan göndərilən «Azərbaycan gəncləri» qəzetini mənə verdi. Xəbərlər bölməsini göstərdi. Qara hərflərlə yazılmış xəbəri bir göz qırpımında oxudum. Gözlərimə inanamadım, təkrar oxudum. «Qarayazı kənd sakini Qaraş Qaramanlı müəmmalı halda intihar edib. Araşdırmalar aparılır». Başım gicəlləndi, gözlərim qaraldı. Buğanaqdan yıxılan ağac kimi sərildim divana. Hannan-hana özümə gələndə iki qızımın pərişan saçlarının göz yaşlarından nəmləndiyini anladım. «Bu nə xəbərdi, Nargilə!» - deyib özümü ələ almağa çalışdım. Yad

şəhərdə yaşasam da, qonşu-qonum Nargilənin harayına gəlmişdi. Yaşlı qadın qolumdan tutub dil-ağız edirdi.

- Hüquq işçisi çox soyuqqanlı, iradəli, təmkinli olmalıdı, oğul, özünü ələ al. Hələ bir «qafqazlıyam» deyirsən. Arvad-uşağı niyə bağrıdalaq edirsən? Gözlərin hədəqəsindən çıxır. Səndən gözləməzdim. Qalx ayağa, sakit başla hərəkət et. Ölənlə ölmək olmur! «Uşaqlara bax, utanmırsan, Şamilcan» - əyilib qulağıma pıçıldadı və məni əlüzyuyana sarı dartdı.

Əhvalatı götür-qoydan sonra yoldaşlarımla vidalaşıb Qarayazıya yola düşdüm. Bir-birinin dalınca şütüyən vaqonları dartan qatar məni uşaq nənnisi kimi atıb-tutur, yuyrəyir, doğma yurdumuza çatdırmaqdan ötrü əldən-ayaqdan düşür, var gücüylə ulayır, yoldan keçənləri xəbərdar edirdi ki, vaxtında mən də mənzil başına çatım. Dərə-təpədən, qobulardan, qalın-seyrək meşələrdən, göz işlədikcə uzanan çəmənliklərdən, tarlalardan keçib yaşayış məskənlərinə yaxınlaşdıqca göz bəbəyim kimi əziz olan ata-babamızın, qohum-əqrəbamızın da ömürlük uyuduğu, görüşünə burnumun ucu göynəyən Qarayazımın çoxdan görmədiyim, duymadığım, ciyərimə doyunca sümürərək «oxay!» deməyə tələsdiyim ocaq tüstüsünə, gərmə-təzək iyinə yaxınlaşdıqca ürəyim qəfəsə salınmış çöl quşu kimi çırpınır, vaqonları arxasınca zorla dartan parovozu ötüb keçməyə tələsirdim. Heyhat, «xəstə nə qədər arzulasa da, armud vaxtında yetişər» deyiblər ulularımız. Tez-tez kupedən çıxıb vaqonun pəncərəsindən aralanıb gözdən itən kənd-kəsəyə baxır, hələ vaxtın mənzil başına çox qaldığını görüb köks ötürürdüm, qatardan inciməyə başlayırdım, amma faydası olmurdu. Paxıllıqdan, xəbislikdən çoxlarının bağrını çatladan, şəhərlər arasında qürurla boy atıb ucalan, genişlənən, günü-gündən çiçəklənən, gecəsi gündüzündən əlvan, göz oxşayan Bakımıza çatanda atasını görməyə sevinən uşaq kimi atılıb-düşmək, kimlərinsə boynuna sarılmaq istəyirdim ki, fışıltısı eşidilən parovozun «köks ötürməsi» adamları vaqonlardan perrona əndərdi. Qarşıma çıxan ilk taksiylə özümü çatdırdım avtovağzala ki, Qarayazıya yollanan avtobusu haqlayım. Belə də oldu. Kəndimizə yaxınlaşdıqca dilxorluğum, istəmədiyim göz yaşları boğazımda düyünlənir, əhədimi kəsirdi. Fikirləşirdim, gö-

rən Qaraşımın əriyib əlçəyə dönmüş anasını – Səmail nənəni (bizdə anaya nənə də deyərdik) necə ovunduracağam? Haçandansa yadımda qalan bayatılar qəfil məni xırxaladı.

Anam məni ağlasın,
Saçın qara bağlasın.
Göz yaşları sel olsun,
Bulaq kimi çağlasın.

Əzizim ulu dağlar,
Çeşməsi sulu dağlar.
Oğlu ölən anayla
Göydəki bulud ağlar.

Araz axar, hay edər,
Sahilləri zay edər,
Oğul köçsə dünyadan,
Analar ah-vay edər...

Şamilin «gəldi» xəbəri adamları çaş salmışdı: neçə illərdi «qeybə çıxmışdı». Səmailin dar günündə onun gəlişinə sevinməkdən çox kədərlənirdilər. Axı Şamilin gəlişi nəyi dəyişəcəkdi: olan olub. Səmail Qaraşdan ötrü özünü yeyib tökən Şamillə vaynövsə qoparırdı. Heç kəç onları sakitləşdirməyə cürət etmirdi. Adamlar ürəyini boşaldandan sonra kənddə sayılıb-seçilən, sözü eşidilən Qədir kişi irəli yeridi, onları həyətin ortasında yetim-yetim sızıldayan samovarın yanına səslədi. Üzünü Savalana, Üçqardaşa doğru tutub fatehə oxudu. Göz yaşlarını silənlərə müraciətlə dedi:

- Əzizlərim, hamımız Qaraşı sevirdik, çoxumuza nümunə idi rəhmətlik. Bu da bir qismətdi bizi haqladı. «Əziz ölüb, boğaz ölməyib» deyib keçmişlərimiz. Hərəniz bir stəkan çay için Qaraşın ruhu xatininə.

Qədir kişi Şamilin qolundan yapışıb arvad- uşaqdan araladı, öz evinə tərəf addımladı…

Gecə qurd olub «yeyirdi» Şamili, yuxusu ərşə çəkilmişdi. Səhər tezdən yollandı rayon milisinin cinayət-axtarış şöbəsinə. Tanış-bilişdən nəsə öyrənmək üçün işi aparan müstəntiqdən sənədlər toplanmış qovluğu xahiş etdi. Nə qədər vərəqləsə də, bir şey anlaya bilmədi. Sənəd dolu qovluqla gəldi kənd soveti idarəsinə. Dinləmək istədiyi adamlardan bəzilərinin ikibaşlı danışığı hiss olunurdu, amma konkret nəyisə aydınlaşdırmaq olmurdu. Bir vaxtlar Qaraşın Şamilə göstərdiyi məktublardan, şəkillərdən əsər-əlamət yox idi. Şəkillərdəki qızların görkəmlərini, adlarını tamam unutmuşdu. Bu barədə Səmail nənədən soruşmağa üzü gəlmirdi.

- Bu kağızı o rəhmətliyin cibindən götürsəm də, heç kimə bildirmədim. – Qədir kişi yaxınlaşdı Şamilə. – İlk dəfə onu kəndirdən çıxarıb yerə uzadanda yanımda az adam vardı. Adamlardan gizlincə kağızı sıvışdırdım ki, kimsə tələyə düşsə, Qaraşa söyərdilər, onu söz-söhbətə salardılar. Buyur, oxu, nəticə çıxar. «Ölümümdə özüm günahkaram. Qoy anam məni bağışlasın ki, sözünü yerə saldım». Vəssalam, başqa heç nə.

- Bəs anasından niyə üzr istəyib? Məsələ nəylə bağlıdı, Qədir dayı?

- Ay oğul, yaramaz adamın üzü qara olsun. Sənə açacağım sirri heç kəs bilməsin, «bir daş altdan, bir daş üstdən» olacaqsa, danışaram.

- Duz-çörəyə and içirəm ki, ikimizin arasında qəbir gününəcən qalacaq.

- O qızın bizə də qohumluğu çatır. Doğrudur, gözəgəlimliydi, anasının yolunu getmək istəyirdi: gözü-qaşı qaynayırdı. Elə Qaraşın özünü də az qala dirigözlü yemək istəyirdi. Hərəkətlərindən bu bədbəxtin xəbəri vardı. Tək Qaraşı deyil, çoxunu tora salmaq istəyirdi, qan ocağıydı. Başı batmış Səmailin xəbəri olmasa da, deyilənlərə məhəl qoymurdu.

- Gözələ çox şey deyərlər. - Səmail dediyindən dönmürdü. Hərdən onların ana-bala söhbətlərini eşidirdim: ana yalvarır, oğul daş atıb, başını tuturdu. Gözü qorxmuşdu Qaraşın. Anasını başa sala bilmirdi. Səmail dik durmuşdu irtməyinin üstündə.

- Budur, sənə deyirəm, çıxmayacaqsan sözümdən. Öldü var, döndü yoxdu! Sözümdən çıxsan, südüm sənə haram olsun! – demişdi «erkək Tükəzban».

- Deməli, qan çıxmayan yerdən qaşıyıb qan çıxarıb Səmail arvad. Bu da kor məhəbbətin acı nəticəsi. «Özü yıxılan ağlamaz» deyiblər axı!

Şamil kağızları qovluqla birlikdə dəmir seyfə qoyub yollandı Qaraşa «üzrxahlıq» etməyə.

***29 fevral – 2 mart 2008-ci il.***

# BİLQEYİSİN ÇAYXANASI

Hər dəfə onunla görüşəndə çox mehribanlıqla qucaqlaşar, bir-birimizin kürəyinə şappıldadar, bərkdən sinələrimizə sıxılardıq. Sanki ilk əhdi-peymanımızı yenidən təkrarlayardıq: unutmayaq, haa… Elə indi də telefon dəstəyini qulağıma yaxınlaşdıranda üzbəüz dayanmışıq kimi gülümsündüm, sevinə-sevinə incə səslə dilləndim:

- Ay sənin hər vaxtın xeyir olsun, qardaş, səsin nə qəşəng eşidilir! Maşallah, lap xoşum gələn ahəngdəsən. Əhvalı-şərifin təki həmişə ürəkləri oxşasın. Neçə vaxtdı salamlaşa bilmirik, xeyirdimi? Balaların necədi? Yenə səhər tezdən adaşımı – sonbeşiyini öpüşünlə yuxudan oyadırsanmı?

- Ayə, ay Fazil, bir əyləcini bas ki, mən də sənin vəziyyətindən hal-əhval tutum. Çiskin yağış kimi heç dayanmaq istəmirsən. Vallah, sən gedəndən başımı qaşımağa dırnaq tapa bilmirəm.

- Nə olub, yenə başlayacaqsan uşaqlardan gileylənməyə, bilirəm xasiyyətini. Sənin bu deyingənliyin heç olmayaydı. Balam, uşaqdı də… Qoy bir az sərbəst olsunlar. İndi hansı zəmanədə yaşayırıq? Ay Həmid, gör-götür əyyamıdı ey… Deyib-deyib uşaqlarını sırtıqlaşdırma. Qaşınan yerdən qan çıxar, deyiblər gorları nurla dolmuşlar. «Dəyirman bildiyin eylər, çaq-çaq başın ağrıdar». Sənin uşaqlarından arxayınam, başıaşağı etməzlər valideynlərini. Nahaqdan özünü yorma.

- Sən deyən olaydı kaş, Fazil! Nədənsə içimi bir narahatlıq yamanca didişdirir, ağlıma axmaq fikirlər gəlir. Bu qız uşaqlarına heç etibar etməli deyil, noxtalarını gərək əldən verməyəsən. Sonrakı peşmançılığın nə faydası?

- Ə, dilin quruması, bu nə danışıqdı eşidirəm. Heç səndən gözləməzdim. Hansı qanmaz səni belə bədbinliyə sürükləyir? Özünü ələ al, təmkinli ol. Uşaqları haqq-nahaq sıxma-boğmaya tutma. Harda qaldı sənin pedaqoji qabiliyyətin? Axı sən özün həmişə hərbə-zorbanın əleyhinə idin bir zamanlar. Nə tez cavanlıq, subaylıq-

soltanlıq illərimizi unuduruq? Eh, məktəb çağlarımızın davamı olan tələbəlik illəri elə bil çobanaldadan yağış oldu: tez gəldi, tez gə getdi. Yadındamı o deyim: «Əzizinəm bir də mən, doldur içim bir də mən, ömür keçdi, gün keçdi, cavan olmam bir də mən». Qəm yemə, dostum, iri gövdəli, köklü-köməcli ağaclar küçükləməz, deyiblər. «Qorxan gözə çöp düşər». Gəl dəstəyi yerə qoyub özümüzü verək xudmani bir yerə, üz-üzə, göz-gözə söhbətləşək. Bu gəldi-gedər dünyanın əcaibliyini azacıq da olsa, özümüzdən kənarlaşdıraq. Yaxşımı? Danışdıq? Səbirsizliklə yolunu gözləyirəm. Türklər demiş: «Hadi gəl!»

- Təki sən deyən olsun, Fazil, mən pəs.

Kəndin qənşərindən baxanda bu yerlər kiçik şəhəri xatırladır. Buranın ucu-bucağını gəzib-dolaşsan, lap əldən düşərsən: qara ilan kimi gah düz, gah qıvrılıb gedən asfalt yolla azı yarım saat getməli olarsan. Başqa rayonlardan olan dost-tanışlar bizim kəndi haqlı olaraq şəhərcik adlandırırdılar, gəzib-dolanmaqdan zövq alırdılar. Ortasından qıvrılıb gedən çaylağın hər tərəfindən uzanıb ölkəmizi guya onun ikiyə paçaladığı Araza doğru sallanan yamac boyu salınmış kənddə hansı yenilikləri görməzdin, İlahi! Enli, rahat maşın yolları – küçələr xalça xətlərini xatırladır. Küçələr boyunca mişar daşından hörülmüş barılar. Taxta çəpərlərə söykənən ərər qovaqlar. İri gövdəli tut ağacları, həyətlərdəki meyvə ağacları göz oxşayır. Həzin mehdən silkələnən yarpaqlar sanki pıçıldayır: «Hər kəs yüzü yaşamasa, günah onun özündədi». Sıralanmış ikimərtəbəli evlər, əhalinin ixtiyarına verilmiş yaraşıqlı klub, müasir avadanlıqla təchiz edilmiş orta məktəb, xəstəxana, poçt, ATS, radio qovşağı, mağaza, çayxana, əmanət kassası, uşaq bağçası, süd emalı zavodu, fermalar kompleksi, qaraj, tikilməkdə olan metal-konstruksiya zavodu, inşaat malları bazarı kəndi daha da cazibədar edirdi. İnsanların üzüm bağlarında, bostan-tərəvəzdə, taxıl sahələrində rahat çalışması güzəranlarının arzuolunan səviyyədə olduğundan xəbər verirdi. Adamlar çal-çağırla yaşayır, xoşbəxt həyat sürürdü. Respublikanın ali təhsil ocaqlarında, zavod-fabriklərdə çalışanlar arasında iyirmi beşdən çox alimimiz var. Bütün bunlardan fərəhlə-

nirsən. Öz düşüncələrimə qapıldığım bir vaxtda kimsə arxamdan əllərilə gözlərimi tutub sakitcə dayandı, qulağıma pıçıdadı:

- Silim, süpürüm?

- İstəyirsən sil, istəmirsən süpür, - deyib əllərimi yanıma saladım.

- Bax, adamı belə yerdə haqlayarlar, niyə əllərimi tanımadın? Deməli, daha yadlaşırıq, - deyə Cahangir çiyinlərimdən tutub var gücüylə silkələdi. Təzəcə buraxdığım ensiz bığlarımın tükləri üzünü daladığından aralandı, telimi sığalladı və gülə-gülə:

- Hə, necəsən, Oleq Koşevoy, deyəsən saçların qorxusundan ağarmağa başlayır, haa… Oğul-uşaqlardan narahat olmağa başlayırsan yavaş-yavaş. Böyüdükcə donları da böyüyür, yəqin. De görüm, böyük oğlun qəsdən dava-dalaş salmır ki? Axı «Ay ana, qonşum evlənir» deyən vaxtıdır.

- Cahangir, elə bilirdim birnəfəsə «dı-dı-dı-dı»yla danışan təkcə mənəm, heç dil qəfəsə qoymursan, bir ara ver də! Bu yaxınlarda bir lətifə eşitmişəm. Səni canın, icazə ver, deyim, sonrasını fikirləşərik.

- Yaxşı, yaxşı, bilirəm, ciblərini dik saxlayan sənin bu lətifələrindi. Yağdır gəlsin.

- Bir gün iki nəfər yol yoldaşı olur. Başqa-başqa rayondan gəliblərmiş. Hal-əhval tutmaq üçün birisi o birisindən soruşur: «Yerinizin havası necədi? – Narahatlığımız yoxdu, tez-tez yağış olur, sərinlikdi. Bəs sizdə havalar necədi?

– Eh, qardaş, bizdə belədi: gərək tez-tez yağa, gün çıxa, yağa – gün çıxa, yağa – gün çıxa, yağa – gün çıxa…

- Ədə, bir ara ver, nəfəsin qaraldı axı? – Qardaş, ara versəm, quraqlıq evimizi yıxar, incimə», - deyir.

Cahangir üzümə baxdı, bərkdən-bərkdən əllərini bir-birinə çırpıb uğundu.

- Ay Fazil, sənin bu lətifən lap yerinə düşdü. – Qarnımızı tutub ürəkdən gülüşdük, dizimizi qatlayıb oturduq çayırlığın üstündə. - Hə, indi sakitcə oturub bir az söhbətləşə bilərik. De görüm, kimi gözləyirdin, nə düşünürdün?

- Düzünü desəm, bir yerdə qaxılıb qalmaqdan zəhləm gedir. Nə qədər lazımlı-lazımsız şeyləri düşünmək olar? Heç olmasa, hərdən təbiətlə baş-başa qalmaq, quşların cikkiltisinə, yarpaqların titrəməsinə, böcəklərin səsinə, küləkdən, günəşdən güc alan yaşıl otların gözəlliyinə tamaşa etmək ömrə-günə qüvvət gətirər. Əndişələrdən qurtulmaq yollarını yalnız təbiət qoynunda duymaq olar.

- Bura bax, yoldaş filosof, dediklərin doğrudu, bəyənilsin, amma acqarına çəmənlikdə oturmaqdan bir şey qazanmaq olmaz. Ağlıma fikir gəlib, gəlsənə Həmidi, Şirini, Topçunu səsləyək, yavanlıq düzəldək, gedək Quzey kəhrizin üstünə… Yox, yox. Otay bağın başındakı dağdağan şəllərinin altında qəşəng süfrə açaq, adama cöh verər, yadımızdan çıxmaz.

- Əla fikirdi, amma süfrənin içindəkilər gözə dəymir, axı.

- Bu işi burax ləläşinin ixtiyarına. Bu haqda götür-qoy eləmişəm, narahat olma. Qaqaşının çinədənliyi dolu olmasa, xoruz kimi quqquldamaz, unutmusan? Səhər tezdən bütün tədarükü tutub çıxmışam gəzintiyə ki, sənin kimi hazıra-nazir dostları tapıb bir araya gətirim.

- Bu nədi, ə, qaşıqla verməmiş çömçəylə burnumuza niyə vurursan? Unutma ha… Biz də kölgədə gəzib gündə dolananlardan deyilik. Borclu-borclunun sağlığın istər, haydı iş başına. Sən get ayın-oyunu götür, mən də uşaqları səsləyim. Fikrini bəyənməyənə lənət!

...Xudmani süfrə açmışdıq çəmənlikdə, bardaşqurma oturmuşduq. Başımızın üstünü almış dağdağan şəlinin qanadlarından sallanan qarağartı, kavra salxımlarının gilələrinə sığal çəkən Dədə günəşin şəfəqləri adamın gözünü qamaşdırırdı. Yalançı bülbülün cikkiltisi, sarı otun, pişikquyruğunun ciyərimizi dolduran nəm təravəti bihuşluq yaradırdı. Soyutma, qızartma çolpaları qol-bud eləyirdik ki, dəhrəsini kəmərinin arxasına taxmış qoruqçu Bayraməli kişinin bizə yaxınlaşdığını gördük. Ayağa qalxıb süfrənin başında yer göstərdik.

- Bağı qorumaq, becərməkdə mən, üzüm şəlinin kölgəsində məsdixumar məclis açan siz? Ay keçdi ha… belə olmaz, bacı uşaqları.

- Bayraməli dayı, gördün yemək, daha nə demək! Süfrəmizdəkilərdə kimin qisməti varsa, buyursun. Gözümüz üstə yeri var.

- Gop eləmə, bala, gözünüzün üstə bir alma yerləşmədiyi halda, mən necə əyləşərəm. Deyəndə elə deyin ki, inanılası olsun. Bilmirsiniz ki, hər sözə şunduruq qoşmağı sevirəm? Ay qırışmallar, nə qəşəng yer seçminiz, əhsən «vkusunuza». Kimdi sinifkomunuz?

Dostumuz Şirin ayağa duranda bərkdən gülüşdük. Bilirdik ki, Bayraməli kişi çox zarafatcıldı. Danışdığı (özü demiş) yalanları da elə ciddi deyərdi ki, lap inanırdıq. Qədəhləri süzüb üzümüzü ona tərəf tutanda Topçu dilləndi:

- Bayraməli kirvə, sizin sağlığınıza içək, sağ olaq!

- Yox, oğlum, içək, sağlam olaq. Kimdi dünyanı tutub qalan? Biz gedəsiyik, dünya qalasıdı. Onu qorumaq üçün yaranmışıq haa…

Ağsaqqal ilk qədəhlərdən sağollaşıb aralandı. Xeyli deyibgüldük…

- Daha bəsdi, gedək. Qab-qaşığı Fazilə tapşıraq, axı o, sinif üçlüyünün təmizkomudu. – Gülüşdük.

- Düz sözə nə deyəsən? – deyib bağlamanı atdım çiynimə. Baş kəhrizə çatanda nobatçı o yan-bu yana qaçıb mələşən quzuları, ala-bula çəpişləri kəndin ortasına doğru qovalayırdı. Əllərində koğa tutmuş qocalar uşaqların üstünə hayqırır, heyvanları bərəyələrə tərəf sıxışdırırdılar. Dolu sənəyi çiyninə atıb yamaca doğru dırmaşan Nazənin xala tələsirdi ki, naxırdan gələn heyvanlar balalarını əmişdirər, yoxsa saxsı nehrə qatıqsız, əri Nuruş isə şor-şoqqalsız qalar. Birdən kəndin göbəyində yaşayan Bəhlulun haray-həşiri ətrafa yayıldı.

- Gorbagorun qızı, adama neçə dəfə deyərlər: ağılın qapalağını əməlli bağla. Davarlar həyətə dolub, balalarını əmişdirib, taxıl dolu meşoqları cırıb o ki var özlərini tutublar, düşüblər çaxna-vaxnaya! Qulaqlarını cırsam da, köməyi olmayacaq. Harda batmısan?

- Ağzını təmiz saxla, gorbagorun qızı anan Bilqeyisdi. Səhər açılandan gah yun darayır, paltar yuyur, gah da xəmir yoğurur ki, sənə təndir çörəyi bişirsin. Körpəni götürüb qonşuya getmişdim, telefonla anamdan xəbər tutmağa. Üç gündü səsi-sorağı gəlmir.

- Mürtədin qızı, ananın yanında üç böyük qırılmışı var, harda batıblar ki, qayğısını sən çəkirsən?

- Qarğışın ağzından çıxıb, qulağına girsin. Nə çoxdu ölməli-lərin! Sənin qulun deyiləm, xoşun gəlmirdisə, niyə mənimlə evlə-nirdin?

Hirsindən əl-ayağı əsən Bəhlul yaşca ondan kiçik arvadına yaxınlaşırdı ki, Tahirə var gücüylə qışqırdı:

- Ay camaat, köməyə gəlin, Bəhlul qudurub, məni öldürəcək!

- Vay səni mənə ürcah eliyənin yeddi arxa dönəninə lənət! Anan Pərvanə heç ocağımın başından əl çəkirdi? Səni hey təriflə-yir, görkəminə yüz sığal vururdu. Ağlımı başımdan aldı, başıma bə-la gətirdi!..

Hər dəfə səs-küyə toplaşan qonum-qonşular Bəhlulu dil-tova tutur, Tahirəni qınayır, yazıq Bilqeyis xalanın göz yaşlarını silir, tox-taqlıq verirdilər. Ancaq Tahirə dediyindən dönmürdü. Günahlarını ört-basdır edir, Bəhlulu da, qaynanası Bilqeyisi də borclu çıxarırdı.

Tahirənin Bəhluldan üç uşağı vardı. Uşaqlar Bilqeyis arvadın kürəyində böyüyürdü: oğluna yazığı gəlirdi. Tahirənin qarayaxma-larını oğluna deməkdən çəkinirdi. «Ağacın biri gücsüz olsa, biri güclü olar, balamı ilişdirərlər, balaları qalar yaman günə». Bəzən oğlunu tovlaşdırıb sakitləşdirməyə çalışardı: «Özü yıxılan ağlamaz, cavandı, qanan vaxtı olacaq, başa düşəcək, ağıllanacaq, sözünü qaytarmayacaq. Çəkişməsən bərkişməzsən. O, səndən kiçikdi ey».

Bəhlul papirosu papiorsa çalayar, götür-qoy edər, alnını ovuş-durar, boynunu qaşıya-qaşıya evdən aralanardı. Bilmirdi ki, dolaşıq düşmüş kələfin ucunu necə tapsın. «Bu nə işdi, mən düşdüm, el içində olmuşam rüsvay, söz-söhbət yeri. Niyə uduzdum, yalvaranı qoyub yalvardığımı evimə saldım. Təhər-tövür edirəm, yalvarıram, hədələyirəm, ayaqalarını döyür yerə. Ağzına vururam – qan çıxır. Anasını da eşitmir. Cəhənnəm onun modabazlığı, açıq-saçıq geyi-mi, göz-qaş oynadıb yanından keçənlərə söz atır. Mən başı küllü başımı götürüb qaçsam, anamın günü necə olar? Düşmüşəm oda-alova, tüstüm təpəmdən çıxır. İstədim anama kömək olsun, demə-dim ki, «Tanrı mənəm, yağmaram!» desin bu ləçərin balası. Gözüm niyə kor, qulağım kar oldu? Niyə «qırağına bax – bezin al, anasına

bax – qızın» deyiminin mənasını vaxtında anlamadım? Bəxtimə çıxan «noxtamdan» yapışıb istədiyi kimi fırladır».

Bəhlul qalmışdı odla-suyun arasında. Yuxarı baxır – bığdı, aşağı baxır – saqqaldı. Düşüb qəm dəryasına, hara üzdüyünü bilmir. Qaş qaralan kimi mal-davarını yerbəyer edən Bəhlul şam yeməyindən imtina elədi. Paltarını soyunmadan keçdi yataq otağına. Gözlərinə yuxu gəlmədi. Gecədən xeyli keçmişdi ki, Tahirə uşaqları qaynanasının öhdəsində qoyub suya düşmüş it kimi sivişə-sivişə Bəhlulun çarpayısına dürtülməyə çalışdı. Necə gün idi ki, Bəhlul ona tərəf gözünün ucuyla da baxmırdı. Şəlpə üstə bürüşmüş pişik kimi qalmışdı Tahirə. Bəhlul çox susdu. Tahirə şıqqıltı elədi, yalmandı, içini çəkdi, amma bu dəfə ərini yola gətirə bilmədi. Yataq paltarında büzüşmüşdü döşəyin ortasında, həmişəki kimi. Bununla guya üzr istəyirdi: daha ərinin, qaynanasının, qonum-qonşunun dediklərinə qulaq asacaq, qudurmuş it kimi ona-buna çəmkirməyəcək. Ağıllanıb, səhvini başa düşüb, normal ev gəlini olacaq. Belə domuşmaların çox şahidi olmuşdu Bəhlul. Tahirənin roldan-rola girdiyini çox görmüşdü. Nə qədər tövbə elətdirmişdi, amma sabahısı gün yenə həmin su, həmin dibək, həmin səhnə, həmin dekorasiya təkrarlanırdı. Bəhlul da bilirdi: «Tövbə – tövbə, adətkara nə tövbə». Dur donuzu vur ki, darıdan çıxsın görüm.

- Tahirə, bugünkü şəbehin mənim hövsələmi tamam tükəndirdi. Daha dözə bilmirəm, getməyə yol yoxdu: düşmüşəm bataqlığa, boğuluram…

- Neyləyirəm ey.. sizə? Ütüdü də, yadımdan çıxıb toka qoşulu qalıb, bir-iki soyxa yanıb. Zəhrimar televizor başımı qarışdırıb, də!..

- Səni bu evə gətirəndə anama köməkçi olacağını düşünürdüm, gününü qara edəcəyini yox. Gün doğandan batana kimi ailənin bütün qarqaşasını əlləri əsə-əsə çəkir, yır-yığış edir, sənsə gərnəşə-gərnəşə yorğan təpikləyirsən. Qoca anamı özünə nökər eləmisən. Axı biz belə danışmamışdıq birinci gecə. Ağzını açıb bir kəlmə deyəndə ley sərçəni caynağına ilişdirən kimi alırsan arvadın üstünü. Ortada yeyib kənarda gəzirsən. Belə olmaz, Tahirə! Qonşular da sənnən dadi-dil edirlər, «üzünü gor görsün» deyirlər.

- Qələt edirlər, öz sözlərini danışsınlar, özgəsinə ağıl verməsinlər!

- Gəl belə razılaşaq: səhərdən etibarən necə gəlmisən, eləcə də get ananın xarabasına, məni qana salma, daha bəsdi.

- Xaraba sənin ananın evi olsun! Mən ölsəm də, heç yana getməyəcəm! Lazımsa, ananı evdən arala. Necə bilirəm, eləcə də yaşayıram. Süpürgə deyiləm, qoyduğunuz yerdə qaxılıb qalam. Kinoya da gedəcəyəm, konsertə də. Gəlməmişəm sil-süpür, biş-düşlə günümü çürüdəm. Kefim belə istəyir, vəssalam! Ağını yeyəcəm, qarasını atacam. Toyuğa kişdən, qazana bişdən zəhləm gedir. Zəhmət çəksin, bütün ev işlərini özü eləsin, mənə dəxli yoxdu.

- Bəs sənin işin nə olmalıdı, Tahirə, anam tamam əldən düşüb axı?

- Mənim?.. - Tərs-tərs Bəhlulun üzünə baxıb hırıldadı. Bəhlulu elə bil ilan çaldı, tütüsü təpəsindən çıxdı. «Mindi cin atına», çilovunu buraxdı, gücü gəldikcə şallaqladı.

- Ağəz, köpək qızı, bu lap ağ oldu! Sən mənim başıma çıxdığın bəs deyil, oturduğun yerdən üzü aşağı şır-şır i..! Qalx ayağa, ləçərin balası! Daha bu xına o xınadan deyil! Həvəsdi bəsdi! Həkim dərman deməyib ki! Əzrail də belə can almaz, yəqin!

Bəhlul yapışdı Tahirənin saçlarından, çalışdı ki, sürütləsin bayıra. Vəziyyətin belə olacağını gözləməyən Tahirə yapışdı Bəhlulun ayaqlarından, başladı qışqıra-qışqıra öpməyə, yalvarmağa.

- Axırıncı dəfə olsun, qələt eləmişəm zatbazatımla, innən belə dilimi ağzımdan çıxarmayacağam! Öldür məni, amma bayıra atma!..

Bəhlul gücü gəldikcə bir neçə dəfə şappıldatdı Tahirənin açıq əndamına. Balalarının Bilqeyisin yaxasından yapışıb vaynövsə qopardığını görəndə Bəhlul təpiyilə Tahirəni kənara tullayıb öz başına döyəcləyə-döyəcləyə çırpıldı qapıya. Zərbəyə dözməyən qapı taybatay açıldı. Bəhlil söykəndi qaratikandan çəkdiyi çəpərə, hönkür-hönkür ağladı. Cavanlıqda qoşduğu bir bayatı yadına düşdü.

Sandım düzə çıxmışam,  
Çıxdığım yamac oldu.  
İstədim cığır tapım,  
Tapdığım qaxac oldu.

Qarmaq atdım balığa,
Tutduğum ağac oldu.
Cəhd elədim udqunam,
Udduğum tıxac oldu.

Toy çaldılar oynadım,
Bulaq kimi qaynadım.
Sevincim çox çəkmədi,
Qurudum ağac oldum.

Papirosu sümürə-sümürə canına qəsd eləyirdi ki, bəlkə köməyi olar, əvəzində çeçədi, öskürdü, gözləri yaşardı, başı gicəlləndi, kökdən qopmuş ağac kimi sərildi yerə. Gücünü toplayıb yerindən qalxdı.

- Bu nə işdi, ana! – deyib vəhşi kimi bağırdı. Arxaya baxanda gecənin qaranlığında qonşularının sanki işıldayan gözlərini, təlaş dolu üzlərini gördü. Hamının hörmətlə salam verdiyi, oxumamış həkimlik edən ağsaqqal Dadaş kişini görəndə oğurluqda yaxalanmış kimi qaldı baxa-baxa.

- Lənət şeytana, ay oğul, heç kəs istəməz ki, sənin ailən dağılsın. «Tikənə rəhmət, sökənə lənət» deyib atalar. Bu işin bircə əcalı varsa, o da ağsaçlı anan Bilqeyisin dediyidi. Onun xatirinə məsləhətlərinə əməl etməlisən. Öləndən sonra da onun ruhu sənin başının üstündə qanadlarını gərəcək, xilaskarın olacaq, inan mənə.

Bəhlul atasını qucaqlayırmış kimi başını sıxdı Dadaş kişinin sinəsinə, o ki var ağladı, ürəyini boşaltdı. Aralananda anasının yerə sərilmiş yaylığını gördü. Əyilib yaylığı götürdü, ağlaya-ağlaya həyətdən uzaqlaşdı.

- İndi heç kəs onu qaytara bilməz, anasından başqa. – Dadaş kişi təəssüflə dilləndi. Axı o, Bilqeyisin ilqar qardaşı idi…

***P.S. Bu əhvalatı mənə bayaqdan soyuyub buza dönmüş stəkandakı çaydan bir qurtum belə içməyən ağsaqqal kişi danışdı.***

***- Bacı oğlu, gəl çayının pulunu al, mən gedirəm. Sağlıqla qalın, - dedi.***

***Bilqeyisin çayxanasından uzaqlaşanda qaranlıq çuxasını sürütləyə-sürütləyə yaxınlaşırdı.***

*17-19.01.2008.*

# GÜNBATANA BAXAN QƏBİR

*(«Közərən kösöv»ün davamı)*

- Salam-əleyküm, ay cavan oğlan.

- Əleyküm-salam, mənə görə qulluğunuz?

- Qul sahibi olasan, inşallah. Bir diləyim var. Biz tərəflərdə belə bir deyim vardı (bəri başdan xahiş edirəm ki, xətrinə dəyməsin).

- Buyurun, ağsaqqal, çalışaram, eşidirəm.

- Deyir, xalamdan bir diləyim var, düzəlsə də, düzəlməsə də xalamdı. Dedim, bəlkə yolunuz bizlərə sarı olar. Məni də yol yoldaşı edərsənmi? Kasıblığın üzü qara olsun. «Varın verən utanmaz» deyiblər. Verəcəyim yol haqqı çox azdı, bilirəm. Gücüm bir beşliyə çatır.

- Ay əmi, səndən heç qəpik də almayacağam, nə tez təmənnadan söhbət salırsan?

- Nə bilim, bacı oğlu, indi çox şey pulla ölçülür. Zəmanə dəyişib, axırımız necə olacaq, bilmirəm. Xuda köməyimiz olsun.

- Ağsaqqal, yolum Horadiz stansiyasına doğrudu. Dostumu gözləyirəm, qoy o da gəlsin gedərik. Çiynindəkiləri qoy yerə, dincili al, tələsmirsən?

- Oğlum, insan ömirü boyu yol gedir ki, ölümlə görüşsün.

- Niyə belə deyirsən, dayı, bir az soyuqqanlı olmaq lazımdı. Deyəsən, nikbin xasiyyətli deyilsən, bəlkə belə olmaq yaxşı deyil?

- Nə deyim, bacı oğlu, sözüm xətrinə dəydisə, bağışla qoca yolçunu.

- Qocaların qəlbinə dəymək Allaha da xoş getməz deyib aqillər. Əl tutmaq savab işdi. Dünyada ancaq yaxşılıq dillər əzbəri olur. Pislikdən qaç ki, işin avand olsun.

- Düz deyirsən, qardaş oğlu. «Pis» sözünün özü də pis səslənir. Papiros çəkmirsən ki?

- Xeyir, çəkən deyiləm, amma maşının sandıqçasında kibrit də, papiros da saxlayıram. Ehtiyacı olanlar üçün. Lazımdırsa, gətirim?

- Tanrı sənə yar olsun, bala.

- Bu saat, al, götür, tüstülət. Bax, dostum da gəldi. Buyur, yerini rahatla.

- Aha, deyəsən, sərnişin də tapmısan, Mirbala, nə yaxşı oldu.

- Doğru deyirsən, bala, yoldaşlı olanda yol getməkdən darıxmırsan. Qamçıla kəhərini, yolumuz uzun, vaxtımız azdı, axşama düşməyək.

Qonur rəngli «Pobeda» at fınxırtısı kimi səsləndi, arxasınca uzanan qara tüstüdən canını qurtarmaq üçün cumdu yolun ağına.

«Yollar uzun, zaman qısa, söhbət şirin, ya acı,
Kəhərimiz zarıyaraq iməkləyir yamacı.
Göydə günəş yoxa çıxır, gəlir gecənin tacı.
Sərin hava üzür məni, susdurur».

Haçansa özü qoşduğu sözləri özü də pıçıldayırdı yolçu.

Uzanan sonsuz yollara baxdıqca Balacanın üzü tündləşir, papirosu bir-bir külə döndərirdi. Hərdən köksünü ötürür, qocalmış, əldən düşmüş qartal kimi yerindəcə vurnuxurdu, çabalayırdı. Bir zamanlar sevə-sevə oxuduğu şeir parçasını yenidən təkrarlayırdı:

Dəli könlüm, nə gəzirsən biyabanda,
Bağ-bağçalar səni görüb yox olub.
Kimlər gəzir sən tikdiyin eyvanda,
Sən əkdiyin gül-çiçəklər yox olub.

- Haralısan, ay əmi, niyə belə qəmginsən? Hara gedirsən?

- Heç özüm də bilmirəm, bacı oğlu, yolum hara gedir. Düşmüşəm eldən-obadan aralı, gedirəm. Harda ipim üzülsə, orda da qalacağam. Heç kimin bəxti qarğışa tuş gəlməsin.

- Niyə belə danışırsan, qohumun, övladın varmı, hara üz tutmusan?

- Sizi qəmləndirmək istəmirəm, ağrın alım. Bir vaxtlar mənim də sözlərini sevdiyim şair elə bil mənimçün deyib: «Məni candan usandırdı, cəfadan yar usanmazmı, fələklər yandı ahımdan, muradım şəmi yanmazmı?!»

- Ağsaqqal, elə sizlər demisiniz ki, dünya beşgünlükdü, beşi də oyuncaq: kimi əkir, becərir, kimlərsə ləzzətlə yeyir, içir, kefini sürür, fərqinə varmadan. «Dünya mənim, dünya sənin, dünya heç kimin». Bunu anlamayanların əxlaqı «Toy-bayramdı bu dünyanın əzabı, əqli olan ona gətirər tabı» məntiqinə söykənib. Nəyinə lazım bəzilərinin. «Millət necə tarac olur, olsun». «Ver yeyim, ört yatım, gözlə, canım çıxmasın», - deyir, donuz kimi eşir palıdın kökünü, qozasını axtarır. Başını yuxarı qaldırmır ki, gözlərini günəş qamaşdırar. Görəsən, belə düşüncə başqa xalqlarda da varmı?

- Eh, ay oğul, bu xəstəlik bütün xalqların qanını zəli kimi sorur. Belə olmasaydı, dünya çoxdan düzələrdi, hər kəs özü əkib-becərərdi, qurub yaradardı. Hərislik, tamah insanları məhvə aparır. Bəlkə də, əsl yaşamaq tərzini heyvanlardan, quşlardan öyrənməliyik. Fikir verin: qeyri-canlıların cinayət məcəlləsi, konstitusiyası, əsgəri, topu, tüfəngi, şəhəri, məktəbi, nəqliyyat vasitəsi, əkib-becərmə bacarığı yoxdu. Amma onlar yaşayır, çoxalır, yaşamaq üçün mübarizə edirlər. Həddi-buluğa çatmayan quşlar, heyvanlar bir-biriylə «ailə-nigah» qurmurlar. Bəs insanlar necə, nə qədər əcaib hərəkətlər olur! İcad etdikləri bütün tərəqqi vasitələri elə onların özlərinin məhvinə gətirmirmi? Yer üzü onlara bəs eləmir, göylərə, başqa aləmlərə də can atır, hərisləşirlər. Heyvanlar, quşlar belə etməz, inanın! Ən vəhşi, acgöz canlı elə biz insanlarıq, bala.

- Bəzi şeylərdə sizinlə razılaşmaq olar, əmi. Ancaq kimliyinizi bilmək, məncə, maraqlı olardı. Bəlkə, siz başqa dünyadan gəlmisiniz? Sizin kimi düşünən, yəqin ki, az adam tapılar.

- Təəssüf ki, haqlısan. Məni çarmıxa çəksələr də, belə düşünürəm. Mən də sizlərdən biriyəm, amma «Məndə sığar iki cahan, mən bu cahana sığmazam» deyənlə şərikəm.

- Ay dayı, özünüz haqda bu qədər bədbin danışmağınız xoşuma gəlmir. «Palaza bürün, elnən sürün!» demisiniz axı.

- Kim belə düşünübsə, mən ona qəbir də qazmazdım: qoy vücudunu qarğa -quzğunlar didsin, ay oğul.

Bayaqdan bu iki nəfərin söhbətinə qarışmayan Mirbala dözmədi:

- Yolçu dayı, çoxlu kitab oxumuşam, sizin kimi danışanlara heç onlarda da rast gəlməmişəm. Deyəsən, siz səyyahlıq edən dərvişsiniz. İrəlidə, yolun kənarında ətrafı çəpərlənmiş tənha qəbir var, yanından bulaq axır. Dayanıb bir az su içsək, pis olmaz ki?

- Boynum qıldır, qıldan da nazik. Yolda düşürsəniz də deyiləsi sözüm yoxdu. Maşın sizin, yol Tanrının, mən də onun qulu. Suya gəlincə, məsləhətli don gen olar, deyiblər…

- Bu da doğrudur ki, bəzən ölçülüb razılaşdırılmayan məsələ adamın ömrünə zəhər qatır, edir bədbəxt, bax elə bu qəbirdəki kimi.

- Bu rəhmətliyi tanıyırsanmı, oğul?

Mirbala sualdan diksindi, tutuldu, susdu. Üzünü ucsuz-bucaqsız düzün ortasındakı evlərə, damları ağlı-qaralı şiferlə örtülmüş kəndin lap girəcəyindəki heyrətamiz görkəmi olan evə tutdu və təəssüf dolu baxışlarla dilləndi:

- Bəli, tanıyırdım, bu mənim nənəm idi. Çoxları onun niyə məhz belə vəsiyyət etdiyindən hələ də baş çıxara bilmir. Babam onu hədsiz sevdiyindən arzusundan qaça bilmədi ki, el qınağına tuş gələr. Nənəm deyib-gülməyə həvəssiz qadın idi, acıqlanmaz, başını qaldırıb kiminsə üzünə baxmazdı. Ən yaşlı adamlar belə onunla qarşılaşanda həddən artıq nəzakətli olmağa çalışardı. Sözünü kəsən, məsləhətindən çəkinən olmazdı. İnsanlar onu göylərdən enmiş huri kimi qarşılayardı. Özü barədə heç vaxt bir kəlmə də deməzdi. Babam çox çalışıb ki, onun hansı rayondan olduğunu öyrənsin, nəticəsi olmayıb. Bircə onu bilirik ki, onlar Leninqradda tanış olublar, çox faciəli vəziyyətdə…

Vasifin atası dəfələrlə Leninqrada gəlir, oğlunu tutduğu yoldan çəkinməyə çalışsa da, heç nə alınmırdı. Vəziyyətin ciddiliyini anlayan ata burdakı tanış-bilişlərə üz tutar, onları ələ almağa çalışar, faydası olmazdı. Əlac qalmışdı ya oğlunu Bakıya qaytarsın, ruhi xəstəxanada müalicə etdirsin, ya da… Yox, bu da mümkün deyildi: onu tanıyanların yanında diligödək olacaqdı. Fərzəlibəylinin öz oğluna gücü çatmırsa, pis əməllərdən çəkindirə bilmirsə, sovet hüquq mühafizəçisi sistemində onun qalması mümkün deyil. Gözü önündə oğlu Münufənin dərdindən canlı meyitə dönürdü. Yay imtahan sessiyasına az qalmışdı. Fərzəlibəylilər vəziyyətdən çıxış

yolunu Münufəni Vasifə ərə getməyə məcbur etməkdə gördülər: bəlkə bir köməyi oldu. Bu işə Münufəni razı salmaq üçün Fərzəlibəylilər dəridən-qabıqdan çıxırdılar. Raykomda işləyən atası, əmisi, dayıları, xalası, bibisi Münufəni hey dilə tutur, amma inadından döndərə bilmirdilər.

- Mən təhsilimi qurtarmamış, arzuma çatmamış, ərə getməyəcəm. Öldü var, döndü yoxdu. Vasifi qəbir də düzəldə bilməz, çünki o, iradəsizdi. Bunun günahkarı özünüzsünüz. O heç vaxt zəhməti tanımayıb, məktəbi də o yox, siz başa vurmusunuz – tapşırıqlarla, pulla. Məni yolumdan çəkinməyə məcbur etməyin, axırı faciəylə bitəcək, - demişdi.

Bütün hədə-qorxu, dil-tov Münufəni razılığa gətirmirdi. Elə bil sözləri, öyüd-nəsihətləri eşidən qulaqları batmışdı, gözləri gördüyündən qorxurdu. Son çıxış yolunu axtarırdı. Axı onun bir eşqi, bir arzusu, niyyəti vardı: Balacanı xar etməmək. Ruhuna hakim kəsilmişdi dul qadın, çoxlarına səcdəgah ola biləcək Zəri xala, onun oğlu Balaca. Qələbəni bayram etdikləri gecə əhd-peyman etmişdilər Münufə ilə Balaca, titrək nəfəsləri, hürkək baxışları, ürək çırpıntılarıyla. «Niyyətimiz hasil olaydı kaş!» - pıçıldamışdılar qoca çinarın qanadları altında…

Özünü sərgərdan dərviş kimi aparan qoca yolçu günbatana baxan bu tənha qəbir önündə qalmışdı lal, kar, gözləri kor kimi. Nə edəcəyini bilmirdi: tənha qəbrin içində uyuyanın ruhuna dua oxusun, salavat çevirsin, kimliyini bildirsinmi? «Nəyə lazım kimlərinsə qəlbinə toxunmaq: olan olub, innən belə nə dəyişəcək axı. Onsuz da Münufənin itkin düşməsinin səbəbi çoxlarına bəllidi».

Mirbalanın dedikləri qoca səyyahı hərbi xəstəxanadakı uğursuz görüş dəqiqələrinə qaytardı. Ağlaya-ağlaya Balacanı tərk etmiş, onu ömürlük itirmiş Münufənin başına nələr gəldiyini indi anlamağa başlayırdı. «Xar vurulub, xırman sovrulub». Əl-qolu boşalmış Balaca oturmuşdu qəbrin ayağında, papirosunu tüstülədirdi, məktəb illərində əzbərlədiyi bir şeri mızıldana-mızıldana təkrarlayırdı.

Açılan çiçəklər barsız olmasın,
Bağçalar heyvasız, narsız olmasın,
Ərənlər sevilsin, yarsız olmasın,
Bu dünya necə də qərəzli imiş?!

Bağlanmış qapılar açılmayırsa,
Ovçunun əlindən qaçılmayırsa,
Torpağa bir toxum sancılmayırsa,
Bu dünya necə də qərəzli imiş…

- Səyyah əmi, bu rəhmətliyin ruhuna salavat çəkib getməliyik. Biz o düzəngahlıqda görünən kənddə yaşayırıq. Gedəcəyin obaya qədər səni apara bilərik, ya da buyurub qonağımız olun. Gözümüz üstə yeriniz var, müəmmalı adama oxşayırsınız.

- Yox, bala, gedəcəyim obanın bəndi-bərəsi xeyli vaxtdı kəsilib. O yerlərə əlim çatmır. Yolunuzdan qalmayın, lütfkarlığınıza görə minnətdaram. Mənimki bura qədər imiş. Ömrünüz uzun, gününüz xoş olsun, sabahınız xeyirə açılsın, xudahafiz.

- Axı belə olmaz, ay dayı, axşamın bu çağında hara gedəcəksən, sözümüzü yerə salma, - Mirbala dilləndi.

- Allah amanında olasınız, mənnən narahat olmayın, mənim yolum .., - köksünü ötürdü və yol torbasını çiyninə salıb uzaqlaşdı.

Yolçunun davranışı Mirbalanı narahat etsə də, naəlac qalıb kəndə – evlərinə yollandı.

Nəvəsindən nigaran qalmış babası Mirbalanı görən kimi onu qabaqladı.

- Niyə belə üzüntülüsən, gözümün işığı, gecikdiyindən bərk narahat oldum.

Mirbala onlara yoldaş olmuş müəmmalı yolçu haqqında elə durduqları yerdə babasına danışdı. Birdən babasının dodaqlarının titrədiyini, əllərinin əsdiyini hiss etdi.

- Baba, babam mənim, nə oldu, niyə dodaqların titrəyir, danışdığımın sənə dəxli varmı? Bəlkə o adam elə axtardığındı?!

- Var, oğlum, var, qaytar köhlənini, çatdır məni o adama, yəqin bu elə odu.

Mirbala maşına elə təpindi ki, yerindəcə eşildi, torpağı göyə sovurdu, nərildədi, sanki nağıl qəhrəmanları kimi qılıncını çəkib, gecənin qaranlığını parçalamağa çalışdı. Yolun kələ-kötürlüyündən ehtiyatlanmadan maşını nənəsinin qəbrinə doğru səyirtdi, hərdən də o yan-bu yana sapırdır, qaranlıqda kimisə tapacağına inanırdı.

Qəbrin həndəvərində bir neçə dəfə dövrə vurdu, siqnalını nərildətdi, «səyyah dayı!» deyə bağırdı, kor-peşiman, gecənin qaranlığında gözləri vəhşi heyvanınkı kimi parıldayan babasını evlərinə qaytardı.

Gecə uzun, ay gizlənmiş olsa da, ilan vuran yatdı, babasının acı söhbətindən Mirbala yata bilmədi. Babasının «vərəqlədiyi» tale gündəliyindən Mirbala nələrdən xəbərdar olmadı. Sən demə babası da bir zamanlar Münufənin oxuduğu tibb universitetində təhsil alırmış. Uzaqdan-uzağa Münufəni izləyər, ona qarşı özündə alovlu məhəbbət hissləri yaşadarmış. Cəsarətsizlikdən ürəyini ona açmayıb. Balacanın çarpayısı başında Münufənin hönkürtüsünün şahidi olub, ona yanaşmaqdan qorxub. Şaxtalı külək adamın iliyinə işləyəndə özünü Nevanın körpüsündən atan Münufənin dalğalarla çarpışdığını görən Səxavət dözmür: «Gecikmək ölümə bərabərdi!» deyib suya tullanır. Milis şöbəsində Münufəni tanıdığını boynuna almır. Üstündə heç bir şəxsiyyət sənədi tapılmayan qızı şəhər kliniki xəstəxanın reanimasiya şöbəsinə götürüblər. Nitqini itirmiş Münufə xeyli müddət özü haqda məlumat verməkdən, kimsə ilə görüşməkdən imtina edir. Vəziyyəti nisbətən yaxşılaşanda yalnız çarpayısı başında gördüyü Səxavətin ona zillənmiş yalvarıcı baxışlarına gülümsündü. Məhz bundan sonra «xilaskarının» inandırıcı təsəlliləri zərif gül dəstəsinin ətrinə qarışdı. Xəstəxanadan buraxılanda Münufənin adı, soyadı tamamilə başqasıyla əvəz olundu. Onu lal Səkinə deyə çağırdılar. Səxavətdən başqa onu tanıyan olmadı: üzü solğun, yanaqları qırışmış, pərişan saçları ağarmışdı, təkcə Səxavətlə «danışardı».

- Sənin keçmişin, haralı olduğun məni narahat etməyəcək, kimliyin ömürlük sirr olaraq qəlbimdə qalacaq. Mənə etibarına xələl gətirməyəcəm. Bütün arzularına əməl edəcəyimə İlahi qüvvə – «Qurani-Kərimə» and içirəm!» - demişdi.

- Ölənə kimi? – soruşmuşdu Səkinə.

- Ölənə kimi! – demişdi Səxavət. Hər ikisinin gözlərindən axan duzlu damcılar yanaqlarını yandırmış, qismətlərilə barışmışdılar. Həkimlik arzusu ürəyində qalan Səkinə əllərini qaldırıb taleyinə təslim oldu, dünyaya gətirdiyi yeganə övladından Mirbala adlı yeganə nəvəsi qaldı. Bütün bunlardan Balacanın xəbəri yox idi. Onun özünün başına gələnlərdən isə Münufə kənddən gəlmiş əmi-

si qızı Gülnisədən eşitmişdi. Hərbi hospitalda müalicə alan Balacanın yarası tibb bacısı Qarinanın vurduğu sakitləşdirici iynədən sonra müəmmalı halda çox ağırlaşdı. Həkimlərin ciddi-cəhdlərinə baxmayaraq sağ ayağında yaranmış qaralmadan (buna «qanqrena» deyirdilər) dizindən aşağısını itirmiş Balaca qardaşı Rahilin yanına qayıtdı. (Rahil üzərində gecə-gündüz əlləşdiyi dissertasiyanı müdafiə etmişdi, saçlarına ağbirçəklik qarı yağmış anasını sevindirmişdi. Bütün gecə ana-bala dərdləşdi, yuxunu yaxına buraxmadılar. Biçarə ana kəndin bütün qızlarının adını fəndgirliklə çəkdi ki, bəlkə Rahili yola gətirsin, fayda vermədi. Rahil Balacanın məsləhətini gözləyirdi: qardaşların bir-birinə «can» deyib «can» eşitməsinə hamı «əhsən» deyirdi. Rahil çox istəyirdi ki, Balacanın da Zərifədən xoşu gəlsin. Bunu Rahildən aldığı məktublardan Balaca da duymuşdu…)

Bakının Sabunçu vağzalında Balacanı qoltuq ağacıyla görən Rahilin qışqırtısına gələn milislər onları güclə sakitləşdirə bildi.

Tanrı insanlara dərd qismət etməsə, yaxşını pisdən ayırmaq çətin olar, həyat maraq yaratmaz…

Saçlarını başının, yanaqlarının qanına boyamış ana fəryadının şahidi olmusanmı, hörmətli oxucu? Kaş belə şəbehi görməyəsən! Bala çıxarmaq üçün yuvadakı yumurtaların üstündə çöməlmiş quşlar da Zəri xalanın naləsindən diksindi, kəndin üzərində narahatlıqla dolandılar. Yazıq ana sanki dünyaya sevinməkdən çox qüssələnməyə gəlmişdi. Amma dərdi verən də, alan da talehin qismətidir deyə hamı bununla barışmağa məhkumdu. Bəlkə, buna görə çaylar daim axır, dünya öz gərdişindədi. Ana torpaq çox şeyi unutmaq üçün insanlara öz sinəsindən şirə verir, dərdi-qəmi unutdurur ki, həyat davam etsin. Elə buna görə də alova qərq edilmiş dağlar, dərələr yenidən yaşıllaşır, çiçəkləyir, canlılara can verir…

İnstitutu bitirmiş Balaca öz məhəbbəti barədə susur, Münufəni unuda bilmir, onun itkisindən üzü gülmürdü. Aylar ötür, Zəri xalanın narahatlığı artırdı: barı uşaqlarının toy gününü görəydi. Hey yalvar-yaxar edirdi ki, oğlanlarını yola gətirə bilsin, axı ikisi də ali təhsillidir, ailə qurmağın vaxtıdı.

- Ay uşaqlar, burnumun ucu göynəyir ki, nəvə buyurum, gəlin çağırım, nə qədər gözləyim, mənə yazığınız gəlməyəcəkmi?!

Qardaşlar bir-birinə baxdı, gülümsündü, qucaqlaşdılar.

- Allahdan aşağı köməyimiz, dayağımız olan anamız, haqlısan, daha bəsdi. Qoy qəm-qüssə bizdən də kənar qaçsın. Əgər razısansa, hazırlaş, bir nəfərin qapısını döymək üçün Bakıya gedirik. Bu adam qağam Balacanın da xoşuna gəlir, ailələrini o da tanıyır, gedərik, görərik…

Zəri xala ilk dəfəydi ki, qatarla yol gedirdi. Əvvəllər pambıq, indi isə üzüm bağlarına çevrilmiş dümdüz sahələr yaşıllığıyla göz oxşayırdı. Yırğalana-yırğalana süzən vaqonun pəncərəsindən ayrılmaq istəməyən Zəri arvad elə bil sonaya dönüb sularda üzürdü. Yaşıl rəngə boyanmış qatar səhərin alatoranlığında töyşüyə-töyşüyə dəmir yolu vağzalında nəfəsini dərdi. Yaz ağzı isti yuvalardan sevinə-sevinə çıxıb o yan-bu yana qaçışan qarışqalara bənzəyirdi adamların hərəkəti.

Üstünə qırmızı ipək yaylıq örtülmüş qızılgül dəstəsini tutmuş Zəri xalanın ürəyi yamanca döyünürdü. Sanki onu yerə qoyulmuş gümüşü rəngli nimçəni sındırıb gəlin otağına aparırdılar. Bir anlığa «Hardasan, ay Surxay, köməyə gələydin!» fikirləşdi. İri darvazası taybatay açılmış evin həyətində ən doğma adamlarını gözləyirmiş kimi səliqəylə geyinmiş ortaboy, yaşıl yaylıqlı, gülərüz qadın irəli çıxıb Zəri xalaya əl uzatdı.

- Xoş gəlmisiniz, buyurun evə, qədəmləriniz mübarək.

- Xoş gününüzə gələk, həyətiniz həmişə belə gözoxşayan olsun. «Allahım sən özün bizim işimizə də xeyir-dua ver, peşiman olmayaq», - pıçıldadı elçi ana. Səliqəylə bəzədilmiş otaqda hər şey çox sadə görünürdü. Yuxarı başda əyləşmiş Zülfuqar kişinin sol tərəfindəki divardan nurani qocanın müqəddəs kitabımızı vərəqləyən şəkili xüsusi təsir bağışlayırdı. Heç bir təmtəraqlı nitq söylənilmədən süfrəyə qoyulmuş armudu stəkanlardan ətrafa yayılan pürrəngi çayın iyi adamı bihuş edirdi. İlk görüntülərdən aydın olurdu: Zəri xalanın oğlanlarıyla bu evə gəlişini gözləyirlərmiş. Etika xatirinə qısa hal-əhvaldan sonra «Buyurun çaylarınızı işin, nuşi-can olsun», - deyə Zülfüqar kişi gülümsündü.

- Rahillə Zərifənin bir-birinə göstərdikləri münasibətdən bizə hər şey aydındı. Zəri bacının bu ailəyə hansı niyyətlə gəldiyi-

ni yaxşı başa düşürük. Əllərinin dərisi zəhmətlə bərkiyən adamlar həlləm-qəlləmlikdən uzaq olurlar. İnanırıq ki, balalarımız bizə başalçaqlığı gətirməyəcək. Niyyətinizi qəbul edirik. Qəlbən sevən gənclərə «Tanrı üstünüzdə yar olsun!» deyirik. Toylarını necə istəsələr (etsələr) bizə qəbuldu. Rahilə yeganə məsləhətim budur: hər işində qızımızı bağışlasa, bir şeyi etməsin: sədaqətsizlik. Qoy sədaqət, inam onları heç vaxt tərk etməsin, son nəfəslərinəcən bir-birinə dayaq olsunlar, xeyir-bərəkəti qorusunlar.

- Zülfuqar qardaş, ailəmizdən az-çox xəbərdar olduğunuza görə minnətdaram. İcazənizlə rəhmətlik qaynatamdan eşitdiyim bir hekayəti danışmaq istəyirəm.

- Buyurun, Zəri bacı, bizə də xoş olar.

- Bir şah uzun müddət ölkəsini idarə edirmiş. Razı qalanlar da olub, narazılar da. Bir dəfə şah vəziriylə qiyafəsini dəyişdirib ölkəsini dolanmaq, insanların dolanışığını öz gözləriylə görməyi qərara alır. Xeyli gəzib-dolandıqdan sonra çöllükdə yer şumlayan bir cütçüyə rast gəlirlər.

- Vəzir, öyrənək görək, bu qoca nə qədər xoşbəxt yaşayır ki, belə ağır zəhmət çəkməsinə baxmayaraq, şumun hər iki başında öküzləri saxlayır, canıdildən, sevinə-sevinə oxuyur. Ölkə sahibi olsam da, özümü həyatdan belə razı hiss etməmişəm.

Vəzirin məsləhətiylə gözləyirlər: günəş qüruba sallananda qoca işini qurtarır, öküzləri arabaya qoşur, «hoha-hoha» deyə-deyə evinə yollanır. Bərəyə açılanda səyyahlar həyətin ortasında görürlər: bişmiş qazanı pıqqıldayır, samovar mızıldayır. Çiynində məhrəba, əlində su qabı tutmuş qadın ərinin gəlişini gözləyir. Qoca samıları boyunduruqdan çəkib öküzləri həyətə buraxan kimi arvad kişinin əllərinə su tökdü, dəsmalı verdi ki, əllərini qurulasın. Öküzü novalçada suvarıb, ot qoyulmuş ovxurun yanında bağladı və qaçdı ərinə qulluğa. Mənzərəni seyr edən şah üzünü tutur vəzirə:

- Birəm, birliyimə and olsun bu qadını mənə almasan, boynunu vurduracağam. Üç arvadım var, amma onlardan belə hörmət görməmişəm. Cütçünü razı sal: arvadların üçünü də götürsün, istədiyi qədər var-dövlət alsın, arvadını mənə versin. Razılaşmasa, boynunu vurdur.

Əlacsız qalmış vəzir vəziyyəti cütçüyə xəbər verir. Şahın əmrindən mütəəssir olan cütçü aftafanı götürüb su başına yollanır. Qayıdanda aftafanı əlindən salıb sındırır, zar-zar ağlayır. Arvadı qaçır kişinin göz yaşlarını silməyə.

- Ay kişi, sən allah ağlama, bu nə qiymətli şeydir, başqasını alarıq, heyifsilənməyə dəyərmi?

- Arvad, bu aftafa nə zamandı mənə vicdanla xidmət edib, eyibimi, qüsurlarımı görüb, başqasına necə öyrəşəcəyəm, buna görə ağlayıram.

- Kişi, qəm yemə, Allah kərimdi, öyrəşərsən.

Cütçü qonağın gəlişinin məqsədini arvadına danışır.

- Nə edə bilərik, deməli, qismətimiz belə yazılıb, - deyir və yır-yığış edir... Əhvalatdan xeyli keçəndən sonra şah vəzirlə yenə səyahətə çıxır. Baxırlar ki, cütçü indi də şumun ortasında dayanıb dil-dil ötür.

Arvadlarından ağızdolusu razılıq edən cütçüdən buna necə nail olduğunu soruşurlar.

- Şah sağ olsun, mənə verdiyiniz qadınları çayın kənarına gətirdim. Birini çiynimə alıb çayın ortasında dayandım, nəyə qadir olduğunu, qüsurunu soruşdum.

- İnsanlığa lazım olan bütün işləri bacarıram, yerə düşmüş bir toxumu da əyilib götürməyim qüsurumdu, - dedi.

Aparıb çayın o tayında yerə qoydum.

- Ən böyük bacarığım – bir yumurtanın içində hazırladığım təamdan bütöv bir ordu dadar, artıq da qalar. Qüsurum – ayağısürüşkənliyimdi, - ikincisi dedi. Onu da çaydan keçirdim.

- Bütöv bir orduya paltar tikərəm, yorulmaram. Yeganə qüsurum dilimin acılığı, deyingənliyimdi, - üçüncüsü dedi. Üçüncü qadını buraxdım gur axan çaya. Həyatım yağla-bal kimidi.

Şah barmağının ucunu qoydu gicgahına və cütçüdən aralandı.

- Gəlinimin üzügülər, dilişirin, qulağı xoş söz eşitsin, - dedi, sevinə-sevinə doğma Qobulu kəndinə qayıtdı Zəri xala balalarıyla. Darvazasına çatanda qonşusu Əvəz baba və Zinyət nənə onu ilk təbrik edənlərdən oldu.

***Bakı, 16 oktyabr 2007-ci il.***

# NƏ DEYİM?..

**(*Həzin bir xatirə*)**

1988-ci ilin payızında Bakıya oğlum Vüqarın kiçik ev sovqatını çatdırmağa gəlmişdim. İndi özüm sığınacaq tapdığım keçmiş tələbə yataqxanasında öyrəndim ki, dərsə gedib. Bir vaxtlar piyada getdiyim küçələrlə dolaşa-dolaşa özümü çatdırdım mənim də təhsil altdığım binaya – indi Bakı Slavyan Universiteti adlanan M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutuna. Utancaqlıqla qapıçıdan icazə alıb üçüncü mərtəbənin dəhlizində uşaqların fasilə zəngini gözləyirdim. Bax, bu laboratoriya, məşğələ, mühazirə otaqları məni də qucaqlayırdı. Burada söhbətlərinə az qala nəfəs almadan diqqət kəsilmişdim unudulmaz ağsaqqallardan Q.K.Məmmədov, A.Ş.Şabanov, B.Q.Ayolla, B.A.Axundova kimi müəllimlərin. Var-gəl edə-edə keçmiş müəllimlərimizin mehribanlıqlarını, bəzən həddən artıq ciddi baxışlarını (R.Rəşid, A.P.Veliçuk), bəzən insanı xoş düşüncələr ağuşunda fəlsəfə dünyasına aparan təbəssümlü üzlərini xatırlayırdım Asif Əfəndiyevin, Sabir Turabovun, V.J.Vaysmanın… Necə də anlaşıqlı dildə danışırdılar tələbələrlə.

Birdən zəng səsi məni öz aləmimdən ayırdı. Küləkdən ətrafa uçuşan zəncirotu çiçəyinin ağ tükcüklərini xatırlatdı səs-küylə auditoriyalardan dəhlizə səpələnmiş oğlanlar-qızlar: deyən kim, gülən kim, mübahisə edən kim. Öz dostlarımla mən də bir vaxtlar beləcə olmuşam, yəqin…

- Bağışlayın, siz kimsiniz və burada nə dolaşırsınız? – kimsə qolumdan yapışıb məni uşaqlardan aralamağa çalışdı. – Aşağıda qarderob var, gedin paltonuzu ora təhvil verin, qayıdın bura, gözləyirəm. Ey, növbətçi, aparın bu yoldaşı dediyim yerə!

Bu hadisə elə gözlənilməz oldu ki, üstümə acıqlanan adamın kimliyini anlaya bilmədim. Paltomu verib geri qayıdanda başa düşdüm ki, bu adam bir zamanlar bizə psixologiyadan mühazirə oxuyan Rəşid müəllimdi.

- Hə, sualbaz oğlan, məni tanıdınmı, nə münasibətlə burdasan?

Utana-utana ona yaxınlaşırdım ki, dəhlizdə şaqraq gülüş eşitdim. Bu səs rektorun otağına açılan üzbəüz qapıdan gəldi.

- Ayə, qırışmalın biri, bu necə gəlişdi, sən hara, bura hara?! Ay sənin evinəcən, Mişa, vallah heç dəyişməmisən. Xoş gördük səni, köhnə dost.

Suda çabalayana oxşayırdım, bilmirdim kimə baxım, kimlə danışım, qalmışdım boylana-boylana.

- Baxışov, yoxsa siz bu yoldaşla tanışsınız? – Rəşid müəllim əlini çiynimə qoyanda indi ağlaya-ağlaya xatırladığım Baxışcan məni qucaqladı, sarıldıq dost öpüşlərinə (Sənə qurban olum, Tanrım, nə yaxşı ki, barmaqla sayıla bilən bir neçə dostum olub, yoxsa…).

Bu yerdə bir vaxtlar özümün qoşduğum şeiri xatırlayıram, qınamasın oxucu:

Min illərdi torpaq üstə od yanır,
Yer kürəsi dayanmayır, fırlanır.
Mini ölür, min birisə yaranır,
Yaradanın Adı Xuda, tək Allah!

Yaratmağa gücüm çatmaz, deməsə,
Yaranmışı dünya tutmaz, deməsə.
Odda yanmaz, suda batmaz, deməsə.
Yaranmışlar sənə fəda, tək Allah!

Zəng səsi dəhlizi boşaltdı, amma biz ayrıla bilmədik.

- Mişulya, Mişulya (bu sözləri ancaq o deyə bilərdi, inciməzdim), heç bir misqal da müasirləşməmisən, kəndlisən ki, kəndli. Ayə, nə olar, bircə dəfə Bakıya gələcəyini xəbərdar eləsənə. Vaxt tapaq, əməlli-başlı dərdləşək, görək nə var, nə yox?! De görüm, uşaqlar necədi, məktəbi bitirəni varmı? – suallar bir-bir başıma səpələndi.

Xeyli söhbətdən sonra öyrəndi ki, oğlum bizim də bitirdiyimiz institutun ikinci kursunda oxuyur.

- Ayə, sən nə qədər axmaq xasiyyətlisən, niyə bu müddətdə mənə deməmisən, tanış etməmisən oğlunu, bəlkə bir ehtiyacı olub… Bəs haçan…

- Baxışov, bu kişinin oğluna qəbul imtahanlarından ancaq kafi yazıldığından böyük qalmaqal yaratmışdı. İşə apellyasiya komissiyası qarışdı. Ata-balanı sakitləşdirə bilmədik, hay-küyə rektor Sultanzadə qarışmalı oldu.

- Axı mən bura qızıl medala layiq məzun gətirmişəm, kiminsə zənginə ehtiyacı olanlardan deyil! – qışqırdı. Elə birinci kursdan çoxumuz anladıq ki, haqsızlıq olub.

- Rəşid müəllim, zahirən çox mülayim görünsə də, Mişa tərsliyi sevir, görürsünüzmü? – Baxış ciddiləşdi, qolumdan yapışıb öz iş otağına apardı. Stolun üstündə buğlanan armudu stəkandakı isti çayı içə-içə harasa telefon açdı.

- Tez ol, bura gəl, yanımda bir «zaraza» var, bilmirəm kimdi, buyur özün tənbeh elə, gözləyirəm. Dəstəyi yerə qoyub bərkdən güldü.

«Cıdır düzü» kababxanasında xoşhallandığımız vaxt bizə həmişə həyan olan Nazim Mirzəyev məni o ki var «tənbeh» etdi. Boynumdan axan tər damcılarını görəndə Baxış dilləndi:

- Daha bəsdi, bir qələtdi eləyib, bir də təkrarlamaz, inşallah.

Hamımız ürəkdən gulüşdük. Ayağa qalxanda əlimi cibimə atdığımı görən Baxışla Nazim bir ağızdan:

- Əlini farağat qoy, yoxsa səni əməlli-başlı əzişdirərik ha… buna inan.

- İnanıram, inanıram, bəs haçan mən sizin qulluğunuzda durum?

- Sən bizim Mişamızsan, unutma, kirayə qaldığın otaqçada çox çay içmişik, yadındadı? Hərdən səni qəsdən küçəyə göndərərdik ki, çayının içinə duz, ya da istiot ataq, gülüşməkçün.

Baxışın üzündə daima müdriklik təbəssümü həkk olunmuşdu. Bax elə indi mən onun haqqında nəsə demək istəyirəm, söz axtarıram, o isə sanki qarşımdakı çərçivədən ağsaqqalcasına gülümsünür, bir müraciət formasını təhrif edərək deyir: «Həv du yu du!»…

…İllər keçdi, payızın dəhşətli tufanı aranı elə qarışdırdı ki, gözümü açanda özümü evsiz-eşiksiz gördüm. Bir vaxtlar Baxışla Nazimin, sonralar Vüqarımın yaşadığı köhnə, pəncərələri, döşəməsi, tavanı sınıq-salxaq görünən, uçmağa hazırlaşan yataqxanada ailəmlə bir otağa sığınmışam. Gah müəllim, gah zavod fəhləsi, gah ticarət mərkəzində gecə keşikçisi işdlədim, uşaqlarıma həyan oldum.

…Elə sevinirdim ki, dostum Nazimin ikinci övladının da toy məclisində onu təbrik edənlərdən olacağam. Lakin dəvətnamələrin paylanacağı ərəfədə bir parça çörəkdən ötrü Rusiyada yaşayan Eldarımın oğlu Həmzənin kiçik toy məclisinə yola düşdüm. Bakıya qayıdan kimi birinci Nazimə oğul toyu üçün zəng çaldım, sevinc təbrikimi çatdırmaq istədim.

- Qardaş, səni təbrik edirəm, oğullu-qızlı olsun balaların. Sən canın, de görüm mənim də sağlığıma vurdunmu?

- Yox, Mükafat, vurmadım (ilk dəfəydi ki, məni adımla çağırdı Nazim).

- Niyə, arağa qıymadın, ya məndən küsdün?

- …

- Nazim, deyəsən məndən küsmüsən, eləmi?

- Yox, küsməmişəm, toydakı dostlarımın əksəriyyəti içmədi… Bilirsən nə olub?

- Nə?! – deyə bağırdım.

- Biz Baxışı itirdik, əbədi.

- Sən nə dediyini anlayırsanmı, Nazim? Bu nə xəbərdi eşidirəm?! – telefon dəstəyi əlimdən düşdü. Uzun-uzadı «du, du, du» səslərinə kiçik qızım Elmira yüyürdü.

- Ata, bizim Baxış əmini deyir? Ayna xala bu itkiyə dözə biləcəkmi, görəsən? Yadımdan çıxarmı, ata, saqqalını silkələyə-silkələyə üstümüzə çığıran bizim Dillər İnstitutunun rektoru Qorxmaz müəllim necə acıqlanmışdı mənim diplomumla əlaqədar? Biz rektorun otağından kor-peşman «Dəvədən böyük fil də var» deyib çıxanda, qapı arxamızca necə tappıldadı. Baxış müəllimi elə bil Tanrı özü göndərdi ki, bu qalmaqalı kəssin.

… 1999-cu ildə şəxsi ailə vəziyyətilə əlaqədar qızım Elmiraya azad təyinat verilmişdi, Bərdə rayonuna. İnstitutdan sənədi verməkdən imtina edirdilər. Kadrlar şöbəsindəki orta yaşlı qarayanız qadın açıq-aşkar təmənna gözləyirdi. Anlayanda ki, rektora şikayət edəcəyik, bizdən qabaq özünü çatdırdı rektora. Bizi qaşqabaqla qarşılayan rektor «qoyun quzusunun ayağını tapdalamaz» məntiqilə bizi yola saldı. Dilxorluqla dəhlizə çıxanda Baxış müəllimlə rastlaşdıq.

- Ehe… Mişulya, niyə belə özündən çıxmısan? Bu uşaq kimdi yanında? – Məni qucaqladı. – Kimlə ağızlaşmısan? Dəcəlliyindən əl çəkmədin də…

Başıma gələnləri birnəfəsə danışdım. Üzü ciddiləşdi, bir yerə baxdı, bir mənə…

- Yekə kişisən, sənin hövsələn nə vaxt yerində olacaq, uşaq kimi hərəkət etmisən, aranı qarışdırmısan. Mənimlə məsləhətləşsən nə olardı? Qorxmaz müəllim sən deyən deyil, lənət şeytana. A qızım, sən burda olmasan atanı lap kötəkləyərdim.

Gülümsündü, qapını döymədən rektorun kabinetinə keçdi. Ötən dəqiqələr məni yaman sıxırdı. Qapı açıldı. Qorxmaz müəllim məni içəri çağırdı. Telefon dəstəyində qarayanız qadına nə dediyini eşidə bilmədim, başımdakı uğultu məni elə bil yerə pərçimləmişdi, utanırdım. Bax bu yerdə ölməz qəzəlxanın bir deyimi məni qanadlandırırdı: «Kaş bircə nəfər dərd bilən həmdəmin olsun, qəm yemə, könül, dünya-cahan düşmənin olsun».

Unudulması mümkün olmayan Baxışımızın haqqında bir hadisəni də xatırladım.

2007-ci il dekabrın 11-də BSU-nun müəllim kollektivinin Baxış müəllimə həsr edilmiş anım mərasiminə mən də getdim. Bu möhtəşəm elm ocağının girəcəyindəki otaqçasında oturmuş cavan polisə gəlişimin məqsədini deyəndə oğlan yerindən qopdu, dərindən köks ötürdü, təəssüflə «Buyurun, əmi, ən yaxşı müəllim, ağsaqqal, səmimi isan idi Baxış kişi, Allah rəhmət eləsin, qəbri nurla dolsun» dedi. Həmin mərasimdə Baxış dostumun xatirəsinə qoşduğum ərmağanımı oxudum:

## «ALLAH, AMANDI!»

Əziz dostum, iki əlim,
Tir-tir əsir ağzım, dilim,
Sənə necə qıydı ölüm?
Qan ağlayır dəli könlüm,
Bu nə dərddi, Allah, aman?!

Üstümüzü aldı duman:
Bu dünyanın karvanından
İtir dostlar zaman-zaman.
Deyin, yoxmu dərdə dərman?
Bu nə dərddi, Allah, aman?!

Tanrım yox etsin rüzgarı,
Aldı bizdən dostu-yarı,
Ağlayıram zarı-zarı.
Qalan dostlar qalsın barı,
Yoxsa dünyam yanar tamam.

Ağlamasın qohum-qardaş,
Sevinməsin nə dağ, nə daş,
İtirsək də əziz yoldaş,
Qoy var olsun dosta yanan,
Qıyma dosta, Allah, aman!

*09.12.2007.*

# ƏLİŞ DAYININ HEKAYƏTİ

*«Ya Allah, qəzəbindən uzaq elə bəndəni»*

Kəndin lap ucqarındakı komasında tək-tənha yaşayan Bəndalının buraya necə düşdüyündən məndən başqasının xəbəri yox idi. Kəndimizdən xeyli uzaqdakı meşəlikdən onu bura mən tapıb gətirmişdim. Az qala vəhşiləşmişdi. Xeyli vaxt evimdə gizli saxladım ki, dəyib-dolaşan olmasın, bir qədər uyğunlaşsın ətrafındakılara. Hamı onu «Əlişin qonağı» kimi tanıyırdı. Yavaş-yavaş özünə gələndən sonra onu kolxoz qarajında gözətçi vəzifəsinə düzəltdirdim: qoy özü-özünü anlaya bilsin. Dəyib-dolaşan olmadığından kimsə onunla həmsöhbət deyildi. Onu özündən çıxaran uşaq-böyüyü hər kəs bildiyi kimi tənbeh edirdi. Vaxt ötdükcə aram-aram insanlara yovuşurdu, hərdən bir kəlmə kəsməyə öyrəşirdi. Çox çək-çevirdən sonra onun niyə tərki-dünya olduğunu öyrəndim. Axı bu yadlaşmanın taleyi məni də tikan üstə oturana bənzədirdi: onların kəndində mal-qoyuna çoban işləmişdim bir zamanlar. Məni tanıya bilmirdi fağır. Gözlənilmədən dillənib, başına gələnlərdən məni də agah etməyə çalışdı.

- Ağlım kəsəndən adımın «Tərs Əmir» deyə çağrıldığı halda, yaşımın bu çağında Bəndalılaşdım, - duruxa-duruxa, o yan-bu yana boylanıb ürəyini boşaltmaq istədi. – Dünya başıma dar olub, köpürcək kimi fırlanır…

- Doğrudan, e, niyə səni belə çağırırlar, Bəndalı baba? Bəlkə bir az danışasan. Sabah yıxılıb ölsən, qəbir daşında necə yazacaqlar: «Tərs Əmir», yoxsa Bəndalı? – yaxınlıqda dayanan «Əlçəkməz» ləqəbli Qələmdar danışanların arasına dürtüldü, yuyulmamış qaşıq kimi.

- Nə deyim, ay oğul, necə istəyirlər, elə də desinlər. Kolxozda işləyənin adı çox olar. Nə çoxdu loğaz danışan: gələn bir, gedən iki, - duruxdu.

- Kolxozda da işləmisən? Deyilənə görə, səni meşədən tapıblar, e, Bəndalı. – qımışdı Qələmdar, - kolxoz sənə darısqallıq etdi?

- Haqlısan, bala, kolxoz, - susdu, ağzını havayla doldururmuş kimi, ovurdlarını şişirtdi, «püff» etdi, - kolxoz da bir tufan idi, gəldi, fırlandı-fırlandı, qoymadı gün görməyə. Üzü qara olsun onun da, onu tapanın da. – Hamı yaxınlaşdı Bəndalıya: «deyəsən, burda nəsə var, Bəndalıdan görünməmiş hərəkət!» Yan-yörədə pıçıldaşdılar. Dəvədə buynuza bənzəyirdi Bəndalının dil açması.

- Hə, hə, necə oldu, kolxozdan danışırdıq axı, - Qələmdar Bəndalının dilinin topuq vura-vura açılmasından sui-istifadə edib, söhbətə azca «duz» qatmağa çalışdı ki, eşidənlər qulaq kəsilsinlər. «Kolxozu» qoydu bir qədər sonraya.

- Bəndalı baba, adın sadə isimdi, ya mürəkkəb? Dünənki dərsimizdə «İsim və onun kateqoriyaları»nı öyrənməyə çalışdıq. İsmixan müəllim ha çalışdı «kateqoriya» anlayışını bizə başa salsın, çaşıb kateqoriyaya çevrildi. Gözlərini çırpa-çırpa sinifin qapısını tappıldadıb gözdən itdi.

- Deyirəm axı, - Bəndalı uşaq kimi hihildədi, - bu kişi niyə süksününü sallayıb löhlöhlə yol boyu deyinirdi. Yanımdan ötəndə yaxınlıqdakının salamını da cavabsız qoydu. – Bəndalının dil-dil ötməsi, söhbətindən özünün də sevinməsi hamını maraqlandırırdı. – Ay qırışmallar, yaşlı adamdı, niyə pərt eləmisiniz? Hamı yaxşı bilir: bir vaxtlar camaatı gözümçıxdıya salan belə «kolxoz pionerləri»ni xalaxətrin qalmasın deyib məktəbdə saxlayıblar. Əslinə qalsa, beləsinə müəllim deməyin özü günahdı. – Nəsə düşündü. – Kişi olmayan yerdə «kişidi bu!» deyərdilər beləsinə – özü dediyinə güldü.

- Yəni, demək istəyirsən ki, belələrini muzeydə saxlayaq?! – Uşaqlar gülüşdü.

- O qalıb sizin savadınıza. Gərək elə dərbənəsiniz ki, başqaları ədəb-ərkanınıza «bərəkalla» desinlər. İndi hər şey başqalaşıb, ey! – Sən ölməyəsən, bunun dağarcığı doludu, lap alim kimi danışır. – kimsə xıxıldadı.

- Sən «Bəndalı» sözünün hansı isim olduğunu demədin, eyy, məni hara dartırsan?

- Nəyi bilmirəm, onu bilmirəm, ay uşaqlar, əl çəkin, qoyun gedib ölüm komamda, - güclə səsləndi qoca. – Bilmədiyindən danışmaq ağılsızlıqdı.

- Demək istəyirsən, «Bəndalı»nı sənə niyə yapışdırıblar, səbəbini bilmirsən?

- Ədə, mənnən nə istəyirsən, gedib öz işinlə dolansana!

- Bəndalı baba, səni and verirəm zorla əlindən alınan mal-dövlətinə, bu adın haqda bildiyini məndən əsirgəmə, yoxsa itələsən də, yanından gedən deyiləm. Məktəbimizin divar qəzetinə məqalə yazmaq istəyirəm. Deyilənə görə, kəndlərdə hamının adının verilmə tarixçəsi var.

- Mənim tarixdən, cəbrdən, zaddan başım çıxmır, bala, hay-hayım da gedib, vay-vayım da. – Gözləyirdim, uşaqlar bu lal-qaradinməzin dilini necə açacaqlar. Uzun-uzadı susdu, elə bil «xatirə boxçasını» axtarırdı, tapa bilmirdi. Üzü təbdən-təbə düşdü. Əllərini dizlərinə dayadı, bikef-bikef başladı danışmağa.

- Ay oğul, məni yamanca xırxaladın, sizlərdən qaçmaq üzməyi bacarmayanın seldən qurtulmasına bənzəyir. – Ehmalca durub komasına üz tutdu.

Uşaqlar qalmışdı baxa-baxa. Bir neçə gündən sonra Qələmdarla yoldaşları Bəndalını dövrələdilər, yalvardılar ki, keçən söhbəti qurtarsın. Ötüb-keçənlər onun sorğu-suala tutulmasından gileylənirdilər. «Niyə narahat edirsiniz, yazıqdı, bəlkə sinəsi çox yaralıdı, qoyun dolansın öz-özünə». Uşaqları inandırmaq o qədər də asan işdi?

Bəndalı oturmuşdu yolun kənarındakı iri çinar kötüyünün üstündə, vargəl edirdi. Əvvəllərdə olduğu kimi, Bəndalı yan cibindən tünd qara rəngli kiçik torba çıxartdı, qotazlı bağının dolaşığını açdı, döş cibindən səliqəylə, dörd barmaq boyda doğranmış qəzet parçalarından birini götürdü, iki barmağıyla sığalladı, novalçaya oxşatdı. Torbadan xırdaca xıncımlanmış tütündən bir çimdik qəzet parçasına bükdü, nazik tərəfini nəmlətdiyi dodaqlarına dürtdü, güləşməyə hazırlaşırmış kimi gözlərini geniş açdı, üzünü günəşə doğru qaldırdı. Var gücüylə sinəsini qabartdı, köksün ötürdü, bikef-bikef düşündü. Elə bil gözünü qocadan yayındırmaqdan qorxurdu Qələmdar: görəsən, Bəndalı kişi nə göstərəcək. Bəndalı ov tüfəngi gilizindən

çıxartdığı pambıq piltəsini çaxmaq daşına yaxınlaşdırdı, əlindəki poladdan düzəldilmiş satılı daşa elə çırpdı ki, qığılcımdan piltə közərdi. Eşməni alışdırdı, üfləyib alovu söndürdü, tüstüsünü ləzzətlə sümürdü. İçində toplanmış tüstüdən sevinirmiş kimi qımışdı.

- Ay uşaqlar, bu dünya yaşamağı bacaranlara bəxş olunub. Kimisi sevinir, başqası odlanır, közərə-közərə sönüb gedir. Sizə danışacağımı əllərimi dəmirçi məngənəsində əzsələr də başqasına danışmazdım. Cavanların qəlbinə dəymək insafsızlıqdı. Kəndinizdə məskunlaşdığımın tarixini unutmuşam, desəm, inanmazsan, - üzünü tutdu Qələmdara. – Bizim, - duruxdu, nəyisə sanki xatırlayırdı, - kolxozun adına «Qırmızı ulduz» deyərdilər. Dolanışıq üçün çörək qazanmaq daş çeynəmək kimiydi. Zülümlə başımızı girələyirdik. Yer şumlamaq, taxıl becərmək o qədər də asan deyildi. Qardaşım Əmirxan çalıb-çapmaqda mahir idi. Qonşu kəndlərdən, elatlardan çırpışdırdığı qoyun-keçinin sayı gündən-günə artırdı. Yorğan-döşəyin istisini sevməzdi. Gün-güzəranı çöllləmələrdə keçirdi, evli də olsa. Ha minnət edirdilər, kəndə yovuşmurdu, daş atıb-başın tuturdu. «Keçi hayanda – qoyun da o yanda» deyərdi. Bu andıra qalmış sovetin adamları dil-tov edirdi ki, birgə təsərrüfat yaratsınlar. Bəziləri bunun alıb-aldatma olduğunu düşünürdü. Deyəsən, haqlı olublar. Bunu çox gec anladıq.

- Bunun nəyi pismiş, Bəndalı baba? Hamı bir çalışır, əkib-becərir, toplayır, işinə görə də pay alır.

- Bilirsən, bacı oğlu, bu dolaşmış ip kələfinə oxşayırmış.

- Axı niyə belə düşünürsən? Yəqin, kollektivçiliyin xeyrini çoxları anlamayıb?

- Elə deyil, ey. El arasında belə deyirlər: «Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş».

- Bu nə deməkdi?

- Elə pişiyin quyruğu da burdan görünür də… Mən tər töküb, ömrümü çürüdüm, qazanım, hardansa qoduğun biri peyda olsun ki, mən partiya işçisiyəm, nəzarətçiyəm, nə bilim, kiməm. Axırda onlar məndən çox yeyir, fürsət düşəndə hələ bir «böö!» də eləyir ki, heç kəs qımıldanmasın. Elə mənimnən Əmirxanı misal götürək. Dedilər, kolxozda birləşək, öküzümü, mal-davarımı verdim. Bir

azdan elə qurğu qurdular ki, qaldım lüt-üryan. Başıma çəkməyə yorğanım olmadı. Düşdüm qaçarağa…

- Niyə belə?

- Cürbəcür vergilər bizi yığdı boğaza, dirigözlü yedi. Dedilər ki, qardaşın kolxozu bəyənmir, qolçomaqdı, özbaşınadı.

- Onun axırı necə oldu, saldılar «kulağa»?

- Malı da getdi, özü də yoxa çıxdı Qazaxıstanda. Gördüm deyən olmadı. Dönüb yağlı əppəyə, itib.

- Bəndalı baba, eşitmişəm ki, sənin də həyatın çox faciəli olub. Heç oğuldan-qızdan yoxundu, ya olmayb? – Elə bil Bəndalını ilan vurdu. Diksindi, başını əllərilə tutdu, üz-gözü turşaldı, vaysına-vaysına dedi:

- Dədə balası, yediyin çörəyə and verirəm, məni İsa bilib çarmıxa çəkmə. Onsuz da mənimki gətirməyib, taleyim üzümə gülməyib. – Elə hönkürdü, az qaldı qurumuş çinar ağacı kimi sərilsin toz-torpağın içinə, qollu-qanadlı. Çat-çat olmuş dodaqlarını örtən çallanmış bığları titrədi, bədəni tir-tir əsdi. Sifətinə meyit rəngi çökdü.

- Baba, ay baba, sənə nə oldu, bağışla məni, Bəndalı baba, mən nə dedim ki! Özünü ələ al. – Bığ yeri hələ tərləməmiş Qələmdar sanki doqquzuncuları, sinif rəhbəri Qərənfil müəlliməni köməyə səsləyəcəkdi. Özü də hiss etmədən «A… ay!» deyə bağırdı.

- Günah səndə deyil, ay oğul, mənə olan olub, innən belə heç kim kömək etməz, - bağırdı, ciblərini əlləşdirdi, nimdaş əsgi parçasıyla burnunu sildi. – İslanmışın yağışdan nə qorxusu. Bu sual haçansa qulaqlarımı deşməliydi, qorxsam da, gözləyirdim. «Buludlar dolanda leysan yağar». – Gözlərindən bıldır-bıldır yaş axıdan Bəndalı təmkinini pozmadan üzünü Savalana tutub səsləndi:

Desələr ki, buz gölündə batan var,
Nəfəsi yox o buz meyit mənəm, mən.
Desələr ki, dağ yolunda yatan var,
Ayıltmayın, qoyun yatım, mənəm, mən.

Nə müddətdi yol gedirəm birbaşa,
Qeybə çıxıb, yetişmirəm sirdaşa.
Hünər gərək, qol qaldıram savaşa,
Oyatmayın, bəxti yatan mənəm, mən.

Cavanlıqda oxum dəydi ağ daşa,
Yoldaş oldum qayalara, dağ-daşa.
Yovuşmadım nə qohuma, qardaşa,
Tovlatmayın, eşqi itən mənəm, mən.

Məhəbbəti daşa dəyən hey gedər,
İbadəti başı əyən key gedər.
Səadəti çaşıb yeyən vay edər.
Gözlərini şeytan tutan mənəm, mən.

Talehimə düşənlərdən çaşarsan,
Baş götürüb dağ-qayadan aşarsan.
Ayılanda məni daşa basarsan.
Əzrailə sapand atan mənəm, mən!

Bəndalı gözlərini yummuşdu, heç nədən xəbəri yox idi. Dünya başına fırlanırdı, qoz qabığı kimi üzürdü çayda.

- Bəndalı, ay Bəndalı, ə sənə nə olub, bu uşaq-muşağın yanında özünü uşaq yerinə qoyub gözlərinə dəm vermisən? Hansı köpək oğlu səni incidib? Bu saat onun gözləri baxa-baxa anasını ağladacağam. Bəsdi, a kişi, eli özünə güldürürsən, ey!.. Başını qaldır, üzümə bax görüm.

- Yox ay qonşu, mən daha dözə bilmirəm, durna qatarım çoxdan uzaqlaşıb, heç yana uça bilmirəm.

- Bəndalı, səni atanın goru, sil gözlərinin yaşını, gedək bizə, görək qarı şordan-şokqaldan nə hazırlayıb. Dur ayağa, yoxsa bu gədələri topuxlayaram, bir də buralara üzükməzlər. İtilin burdan, küçüklər, nə gözlərnizi döyürsünüz! – səs-küyə toplaşanlar pərt-pərt uzaqlaşdılar, təkcə Qələmdardan başqa.

- Sən niyə qalmısan, ay xalası qaçağı atdan salan, bəlkə qapaz payı almaq istəyirsən? Get, dəə! Yerə mıxlanmısan? – Azacıq sükutdan sonra Dadaşəli kişi Bəndalının qolundan yapışıb öz həyətinə doğru çəkmək istəsə də, Bəndalı uzun ağ saqqalından asılmış yaş damcılarını əllərilə sıxdı, kəndin kənarındakı komasına tərəf yollandı. İndi kiminsə ona gücü çatmazdı.

Cansıxıcı qara buludun ətrafa yaydığı tutqunluq havanın əhədini kəsir, çiskinlədirdi, baş vermiş hadisədən təəssüflənirdi. Bikef-bikef üzlərə sərilir, insanları hər hansı bədbəxtlikdən ayıq salmağa çalışırdı. Sanki «bəxtə yazılandan qaça bilməzsiniz» deyirdi.

Səhər tezdən qoyun-quzunu örüşə qovalayan kənd camaatı Bəndalının kiçik komasından qalan bir qalaq küldən başqa bir şey tapa bilməyib qalmışdı deyinə-deyinə: bu qəribi yer yedi, göy uddu?! Barı nişanəsi qalaydı ki, xəbərimiz olaydı.

Bəndalını heç yerdə «gördüm» deyən olmadı, haqqında təkcə nağıl qalmışdı.

Onu doğma Qaragüney kəndində hamı «Tərs Əmir» deyə çağırırdı. Bir dəfə taxıl dərzlərilə dolu arabası üzüaşağı enəndə yükün ağırlığından sürüşən öküzlərdən birinin ayağı burxulub yerə yıxılır. Araba öküzü basa-basa qobuya yellənir. O biri öküzün də yıxılmaması üçün Əmir yapışır dal təkərin dəndənəsindən, sürütlənə-sürütlənə dərənin ortasında dayanır. Yıxılmış öküzü boyun-duruqdan samını çəkib buraxmaq istəsə də, biçarə heyvan ayağa qalxa bilmir. Aydın olur ki, öküzün ayağı sınıb. Naəlac qalmış Əmir pələng biləyinə oxşar qollarıyla öküzün paçasından yapışıb kənara dartır, özü qoşulur onun yerinə. Xırmandakılar Əmirin bu gücündən heyrətlənib «tərs» təxəllüsünü calayırlar adına.

Cavanlığında Əmirin kürəyini yerə vuran olmayıb. Bir dəfə dostlarıyla qonşu kəndə qonaqlığa çağrılır. Qışın şaxtası, sazağı dostları dəvətdən yayındıra bilmir. Qaragüneylə Sarıtəpə kəndinin arası yeddi-səkkiz verstlik olsa da, Əmirgil şər qovuşanda Hacağa kişinin darvazasını döyəcləyirlər. Ev sahibi eyvana çıxanda «Potabaş»ın zənciri qırmağa çalışdığını anlayır. Gecə qonaqlarını sınamaq üçün köpəyi açıb səs gələn səmtə fişləyir. Fürsəti fövtə verməyən Əmir çuxasını itin başına atıb basmarlayır. Vəziyyəti

belə görən Hacağa «Ayə, qadan alım, itin günahı yoxdu, burax!» - deyəndə əllərini Əmirin əlində görür.

- Ay Gülcahan, dolçanı bura gətir, küpün ağzını açım, dostlarım gəlib, qoy tərlərini bir az soyutsunlar, - Hacağa arvadını səsləyir.

- Ə, yoxsa bizi qəysərlətmək istəyirsən, ay insafsız! – Əmir keçir irəli.

- Yox, qağa, axı sən demisən ki, soyuğu soyuqla qovarlar. – Hacağa bedananın altındakı üçillik çaxır küpünü əlləşdirməyə çalışır. Sal küpağzı daşın kənarlarındakı köhəlmiş xəmir parçalarını qoparanda, içməmişdən adamı bihus edən kavra çaxırının qoxusu onluq lampanın işığına qarışdı, ətrafı özünə çəkməyə çalışdı.

- Buyurun, əzizlərim, məhsulun tamına baxın, sonra keçək süfrəyə. – Buz kimi çaxırdan hərə bir-iki hortum alıb «bırr!» edərək kənara çəkiləndə, Əmir dözmədi.

- O canqurtaranı bəri ver, ay Hacağa, gör ləléşin kimdi, - deyib dolçanı başına çəkdi, dibini göstərdi, üzüqoylu tutdu. - Oxxay, adama çöh verir, atan behiştlik olsun, qağa, az qala köpəyini öldürəcəkdim, yanımda Sarı, Fərzalı, bir də Niftalı olmasaydı. Keçən dəfə bizi dara çəkmək üçün Sarı nə demişdi, yadındamı?

- Yeddincidən sonra süfrəbəyi seçərlər «yeddiparada». Yedi var, götürdü yoxdu, haa… - Əmir bığlarını silib gülə-gülə yaxınlaşdı qovurma dolu teşt qoyulmuş süfrəyə. Bişmişləri tez-tez təzələyən Gülcahan qaldı qonaqlarla qazanın arasında gombul yambızlarını oynada-oynada. Tər basdıqca yaylığının ucuyla alnını silirdi ki, gözlərinə dammasın, yoxsa kabab şişlərini ocaqdan götürəndə tüstüdən özünü itirər.

Dan yeri ağarmağa az qalmışdı, dostlar «Həvəsdi, bəsdi, qazandakı da qurtardı, küpdəki də, şişə taxmağa da heç nə qalmayıb. Haydı, dostlar, yolçu yolda gərək!» - Əmirin sözünə qüvvət verdilər. Qonaqlar qarışdılar gecənin qaranlığına. Hacağa bərəyənin qarğadilisini, hozasını bərkidib yollandı yatmağa. Azca getmişdilər ki, Məmmədxanla Niftalının çiyinlərindən tutub qabaqlarına keçən Əmir pıçıldadı:

- Dostluğumuz öz yerində, amma bu saqqalına bit düşmüş bizi imtahana çəkdi, haa… - Dostlar duruxub mat-mat baxdılar Əmirə.

- Fikrini söylə, ağlabatan olsa, biz də şərikik.

- Siz burda dayanın, bu saat qayıdıram.Mən də Hacağaya dərs vermək istəyirəm. – Həyətin sol tərəfindəki tövlənin qapısını ehmalca açdı, ora-buranı bastaladı, inəkdən xeyli aralıda bağlanmış dörd-beş aylıq dananın ağzını möhkəmcə sarıtladı, ayaqlarından qaldırıb atdı boynuna. Dostlar qalmışdı naçar: qayıtsınlar Əmirin dalınca, ya yox. Hənirti eşidəndə dayandılar.

- Əə… kəndirin kəsilməsin, bunu neynirsən? – Məmmədxan dözmədi.

- Asta qaçana, imam qənim, - Əmir düşdü qabağa. Onda dayandılar ki, Sofular kəhrizinin bəyaz axarı puçurtuyla üz tutmuşdu Araza sarı.

- Yamanca susamışam, ay uşaqlar, vallah, bu suyu öpməsəm, bağrım çatlar. – Əmir dilləndi. Dananı yerə qoydu, dizlərini qatladı, şaxtanın güc gələ bilmədiyi sudan doyunca qurtuldadıb yenidən düzəldi yoluna…

Gecə qonaqlarına qulluqdan əldən düşən Gülcahan ayılanda toyuq-cücənin həyətdə səsləndiyini, çəpişlərin, quzuların örüşdən qabaq əmişə vurnuxduğunu duydu.

- Booy, başıma xeyir, yuxu məni nə bərk qamarlayıb, ey, gün qalxıb günortaya, mən də mışıldayıram. Məndən görünməmiş iş. – Deyinə-deyinə sərnici tapmayıb əlini ilişdirdi badyaya, yollandı inəyi sağmağa. Tövlənin qapısını açıb danaya doğru tələsəndə, əqrəb çalmış kimi həşirlənib həyətə qaçdı.

- Vay, başına kül olan canım, buzov pəyədə yoxdu! – Yüyürdü Hacağanın üstünə.

- Arvad, başına hava gəlib, nədi, bəlkə heyvanı heç içəri bağlamamısan, çöldə qalıb, qurd-quş aparıb? Dana pəyədən necə yoxa çıxa bilər?

- Əllərim qurusun, a kişi, çöldəki novda suvardım, gətirib mıxa bağlamışam, uşaq-zadam, bəyəm?

- Sən vurmadın, mən yıxılmadım. Bəlkə quş olub göyə uçub, ya qurd olub girib yerə? – Ərlə-arvard həyət-bacanı ələk-vələk elədilər, danadan əsər-əlamət tapılmadı. Hay-küyə toplanmış qonşulardan biri, nəyisə pusurmuş kimi, yerə baxa-baxa yaxınlaşdı Hacağaya.

- Hacağa qağa, tövləyə ayağı çarıqlı adam girib, budur ey, ayaq izləri, baax! – Hacağanı fikir götürdü: əgər tövləyə oğru girib-sə, bəs dananın ayaq izləri hanı? Xeyli düşündükdən sonra yollandı axşamkı dostlarının dalınca. Yol boyu özünü hey lənətləyirdi: «dostlarımı hansı üzlə oğru bilim?» Addımladıqca yerə baxırdı. «Mən onlardan necə şübhələnim ki, yolda ancaq çarıq izləri var». Vaysına-vaysına özünü yetirdi Sofular kəhrizinin keçaltına. Birdən elə çığırdı ki, elə bil yanındakılara şikayətlənirdi.

- Vay, dədəm, vay, məni qara basır, ya yox, arxın qırağında çarıq izlərilə dananın da ləpirləri axşamdan dayanan qarın üstündə aydınca görünür! Bu ola bilməz,o boyda heyvan bura qədər göylə necə gəlib? – Deyinə-deyinə çatdı Əmirin həyətinə. Hacağanı gör-cək Əmirlə Məmmədxan əllərini-əllərinə şappıldadıb bərkdən uğundular.

- Sizə and içirəm, əgər bu sizin əməlinizdisə, heyvanım hala-lınız olsun. Amma əvvəlcə başa salın görüm, onu bura necə gətir-misiniz?!

- Hacağa, bu dana əhvalatı bizi bir-birimizdən ayıra bilməz. Bu, Əmirin sənə vermək istədiyi dərsdi. Dostu itlə qarşılamazlar, axı! – Nəyə işarə olunduğunu anlayan Hacağa güldü.

- Mən əllərimin dalını qoydum yerə. Di salamat qalın.

- Elədirsə, uşaqlardan birini də götür, dananı sürsün dalınca. Yolun açıq olsun, qardaş. Sözümüzü şəkərlə kəsək.

- Yox, bu kişilikdən deyil, dananı sizə halal elədim, axı. Öl-dürsəniz də aparan deyiləm. Dostluğu pozana lənət! Allah amanın-da qalın. Yola düşməzdən əvvəl əl tutuşub öpüşək…

- Ananı baladan ayırmaq günahdı, Hacağa, sən yolundan qal-ma, malı tövləyə dolduranda dana boz eşşəyin belində qapında ha-zır olacaq, inan…

- Ay oğul, bacarsaydım, Tərs Əmir haqda iri kitab bağlatdı-rardım, vallah.Onnan danışmağnan qurtaran deyil, lap uşaqlıqdan tanıyıram, ayrı-ayrı rayonlardan olsaq da… Oxunmamış kitab idi, bədbəxt.

…Horadiz kəndindən bizim kənddəki uçillik urus-tatar mək-təbində Əbil bəy adında bir üçtel işləyirdi. Çox vaxt sinifə özüylə

çubuq, torbada əhəng gətirirdi. Əreseyin buralarda at oynadan vaxtı idi. Şagirdlərdən birisi urus sözlərini Əbil bəyin istədiyi kimi deməyəndə, torbanın ağzını açar, uşağın üzünü torbaya tuşlayar, çubuqla gah uşağı, gah da torbanı döyəcləyirdi. Əhəng tozundan az qala boğulan Əmir ha çalışdı ki, «lyublyu» desin, Əbil bəy «yubu» eşidirdi. Əbil bəy minirdi cin atına, ağzına gələni yağdırırdı onun ünvanına. Gözlərini ovxalaya-ovxalaya Əbil bəyin əlindən qoparılaraq bayıra qaçan Əmir qapının ağzındaca öyüdü, içindən gələni əndərdi və zarıya-zarıya dırcıdı evlərinə.

- Ey, mırzaves, hara qaçırsan, həlbət əlimə düşərsən ha… Ətini kəsib, sümüklərini qırmaq mənə borc olsun, şenok! Ya tebe pokoju! – deyib qımırla otaqdan çıxdı. Elə bu gündən də Əmir «iti görüm, qurdu görüm, beləsini görməyim» dedi. Yolda-irizdə ha çalışdılar dilə tutsunlar,alınmadı. Atasının qorxusundan xeyli müddət qonşu kənddəki dostlarının yanında gizləndi. Oğluyla dil tapa bilməyən dəmirçi Əbil üçtel Əbil bəyə üzürxahlıq elədi:

- Nə deyim, ay üçtel ağa, beş-on sözdən ötrü uşaq evdən dərbədər olub. Görünür, oxumaq ona qismət deyil, yazısı beləymiş, məhlim. Mən də bilirəm, siz Niqalay ataya söz vermisiniz ki, bizlərdən də urus dilini bilsinlər. Qanmazın üzü qara olsun, olan-qopan bir balamdı, bağışlayın körpəmi.

Beləcə Əmirin məktəbi bağlandı. Qoyun-quzunu dalay-dalayla kövşənə aparar, gününü keçirərdi. Bir dəfə arxasıqaltda uzanıb Araz tərəfdən Ziyarata doğru veyil-veyil uzanan ağ bulud laylarına baxıb, zümzümə edirdi, babasından öyrəndiyi kimi:

Hey dolaşıb göy üzündə gəzirsiz,
Ay buludlar, bəlkə bir az durasız.
İmkan tapıb qatar-qatar üzürsüz,
Bəlkə məni axtarısız, ararsız?

Qol-qanadsız uçub hara gedirsiz,
Kimlər sizi küsdürübdü, buludlar?
Sizi görcək məni dilsiz edirsiz,
Sizdən ötrü sudan çıxar balıqlar.

Qovalayar atam məni,
Əl uzadıb tutun məni.
Qoynunuzda yuxu yatım,
Zirvələrə atın məni.

Qəflətən eşitdiyi ayaq səsləri Əmiri yerindən oynatdı.

- Ədə, bivec oğlu, bivec, elə bilirsən məndən qaçmaqla canın qurtaracaq? Niçevo podobnovo. Adamı belə yerdə xırxalayarlar, ey! Niyə dərsə gəlmirsən? Bəlkə yüzbaşıya, ya da canişinə xəbər verim, bilirsən onda nə olar?

- Üçtel bəy, nə sizdən, nə də başqalarından qorxmuram. Dərsinizə də gəlməyəjəm. Sizdən müəllim olar, adamı heyvan kimi döyürsünüz.

- İt küçüyünün dilinə baax, mənimlə qaşıq döyüşdürür! – Elə Əmirin yaxasından yapışmışdı ki, itini hayladı.

- Qarabaş, Qarabaş, al gəldi, ha! – fiş gözləyirmiş kimi Qarabaş bir göz qırpımında cumdu gözlənilməz qonağın üstünə. Özümü yetirməsəydim, kim bilir nələr olacaqdı. İşin belə olacağını gözləməyən üçtel Əbil dalına baxa-baxa uzaqlaşdı…

- Əmir, ay Əmir, səni çərləyəsən, gözlərin niyə yumulur, körüyü bas, yoxsa ocaq sönər, işimiz zay olar! Şər qarışana kimi xışların, gavahınların ağız-burnunu düzəltməliyik, əlini tez tərpətsənə! – Atası Əmiri də dəmirçiliyə öyrətməyə çalışırdı. Hərdən sanki oğluna vəsiyyət edirdi, ağı qaradan seçməyə öyrədirdi ki, naçar qalmasın.

- Haqlı olsan, heç kimə baş əymə, amma çalış başqasını da eşit, yoxsa səbirsizliyin ömrünü cəhənnəm odunda yandıracaq, sözlərimi unutma, bala…

İllər təsbeh dənələri kimi bir-birinin dalından dəyir, Əmirin yeganə övladı Sarvan həddi-buluğa yetişirdi. Buna görə də Əmir gözündən kənarda, dizindən uzaqda dolanmasını istəmirdi bircəsinin. Nədənsə bu ocaqlıqda həmişə övlad tək olurdu, elə bil əlini əsirgəyirdi Yaradan. Onuncunu qurtaran Sarvanın, uşaqlığındakı kimi, saçlarını sığallayar, üzündən, gözündən öpər, çiyinlərinə göz yetirər, sanki ölçürdü boy-buxununu. Hər hərəkətinə göz yetirər,

fərəhindən qanad axtarardı ki, sevincini göydə gəzişən buludlarla bölüşsün. Həvəsini, istəyini duymasınlar deyə özü yonub düzəltdiyi iri güşə daşları bir yerdən başqa yerə daşıyar, qalaqlayardı. «Oğluma elə ev tikəjəm ki, baxanların gözləri qamaşsın, ağzının suyu yaxasını bulasın». Gülümsəyə-gülümsəyə düzüb qoşduğunu səsləndirərdi hərdən:

Sənə qurban olum, yaradan Tanrım,
Cocuğumu bədnəzərdən hifz elə.

Aylar ötüşür, zaman dəyişir, arzular gerçəkləşirdi. Qüneytəpə kəndində elliklə yığışıb tikdirdikləri məktəbdə səs-səsə verib quş kimi cəh-cəh etməyə çalışan körpələr böyüdükcə, qayğılar da artırdı. Sevinə-sevinə rayon mərkəzinin böyük mağazasından alıb gətirdiyi qəttəzə qara rəngli kostyumu oğlunun əyninə geyindirib məktəbə göndərdiyi gündən illər keçirdi. Əmirin Sarvanı da aldığı qiymətlərdən fərəhlənir, atasının öyüd-nəsihətlərinə sadiq qalacağına ümid yaradırdı…

Yoldaşlarından aralanmağa çalışan Sarvanın qabağınca başqalarından xəlvəti nazlana-nazlana yeriyən qonşu qızı Leylini görəndə Əmirin ürəyi elə çırpınırdı ki, sevincindən «ay uşaqlar, bir-birinizə necə də yaraşırsınız!» qışqıracaqdı. Sağ əlini bərəyəsinin küncündə əkdiyi sərv ağacına dirədi, nəfəsini dərdi, yüyürüb arvadı Sərvinazı hayladı.

- Səri, Səri, ay Səri, üzün gülsün, gəl bəri! Gözünə su ver!.. Gör laçınımızın qabağınca kim gedir! Necədi, xoşuna gəlirmi? (Əmir həm gec evlənmişdi, həm də yaşıdlarından xeyli gec övlad sahibi olmuşdu).

- Əə, ətin tökülsün, uşağın ağlına söz salma, balamızın nə vaxtıdı hələ. Bir də, ay Əmir, Sarvanı Bakıya oxumağa yolla, qoy əməlli-başlı kişiləşsin, iş sahibi olsun, sonra belə şey barədə fikirləşərik. Uşağın beynini pozma indidən. O vaxta qədər kim bilir, nələr olacaq.

- Nə deyirsən, de, amma Leylidən keçməyəjəm, öldü var, döndü yoxdu. «Həəsini» alıb nişan taxarıq, olar bizim. Onun sona yerişi, durna baxışı, ifallılığı məni dəli edir. Vallah, oğlumuza elə

yaraşır ki, lap iki yerə bölünmüş bir almadılar. Sən gəl belə bir fənd işlət: Sarvanın saqqalının altından keç, gör atılıb-düşmür ki. Qız tərəfini keç mənə, yaxşımı?!

- Eh, sənin sözündən çıxmaqdansa, ölüb yoxa çıxmağım yaxşıdı. Allah deyən olsun, görək nə olur.

Əmir gecələr rahat yata bilmirdi, elə hey qarış-quruş yuxular görürdü: gah toy çaldırır, gah uzaq səfərə gedir, gah da… «lənət şeytana, bu yuxular xeyirə calanaydı, barı» - hirslə üstündəki yorğanı qolazlayardı kənara. Yolda-irizdə key kimi yeriyirdi. Sanki kimsə onu tələsdirirdi: tez ol Sarvanın əl-ayağını bir yerə yığ, söz-söhbəti kəs. Yıxılıb ölərsən, arzun-kamın ürəyində qalar. Nə bilmək olur talehin sirrini.

Sarvanı güc-bəla ilə yola gətirdilər ki, Leyliylə evlənsin, nişan-zad lazım deyil: düşər-düşməz olar. «Erkək atın, toyluq qoçun, nişanlı qızın oğrusu qulağının dibindədi». İnsafən, Leylinin dul qalmış atası Səfər də Əmirə «yox» deyə bilmədi, çox hətərən-pətərən danışsa da. Hərçənd o da üstündəki «ağırlıqdan» qorxurdu: «Qız yükü – duz yükü, qaldıqca ağırlaşar», - fikirləşirdi. Əmirlə Səfərin izdivacını eşidənlər «Ay mübarək, ay mübarək! Birlikdə qarısınlar, oğullu-qızlı olsunlar»» - deyirdi. «Oğlan igid, qız qəşəng» deyənlər də olurdu.

Qonşu rayondan çağırılmış el çalğıçılarının arasında səs-sorağı obalara yayılmış Aşıq Alay da vardı. Tərif-tərifə calanırdı. Belə çal-çağırdan ötrü hamının qulağı səsdə, gözü yoldaydı. Hamı ürəkdən sevinirdi Əmirin həyətində özünün ağsaqqallıq etdiyi bugünkü toya.

Aç duvağı, bəyim görsün üzünü,
Ağsaçlının el eşitsin sözünü,
Doğru bilin, aşıq deyir düzünü,
Bəy gəlinə, gəlin bəyə yaraşır.

Bin-bərəkət o evlərdə olar ki,
Böyük-kiçik olan yeri biləsən.
Şan-şöhrətin o ellərdə qalar ki,
Gəlin bəyin haqq sözünü danışır.

Sizi görüm bəxtəvərlər olasız,
Ev-eşikdə hünərvərlər olasız,
Könüllərdə «elsevərlər» qalasız,
Küs etməzlər, hamı sizlə barışar.

Bəy gəlinin, gəlin bəyin yarısı,
Hər ikisi bir yaşasın, qarısın.
Hamı desin «Tanrım versin varisin».
Təzə yurdda tez qaynayın, qarışın…

Qoluna qırmızı kalağayı bağlamış toybaşı «sağdiş»lə «soldiş»ə göz vurdu ki, bəyi ortaya çəksinlər. Bəy ayağa qalxınca onun qarşısında qurulmuş «bağdan» qırmızı alma asılmış şaxı silkələyən Qulunu çəkdilər «cəzaya»:

- Ey, cavan oğlan, gözünü qan örtüb, nədi, nə cürətlə bəy bağından oğurluq etmək istəyirsən! – Qulunun qollarını burub kürəyini verdilər «bağbanın» çubuğunun altına. – Tez ol cərimə ödə, yoxsa «cəlladı» çağıraram.

- Qurbanınız olum, bir səbət balam var, öldürməyin, kürəyim yandı, cərimənizi ödəyərəm!

- Bir yaşıl otuzluq ver, özün də oynayacaqsan!

- Bir şərtim var, qoy aşıq Alay bir ağız da oxusun, bu da sizin cəriməniz, - almanı basdı ağzına, başladı süzməyə. – Gözünə dönüm, aşıq Alay, söz sənindi!

Tanrımızdan arzum budur, bəy gəlinlə düz olsun,
Şad yaşasın elimizdə, hər biri ulduz olsun.
Bir-birinə məhəbbəti, sevgisi hədsiz olsun,
Bəy gəlinlə birlikdə ömürləri yüz olsun.

Yalqız qoyma yarını, tez saralar, tez solar,
Şeytan dolar qəlbinə, aralıqda söz olar.
Bel bağlama səhv eşqə, onun ömrü az olar,
Təmiz əhdlə, peymanla ötən həyat yaz olar.

Arzum budur, qoy deyim, hər işdə qalib olaq,
Tez-tez toyda-büsatda sevinib, gülüb qalaq.
Aşıq Alay söz desin, qol götürüb oynasın,
Diləklər çiçək açsın, həyat coşsun, qaynasın.

-Aşıq qardaş, görüm səni yüz yaşa, mən də iki əlli! – Qulu kürəyinə dəyən çubuqlardan dingildəyə-dingildəyə özünü saldı məclisin küncünə. Gecədən xeyli keçməsinə baxmayaraq çal-çağır səngimirdi. Əlindəki çubuğu yellədə-yellədə ortaya çıxan toybaşının aralığa çıxmasından azacıq da olsa sakitlik yarandı.

- Əzizlərim, hamımız Usta Əmirə «Gözlərin aydın, toyun mübarək, Sarvanla Leylin xoşbəxt, oğullu-qızlı olsunlar!» deyirik. Bəyimizin «yuxusu gəlir», - çalğıçılara göz vurdu. Marş səsi məclisi sona səslədi.

Həyət-bacadan əl-ayaq yığışandan sonra Sərvinaz ayaqlarının ucunda gəlin gərdəyinə yaxınlaşdı. Utana-utana Leyliyə tərəf gəlib ipək duvağını qaldırdı. Lampanın işığında başını qaldırıb qaynanasına utancaqlıqla baxan Leyli dağ döşündəki hürkək ceyranı xatırlatdı. Xumar gözləri qaranlıq otaqda yanan şam işığı kimi sanki indicə şöləlænəcəkdi. Kənardan baxan olsaydı, Sərvinazın titrəyən əllərini hökmən görərdi: öz gəlinlik gecəsi yadına düşmüşdü. Ürəyi ağzından çıxacaqdı Leylinin duvağını qaldıranda. Sinəsinin sol tərəfində gizlətdiyi bükülü dəsmaldan yanaqlarına lalə rəngi «çəkilmiş» iri Quba almasını gəlninə uzatdı, guya ki, yaxınlıqdakı sinidəkindən xəbəri yox idi.

- Xoşqədəm olasan, qızım. Bu almanı əvvəlcə Sarvanımız, sonra da sən dişləyin. Barlı-bəhrəli olasınız, əhdiniz çiçək açsın, İnşallah!»

leyinin yanaqları səhər günəşinin şəfəqləri kimi allandı. Özü də istəmdən qıcıqlanmış burnunu ovuşdurdu.

- Bu olan işdi, qızım, yengə otağınızda üzərrik yandırıb ki, bədnəzərdən uzaq olasınız. Qoy səni öpüm, bir balam vardı, sən gəldin, oldu iki. Tanrım sizi ayırmasın. – Gəldiyi kimi də otaqdan çıxdı Sərvinaz, sevinə-sevinə.

Arxasında Leylinin gözlədiyi bər-bəzəkli gərdəyi görəndə, Sarvanın ürəyi elə döyündü ki, elə bil quş olub uçacaqdı yayın ulduz dolu səmasına. Öz şərəfi qədər sevdiyi qızın ümid dolu baxışları lal kimi dikilmişdi Sarvana. Nişanlısının təbəssümü onu ürəkləndirdi. Bir söz demədən bir-birinin sinəsinə sıxıldılar, sədaqətlərinə inandıqlarını göstərməyə çalışdılar, özlərini dünyanın ən bəxtəvəri sandılar, xumarlana-xumarlana. İmkanları olsaydı, heç nəyə məhəl qoymadan civildəşən qaranlıq cücülərinin dodaqlarını ətir saçan barmaqlarıyla tutardılar: «Tss!».

Səni məndən, məni səndən ayırammaz külli-aləm,

Əyilmərəm, məhv olaram, ölümümlə sənə gəlləm! – dedi Sarvan və ömründə ilk dəfəydi ki, tam arxayınlıqla Leylinin ağuşuna atıldı. Leylinin titrəşən barmaqları Sarvanın üzünü sığalladı.

Ürəyimiz qəlbimiz,
Qırovdan, şehdən təmiz.
Könlüm təkcə sənindi,
Kor olsun düşmənimiz.

Əzizinəm, nar görsəm,
Heyva görsəm, nar görsəm.
Gözlərim pərdələnsin,
Səndən qeyri yar görsəm.

…Alatoranlıqdan başları iş-gücə qarışan kənd əhli elə bil yayın vurhavurundan, cırcıramaların haray-həşirindən xəbərsiz idi: macal tapmırdılar ki, özlərinə azacıq da olsa sığal vursunlar. Adamlar qovhaqovla məhsul toplamaqdan ötrü gecəni gündüzə qatmışdılar, yeriyən kim, yüyürən kim.

Dünyanın çarxı öz əməlindəydi, sular dənizlərə, göllərə tələsirdi. Beləcə bir vaxtda kəndin ən hündür təpəsindəki dağdağan ağacından asılmış qalın, saca oxşayan dəmir parçasını döyəcləyən kolxoz idarə çavuşu Şura Bayram adamları işə çağıran zəngin sədasını batıracaqmış kimi həyəcanla bağırırdı:

- Ay camaat, kolxoz idarəsinə tələsin, ey… irayonnan hökumət adamı gəlib, vacib xəbər var, ay camaat, hey!!! Eşidirsiniz, ay camaat?!

- Bu nə danışır, əə?.. Nə xəbər, nə hökumət! Ayə, hara tələsirsiniz? Kövşənə yenə od düşüb? Vayy, evi yıxılan canımız, olan-qoranımız əlimizdən çıxacaq! Yurdun tarmar olsun, mərdimazar, qapın çırpılsın! Nə işdi, düşdük ilin-günün bu vaxtında…

Hamının zəhləsini tökən qara bulud sanki güdükdəymiş: tufan qabağına keçəni silkələyirdi. Tozanaqdan gözlərini güclə açanlar idarəyə doğru axışırdı.

- Əmir dayı, deyirlər, hökümətə nəsə olub, ey!

- Ağzını yum bala, sən hökuətdən qorxma, Sitalin baba olan yerdə heç kəs bizə toxunmağa cürət etməz. Gedək, görək nə xəbərdi.

Çiy kəpicdən tikilmiş, üstü qarğı-qamışla örtülmüş, qara palçıqdan divarlaına suvaq çəkilmiş kolxoz idarəsinin həyətində iynə atsan, adam əlindən yerə düşməzdi. Adamlar kəlmələşməkdən belə ehtiyatlanırdı, lal kimi bir-birinin üzünə baxır, dəhşət baş verdiyini hiss edirdilər. Əlihüseyn kişi də maddım-maddım baxırdı həmkəndlilərinə. Əynində yaşılı rəngdə hərbi geyimi olan ucaboylu birisi enli kəmərini bərkitdi, köynəyinin arxasını aşağı dartdı, özünü tarazlayıb üzünü tutdu yığışanlara tərəf.

- Hörmətli qaragüneyililər, üstümüzə gürçat tökülüb: lənətə gəlmiş hitlerçilər ölkəmizə hücum edib, müharibəyə başlayıb. Yeri-göyü oda tutub yandırır, insanları nizədən keçirir, hər şeyi yerlə-yeksan eləyir.

- Hitlerçilər kimdi, ay bala? – dülgər Şükür yanındakının qulağına pıçıldadı.

- Dayan, görək, sonra deyərəm, - yaxasındakı beşguşəli ulduzda Leninlə Stalinin başları görünən oğlan qocanın sözünü ağzında qoydu.

- Uzun-uzadı danışmağın vaxtı deyil, ölkəmizi qudurmuş almanlardan qorumalıyıq! – «qudurmuş almanlar»ı elə nifrətlə dedi ki, yanında olsaydı, boğazlarını dişiylə qopardı. – Hamı Vətən uğrunda, atamız və şanlı rəhbərimiz Stalin uğrunda döyüşə hazır olmalıyıq!

Kolxoz idarəsinin təsərrüfat alətləri, laydırları, təkərləri qırılmış arabalarla dolu olan həyətindəcə kiçik masa qoydular. Üstünə qırmızı parça saldılar. Hərbi geyimli üç zabit (onları belə adlandırırdılar) əyləşdilər usta Şükürün düzəltdiyi dördayaq kətillərdə. Sancaqları qırmızımtıl qələmlərini hazır tutub adamların sırayla yaxınlaşmasını təvəqqe etdilər.

- Yaşı on doqquzdan otuza qədər olanlar masaya yaxınlaşsın! Sovet sədri, adamları sıraya düzün, yaxınlaşdıqca ad-familini desinlər, qeyd edək.

Çiynindəki baş barmaq boyda ulduzu parlayan keçdi masanın başına.

Sarvanla Leyli də çaş qalmışdı, hamı kimi, dinməzcə dayanmışdı yaxınlaşanların arasında. Sarvan üzünü gizlətməyə çalışsa da, Leylinin rənginin ağardığını açıq-aydın görürdü, ovundurmaq üçün heç nə deyə bilmirdi…

Tələm-tələsik bişirdiyi təndir çörəyindən dördünü, bir az duzu, iki baş soğanı, bir yumru pendiri, bankaya doldurduğu qovurmanı dəsmala büküb həybəyə qoyandan sonra, Sərvinaz bayaqdan onun hərəkətlərinə göz qoyan Əmirin və Sarvanın üzünə baxıb köksünü ötürdü, aralıda heykəl kimi dayanmış Leylinin boynunu qucaqladı, pərişan hörüklərini sığalladı, başını aşağı dikdi.

- Qəzavü-qədərdən qaçmaq mümkün deyil, əzizlərimiz. Yeganə xahişim budur ki, (üzünü tutdu Sarvana), nahaqdan özünü oda atma. Bizi unuda bilsən də, Leylini göz önündə gör, əhdi-peyman etmisiniz. Bir də, ay oğul, «elnən gələn toy-bayramdı» deyiblər müdriklərimiz. Allaha təvəkkül, nə edə bilərik, - doluxsundu. Əmirin gözü baxa-baxa Sarvanla Leylini qucaqlayıb üzvlərindən öpdü; həybəni çiyninə salıb atasının yanınca addımlayan Sarvanı kəndin aralıq yerində toplaşan çağırışçıların yanına yola saldı. Sərvinazı anası kimi qucaqlayan Leyli deməyə söz tapa bilsə də, susurdu.

Axşama yaxın Sarvanla birlikdə Qoşqar, Mahmud, Rüstəm, Pənah, Şaxı və daha kimlər hay-hayı getmiş, cındırından cin hürkən «polutruka»nın «kürəyinə» toplaşdılar. Gözlərdə hicran, üzlərdə təlaş, qorxudan başqa nə görmək olardı oğullarını orduya yola salanların yanaqlarında! Başlarının üstündə dolaşan buludlara baxıb

ağlayanlar, yaşmaqlarıyla gözlərini gizlədənlər arasında vücudu payızın sısqa yağışından saralmış yarpaq kimi titrəyən Leyli də görünürdü. Hıçqırtısını duymasınlar deyə budaqlarının «əlvida, əzizim» deyirmiş kimi «pıçıltısını» telefon dirəyindən asılmış qara məftilin küləkdən səslənən uğultusuna qarışdıran yarıqurumuş çinarın altında dayanmışdı Leyli. Gəlininə toxtatmaq üçün yaxınlaşan Sərvinazın şəvə saçlarından sallanan bozarmış tellərini görəndə, gəlinciyəz dözmədi, gücü gəldikcə bərkdən hönkürdü, səsi arxasınca qara tüstü buraxan maşının zarıltısına qarışdı. Onlara yaxınlaşan qaynatası Əmiri gördü, üzünü «ana» dediyi Sərvinazın sinəsinə elə sıxdı ki, yıxılmasın deyə ondan yapışdı. Çiyinlərinə səpələnmiş saçlarını bəzəkli kəlağayısının altında gizlətməyə çalışan Leylinin qolundan yapışan, doluxsunmuş buludu xatırladan qaynatası gəlinini ovundurmaq üçün söz tapa bilmirdi. Bir vaxtlar dəyirman daşını qucaqlayıb yerindən oynadan Əmir bir həftədə yumağa dönmüşdü. Himə bənd idi, leysan yağışına dönüb sel kimi axmaq istəyirdi, aciz idi başına gələnlərdən.

- Səni anlayıram, qızım, qanadı qırılmış quş kimiyəm! – Dözmədi dəmirçi Əmir talehinin vurnuxmasından. Üzünü tuta-tuta yollandı tikintisi yarımçıq qalmış təzə evinə.

Gizli bir səs Leylinin qulaqlarını hey didikləyirdi: «Qınayan olmasa, sənin dalınca…» - istədi «davaya» desin, yadına düşdü ki, onu davaya qoymazlar.

Günlər həftələri əvəzləyir, Əmirlə Sərvinaz çalışırdılar ki, Leylinin sifətində təbəssüm işartıları görsünlər, alınmırdı. Həyat onun gözündə qoz qabığına dönüb suyun axarında hoppana-hoppana uzaqlaşırdı. Yetimliklə böyümüş Leyli özünə qapılmışdı. Bir tərəfdən də atasının yalqızlığı yazığı nar kimi sıxırdı. «Nə edəcəyəm ki, çalxalanan dünyada qəddim bükülməsin» - fikirləşirdi.

…Kənd soveti sədri Ağayar babanın (bir az savadı vardı) təklifilə kolxoz sədri Əlihüseyn Leylini (əlbəttə Əmirlə Səfərin razılığıyla) kənddə nə vaxtdan bəri sahibsiz qalmış kitabxanaya müdir təyin etdirdi. Daha Leylinin başı işdən ayrılmırdı. Alaqaranlıqdan ev işlərinə əl uzadar, atasına baş çəkər, kitabxana həyətində yolunu gözləyənlərə özünü yetirərdi.

- A qızım, irəyöndan bir topa qəzet yollayıblar, al, onlardan camaatımızı da xəbərdar elə, axı sən komsomolçusan, səriştən olmalıdı, - Sura Bayram salam-kəlam eləmədən sübh tezdən əsgər cəldliyilə yağdırdı qabaqdangəlmişliyilə.

- Baş üstə, Bayram baba, çalışaram. – Məktəblilər Leylini dövrələdilər. Elə bu vaxt uşaqlara yaxınlaşan kolxoz sədri, ağsaqqallıqda hamıya görk olan Əlihüseyn kişi aralıda dayanmış Əmiri salamladı.

- Əmir qağa, arabalardan üçünün təkərlərinin qurşağı qopub, onları qaynaqlamaq olarmı? – Yadına düşdü ki, dəmiri qaynaqlamaq üçün zəylə naşatır qarışığı çətin tapılır. – Hə, yadımdan çıxmayıb, tapşırığın. Qonşu kolxozdan bir qədər tapmışam, indi gətirərlər sənə. Köhnə mis sənək, ya da məcməyi qırıntısını tapmaq sənin işindi. – Duruxdu, barmağını gicgahına tuşladı. – Bərəkalla, komsomolçu qızlarımızdan qocalar razılıq edirlər, əhsən beləlderinə! Ot kökü üstə bitər, dəə. – Mehtər Aşırdan atın cilovunu aldı, yəhərdən yapışıb, ayağını çatdırdı üzəngiyə, mindi Qısqanın belinə. «Dəhəə!» - demişdi ki, tozanaqlayan Qısqa üz tutdu kövsəndəki biçinçilərin yanına.

«Qara poyuzun» çağırışçı dolu vaqonları «kuff-kuff»la dartıb apardığı gündən bir neçə ay keçsə də, gedənlərdən xəbər-ətər gəlmirdi: hamının gözü yolda, qulaqları səsdəydi. İşlərini yerbəyerdən sonra kitabxanaya tələsən Leyli Şura Bayramın hövlnak halda qoltuğunda qəzet, əlində bir topa məktub ona yaxınlaşdığını görəndə, qılçaları sözünə baxmayıb əsməyə başladı. Az qala yıxılacaqdı, hərgah qoca çavuş onun qolundan yapışmasaydı.

- Özünü ələ al, qızım, axı, cavansan. Al, məktublardan sənə olanı varsa, aç, oxu, görək, nə yazıblar. – Doğrudan da Sarvandan məktub vardı. Üçkünc məktub çox adda-buda həriflərlə yazılmışdı, karandaşla. Elə bil hərifləri ayaqüstü sıralayıblar, çox səliqəsiz yazılmışdı.

- Leyli can, dillənsənə, bala, indicə ürəyim «pırr» eləyib ağzımdan çıxacaq, bərkdən oxuyub bizə də danışsana! Bax, adamlar xəbərə yığışırlar. – Leyli özünə aid olanı saxlayıb ordan-burdan kəkələməyə başladı: «Mənim əzizlərim (adları oxumadı), bizə

silah-sursat verib döyüşə hazırlayırlar. Harada olduğumuzu yaza bilmərəm. Mənnən narahat olmayın. Sizi arxayın edirəm ki, üzünüzü qara etməyəcəm. Əlimdəki silahımı heç vaxt kimsəyə verməyəcəm. Xudahafiz».

Leylini dövrələyənlər sanki ağır yükü aşırıb altından qalxdılar. Məktubu sinəsində gizlədən Leyli az qalırdı ki, axşamın qollarından yapışıb kəndin üstünə dartsın: öz yatağına çəkiləcək, çırağın şöləsini artıracaq, yazılanları yenidən oxuyacaqdı, dönə-dönə. Səhərin qapını haçan döyəcləyəcəyindən narahat deyildi. «Səhərlər axşamlardan yüngül keçir», deyirlər…

Üçkünc məktublar yavaş-yavaş seyrəlirdi. Qızmar günəş qarşısına keçəni qarısıyır, qaxaclayırdı. «Quraqlıq olmasaydı, görəsən, həyat necə olardı». Bir il də insanlar zülmə qatlaşdılar. Davadan gələn «qara kağızlar» adamları cəhənnəm oduna qalaq edir, gözlərini çuxura salırdı. Çoxlarının qəddi əyilmişdi. «Nəsliniz-nəcabətiniz sevinməsin, a dava qatanlar, gülüş səsinə həsrət qalasınız! İnsanların qarğışına tuş gələcəksinizmi, «dünya mənimdir!» deyənlər?!» - fikirləşirdilər.

Sən saydığını say, gör dünya necə fırlanır. Kimlər sevinir, kimlərinsə gözləri günəş işığından yumulur, Yer kürəsinin məhvərindən sürüşəcəyi günü səbirsizliklə gözləyirdi. «Əhdinə çatmayasan, ay beləsi!» - Əmir hey deyinirdi, yuxusu ərşə çəkilib, oturuşu gəlmirdi…

Olan-qopandan atasına da pay aparan Leyli qıvrıla-qıvrıla qalmışdı ata eviylə ər evinin arasında. Bilmirdi, necə davransın ki, «nə şiş yansın, nə kabab». Elə Əmirlə Sərvinaz da səksəkə içindəydilər: «Düşünülməmiş bir söz, ya hərəkət gəlinimizi hürküdər, qaçar atasının yanına, el qınağına düşərik. Onda gərək od vurub özümüzü yandıraq».

Əmir Səfəri dilə tutub evləndirmək istəsə də, «mən ölənə qədər Minarənin ruhunu incitmərəm, onun yorğan-döşəyinə başqasını buraxmaram», - demişdi.

- Səfər qağa, axı bizim də yeyib-içdiyimiz canımıza yatmır! – Daş dillənər, Səfər qımıldanmazdı. – Gəlsənə, köçək bizə, yaxın qohumuq, vallah, qızın da razı olar! Biz ki, qardaş kimiyik.

- Yox, canım, hamı yaxşı bilir ki, «el elə sığsa da, ev evə sığmaz». Öz çırağımın işığını söndürmərəm.

Ər-arvad qalmışdı əlacsız. Yenə bir ilin axırı çatdı, amma bəla bəlanı əvəzləyirdi: qıs-qıvraq yerişləri, təmkinilə çoxlarına barmaqla göstərilən Səfər kişi qəflətən düşdü yatağa. Ha dava-dərman eləsələr də, ara həkimləri çağırsalar da, hərarətini endirə bilmədilər. Üzünə heç nə gətirmirdi. Əlihüseyn kişi heç olmasa bir həftəliyə Leylinin işə çıxmamasına razılıq verdi: «Sərvinaza da kömək olar». Səfərin durmadan sayıqlaması, təndir kimi «odlanması» onun axırından xəbər verirdi. Üç gün də beləcə keçdi. Gecədən xeyli ötmüşdü Səfər canını yaxınlıqdakılara tapşıranda. Rəhmətliyin kəfənə tutulub Minarənin yanındaca torpağa tapşırılması çox çəkmədi: işlərin elə ağır vaxtı idi. Birisi belə sonluğa heyifslənsə də, başqası – «əzabdan canı qurtardı» - dedi. Bu ölüm hamıdan çox Leyliyə divan tuturdu. Heç olmasa onunla bölüşərdi ürəyindəkiləri, darıxanda. Gözünü yaxınlıqdakı qoca söyüdün sallanan uzun pöhrəsinə zilləmişdi: külək döyəclədikcə yellənir, yenə də başını yerə tuturdu.

Səfərin «üçü» günü qonaq-qara Əmirə dil-ağız edib sağollaşanda, Əlihüseyn kişi Əmiri yanlayıb kənara çəkdi: Elə bil onun belinin şah damarını yoxlayırdı. Duruxa-duruxa nəsə demək istədi, amma fikrindən vaz keçdi, ürəyi gəlmədi. Arabadan, vəldən, öküzlərin nallanmasından söz saldı. Birdən özü də anladı ki, qəsdən yalan danışa bilmir. Nə vaxtdandı göyləri sarsıdan bir xəbəri gizlətdiyindən yamanca xəcalət çəkirdi, dili söz tutmurdu, sərsəri kimi baxırdı Əmirə. Əmir heç nə anlamayıb çiyinlərini çəkdi, öz-özünə deyindi: «Heç hənanın yeridi? Keçi can hayında, qəssəb piy axtarır».

Tənhalığa çəkilmiş Leyli kitab-dəftərlərə baxıb düşünürdü. Birdən Sarvanın göndərdiyi sonuncu məktub yadına düşdü. İstədi ki, ayrıdan oxusun, azca da olsa başını qarışdırsın. Salam-kəlamdan sonra yazılmış şeir parçasını sanki heç oxumamışdı.

A Leyli, Leyli, Leyli,
Tuş gəldi sənə meylim.

Sevdik, sevildik biz də,
Əhdimiz qəlbimizdə.

Söz verdik daim sevək,
Bir yaşayaq, bir ölək.
Yollanmışam davaya,
Etibar yox qovğaya.
Getdim, bəlkə gəlmədim,
Qalma məndən gileyli.

Susdu, susdu, susdu. Özünə rahatlıq tapmadı: dünya necə də ipi dolaşıq düşmüş kələfmiş. Əllərini sinəsində çarpazlayıb lal-dinməz oturmuşdu.

- Ağrın alım, ay qızım, əlini qoynuna qoymaq yaxşı əlamət deyil, çıx həyətə, mən də gəlirəm dalınca, birlikdə əkdiyiniz güllərin dibinə su kəsək, içsinlər. Bağcanı sərinlikdə sulayarlrar. Neçə vaxtdı başımız aynımır, az qalıb qurusunlar…

Səfərin «qırxını» da yola saldılar. Nə sovet sədri Ağayar, nə də Əlihüseyn kişi üstün örtmək istədikləri bəd xəbəri sahibinə çatdırmağa cürət etmədilər. Sarvanın son məktubundan çox vaxt ötmüşdü, amma döyüş vaxtı itgin düşməsindən evlərinə xəbər verən olmamışdı.

Şır-şırla axan kəhriz suyundan bir neçə ovuc üz-gözünə çırpıb qurulandı, qeydiyyat kitabını götürüb yola düşəndə, qaynanası səsləndi:

- Leyli,qızım, ağzına loxma da qoymadın, ac-acına işə getməzlər, bala, - yalvardı.

- İştaham yoxdu, nənə, qayıdanda yeyərəm, - bikefliyini hiss etdirdi. Təzəcə iş yerinə yaxınlaşırdı ki, kənddə şübhəli qıvxırtı eşitdi. Adamların ona doğru gəldiyindən şübhələndi. Əlindəki tarixi çoxdan ötmüş qəzeti Leyliyə verəndə, Dadaşəli kişi özünü ələ ala bilmədi: hönkürdü,heykəl kimi dayanmış komsomolçunun boynunu qucaqladı.

- Üstümüzə ayaq basmış belə müsibətlərdən canımızı necə qurtaraq, İlahi?

Qəzetdəki şəkildə əlində avtomat tutmuş Sarvanı görəndə, əvvəlcə baş verənləri anlamayan Leyli gülümsündü, istədi sevinsin, amma şəkili qamarlayan qara haşiyə sanki onu «yuxudan ayıltdı». Diksindi. Hannan-hana anladı. Saçlarından bir topa qoparıb dəlicəsinə bağıra-bağıra ata-anasının uyuduqları məzarlığa yön aldı.

- Məni niyə dünyaya gətirdiniz, ay bivəfalar! Sizə hansı lənətə gəlmiş elçilik elədi! Eyy!.. Açın qapılarınızı, məni də götürün yanınıza, daha yaşamaq istəmirəm! – Başını atasının qəbir daşına çırpıb huşdan getdi…

Vücudunun buza döndüyünü, başından axan qanın üzündə quruduğunu hiss edəndə ayıldı Leyli. Əvvəlcə bura necə düşdüyünü anlamağa çalışdı: hər yanda ağappaq geyimli saçlı, saqqallı adamlar başlarını əyib, dodaqlarının altında nəsə «danışırdılar». Güclə o yan-bu yana boylananda, «Ağız, vallah dəli olub, görmürsünüz?» - kiminsə yoğun səsini eşitdi. Ətrafdakılar Leylinin başına fırlanırdı. Gözləri əyiş-üyüşlə bərəlir, dodaqları dişlərinə sıxılırdı.

Neçə-neçə iynə-dərmandan da bir təsir alınmadı. Rayon ərazisindəki sayılıb-seçilən pirlərə, səcdəgahlara ziyarətə apardılar, amma Leylini huşdan ayılda bilmirdilər, Əmirlə Sərvinaz. Gözlərinin içinə baxıb bərkdən səsləyir, üstünə bağırır, çiyinlərindən yapışıb silkələyir, acı-acı hönkürürdü biçarələr. Leyli key-key onlara baxır, ağız-burnunu əyişdirir, sakitcə səslənir, hərdən də gülürdü. Həftələr ötür, heç nə dəyişmirdi. Əhvalatdan ətraf kəndlərdə də xəbərdar idilər.Naçar qalmış qaynanayla qaynata bilmirdilər başlarına haranın daşını salsınlar. Güc-bəlayla hərdən bir-iki qaşıq yeməyi yedizdirirdilər bu yaşlı «uşağa».

«Leylilərin» sayı get-gedə çoxalırdı. Tez-tez səslənən «şaxsey»lər adamları xırdaca təbəssümə tamarzı qoymuşdu. Onsuz da əldən düşmüş adamların belləri bükülür, səsləri kallaşırdı. Qəmkədər adiləşir, qaçılmaz sayılırdı, daha kimisə qorxutmurdu. Andıra qalmış radio qovşağından üzüntülü musiqi, bəd xəbərlər verilsə də, el-oba təsərrüfatdan soymurdu: «Əziz ölsə də, boğaz ölməz» deyimi öz işində, axarındaydı…

Dadaşəli kişi bu gün də Əmir gilə baş çəkməyə gəlmişdi. Hansısa kitabda «qəm-kədəri ya xoş, ya da bəd xəbər qovar» nəsihətini oxumuşdu. Xeyli götür-qoydan sonra ağlına gələni sınamaq istədi. Kitabxanaya lal kimi gedib-gələn Leylini ha danışdırmaq istəsələr də, dili söz tutmurdu. Onunla kəlmələşməkdən hamı ehtiyatlanırdı. Dinməzcə qəzet-jurnallara ötəri baxar, seçdiklərini ona göstərər, qeydiyyatdan keçirər, aralaşardılar.

Cavanlıqda kim söz qoşub, nəğmə oxumayıb, dosta, sirdaşa məktub yazmayıb (lap sevgi dolu). Sevdiyinə öz şəklini bağışlayanlar azmı olub!

Sarvanın «qara kağızı» gələn gün ev-eşiyin pal-paltarını, fərməşləri başqa otağa yığışdıranda qırmızı parçaya bükülmüş bir bağlama yerə düşmüşdü. Həyət-bacadan adamlar çəkiləndən sonra Sərvinaz bağlamanı çox axtardı, tapa bilməyib unutmuşdu. «Kim bilir, kimin əlinə keçib», - fikirləşirdi. Dadaşəli kişi fikrindən dönmədi: daha gözləmək nəyə lazım, əsil vaxtıdı.

Gəlinlə qaynana eşiyin başındakı günəvərdə oturmuşdu. Əmir isə eşməsinə qəsd edirdi: tüstünü içinə çəkir, oradaca yoxa çıxarırdı.

- Əmir qağa, gərək məni tutduğum işə görə bağışlayasan. Bir Allah bilir ki, qərəzli fikrim olmayıb. Qoy gəlnimiz də mənnən incimәsin. Bu bağlamanı it-bata düşməsin deyə öz evimizdə gizlətmişdim, elə bil məqamın gələcəyini gözləyirdim. - Cibindən bağlamanı çıxartdı. – Məndən başqa onu açan olmayıb, qibləmizə and olsun. Buyurun, alın. – dedi və ona tuşlanmış iki məsum gözciyəzdən üzünü yana tutdu.

- Allahım, nələr olur mən bədbəxttin həyatında, bu nə tale, bu nə sitəm! – Leyli uşaq kimi yerindən sıçrayıb bağlamanı Dadaşəlidən aldı və qışqıra-qışqıra yan otağa qaçdı. Həyətdəkilər mat qalmışdı baş verənlərdən: Leyli sevinir, yoxsa şivənə hazırlaşır? Əsası odur ki, səsi yenidən eşidildi Əmirin həyətində. «Mat qalım bu möcüzəyə, yoxsa qurban deyim!» - Dadaşəli kişi dinməz-söyləməz həyətin qənşərinə yollandı ki, uzaqdan olsa da Savalana, Üçqardaşa tamaşa eləsin, Xan Arazın haray-həşirini eşitsin.

Bağlamadakı şəkillərin ən əzizini tapdı Leyli: onuncunu bitirdikləri gün çəkdirmişdilər. Elə şən, razı, bəxtəvər görünürdülər ki, yoldaşları arasında Sarvanla Leyli, birlikdə, çiyin-çiyinə. «Niyə bizi ayırdılar, görəsən!» - fikirləşdi. Rayon mərkəzindən gəlmiş yaşlı şəkilçəkən Mahmud məktəbin gündoğanındakı iri tut ağacının altında görmüşdü hamısını birdən. Elə bil bu qocaman nəhəng ağac uşaqları qanadı altına almışdı, «bir-birinizi unutmayın, haa!» deyirdi. Şəklin altındakı beyti Sarvanla Leyli birgə yazmışdılar:

«Nə qədər ki, cismim sağdır, ürək sənsiz vurmaz, inan,
Bizi-bizdən ayırmağa güc eyləyər tək Yaradan!»

Kainat çalxanır, hayqırır, «Susun, insanlar, amma lal olmayın gördüklərinizdən!» - deyib imtahan edirdi hamını Leylinin gözündə. Əmirlə Sərvinaz oturaqlı qalmışdılar, lal, kar, «daşa dönmüşdülər». Leylini qəbirstanlıqdan qaytarmağa gələnlər, yəqin ki, bir vaxtlar onun komsomolçu gənclərin kitabxanadakı toplantısında dediyi sözləri unutmayıblar.

Ahu-naləm dağı-daşı dağlayar,
Görən, bilən fəryad eylər, ağlayar,
Dərdə düşən başın qara bağlayar,
Ellər, məni qınamayın, neyləyim?!

O vaxt saçlarında, üz-gözündə sağ-istahat qoymamışdı. Onnan bəri nə qədər göz yaşları axıtmışdı biçarə üçlük! Köməyi olmayıb. Yazılanı poza bilmədilər. «Başqaları necə, biz də elə» dedilər, nəhayət. Leyli qaynanasının dizinin dibində büzüşər, köksünü ötürər, başını sinəsinə sallayar, müəmmalı halda gülümsünər, özü də pərt olardı tutduğundan. Belə olanda ər-arvad təəccüblənər, bir-birinə baxar, şübhələnərdilər. «Yəqin qızcığaz yenə dəli olur, bəlkə baxıcılıqdı! Getmədiyimiz pir də qalmadı».

Özü taleli rəfiqələrinin deyib-güldüyünü görəndə Leyli inciyər, onları qınayardı. Bir dəfə işdən titrətməynən qayıdan Leylinin bənzinin ağarmasından yamanca qorxdu evdəkilər. Sərvinaz yalvardı ki, bir-iki qurtum mürəbbəli, ya da kəkotulu çay içsin, yuxuya getsin. «Yox» deyib yorğanı başına çəkdi, xısın-xısın ağladı. Təzəcə mürgüləmişdi ki, diksindi, yerindəcə dizlərini qucaqlayıb do-

muşdu. Gizli bir səs qulaqlarını didikləyirdi: «Dünyanı bacaranlar yaşayar, sən də onlardan biri, ay axmaq!» Üzünü göylərə tutub yalvardı Leyli:

Ya Rəbb, bəsdi, yeni dərdə salma məni,
Ya məhv eylə, imtahana qılma məni.
Yaratmadın, pərvanə tək ömr eyləyim,
Alovlanım, qan-yaş töküm, qövr eyləyim.

Bir damlaydım, döndüm oldum canlı aləm,
Qurban getdi cavan ömrüm, itdi qibləm,
Öldür məni, qoy qurtarsın mənə həyat,
Qıyma, bir də ya qıvrılam, ya əyiləm.

- Qızım, qurbanın olum, bizim səndən başqa kimimiz var! Olan olub, gedəni qaytarmaq olmur. Heç olmasa, babana (qaynatasına «baba» deyirdi Leyli) yazığın gəlsin, əyilib ikiqat olub, güclə hərlənir ki, yıxılmasın yorğana; evdə oturuşu gəlmir. Bizimki belə gəlib.

- Nə edim, ay nənə (elə şirin səsləndirdi ki, bu sözü), dözə bilmirəm, eşitdiklərim məni diri-gözlü oda tutur.

Gəlinin nəyə işarə etdiyini Sərvinaz çoxdan eşitmişdi, amma içində gəzdirirdi: Səyyarəyə də elçi gəlib. O da yanıb-yaxılanlardan biri idi. Dedi-qodular ayaq tutmasın deyə qaynatası Qarakişi dişini-dişinə qıcayıb «gözüm görə-görə xalxın uşağını niyə dustaq edək, nə çoxdu bizim kimiləri, qoy istədiyi kimi eləsin, mən pəs!» demişdi arvadına. Səyyarəni qınayanlar da olmuşdu.

Hərdən həyətinin dörd tərəfini qamarlayan payaçəpərin o tayında kiminsə hənirtisini duysa da, əhəmiyyət verməmişdi Əmir. Yoldan ötənə baxmaqdan xoşu gəlməzdi. Bu halı təkrar eşidəndə kişinin qəlbi qaralmağa başladı: «Xeyirdimi, görəsən, bəlkə məni qara basır». Axşamlar Leylinin yuxuda sayıqladığını Sərvinazdan eşidəndə, Əmiri soyuq tər basdı: «dərd-bəla niyə məni rahat buraxmır, görəsən, indi nə gələcək başımıza!» Leylinin ata evinə, həyətbacasına baş çəkmək üçün yayınması qocanı təşvişə salırdı.

Günorta yeməyini dəmirçixanaya gətirən Sərvinazın sözlü adama oxşamasından Əmirin «kürkünə bit düşmüşdü: «nəsə olur, mənim xəbərim yoxdu».

- Arvad, neçə illərdi bir-birimizdən gizlincimiz olmayıb, deyib danışsaq da, gileyimizi eşitməyiblər. Belə, gözümə birtəhər dəyirsən, ey… bəlkə…

- Nədən belə düşünürsən, kişi, qorxudursan, haa!!!

- Yox, aaz! Dilim qurusun, başıma qara-qura fikirlər gəlir, nədənsə. Zəmanə yamanca dəyişir, etibarını itirir, ey. Qəlbim yamanca qaralır, bilmirsən, niyə.

- Otur loxmanı ye, səhərdən dilinə öküz əməyi dəyməyib. – Əmir qaldı qıvrıxa-qıvrıxa: «Bəlkə Sərvinazın qulağına bir söz çatıb, mənnən gizlədir». Bir həftə keçmişdi ki, gecə paltarında Əmirin yanına başıalovlu qaçan Sərvinaz qorxa-qorxa pıçıldadı:

- Bu gəlindən nədənsə gözüm su içmir: əl-qol ata-ata yuxusunda kimnənsə danışırdı. «Babam məni öldürər, elə şey olmaz, sürük xarabanıza, gözlərim bir də səni görməsin!» Durğuzdum, soyuq su verdim, amma heç nə demədim ki, qorxu keçirər, başımıza yeni bəla gələr».

- Gəl belə şərtləşək: səhər açılsın, xeyir gəlsin. Mən işə gedəndən sonra gəlini him-cimlə dilə tut, bəlkə nəsə anlayasan. Ola bilər ki, biz onun yolunda qaratikan koluyuq. Qoy açıq desin, bizdən narazılıq olmaz. Onsuz da bizim qapımız bağlanıb, - hönkürdü, kürədən çıxardığı orağı döyəcləməyə başladı.

- Ahımız dava salanları tutsun, ay kişi, - odlana-odlana Sərvinaz gözünü sıxdı. – Nə bilim, dilim var gələcəkmi? Leyli bizi bağışlayarmı, sonrası pis olmasın, barı.

Xeyli keçmişdi kişisiylə söhbətindən, gözləyirdi: bəlkə nahaqdan şübhələnirlər Leylidən. Amma arxayınlaşmırdılar. Eyvanda oturub ana-bala kimi söhbətləşirdilər. Qaynanasının üstüörtülü atmacalarını duyan Leyli qəftələn üz-gözünü turşutdu, az qala bağırtıyla dedi:

- Qələt edər ata-babasıynan, mənim adımı heç kəs tuta bilməz! Əgər yerinizi dar edirəmsə, başıma əncam çəkərəm! Mənim kimiləri olmayıb? Hansı zamanda yaşayırıq! – Leylinin sərt üzünü

görməmişdi Əmir, suyu süzülə-süzülə yaxınlaşdı doqqazdakı çinarın kölgəsinə toplaşmış qocalara tərəf:

Vay, uğurum dəydi daşa,
Bəxtim atıldı savaşa,
Qəmlə dolaşa-dolaşa.

Ömür sürmək nəyə lazım?! – özünü qınaya-qınaya Leyli yaxınlaşdı Sarvanın haşiyəyə alınmış şəklinin yanına. «Eh, belə yaşamaqdansa…» əllərilə üzünü örtməyə çalışdı. Yaman fikirlər dolanırdı başında. Qəti qərara gəlmək lazımdı: «Üzüqara dünyadan birdəfəlik canımı qurtarmalıyam». Kimlərinsə «yazıq, bəxti gətirmədi» sözlərini eşitmək istəmirdi. «Bir dolça qara neft bəsimdi, ki…» Ağlına gəldi ki, hayına gələnlər onun başına yorğandan zaddan atıb söndürərlər, olar zəlil. «Yaxşısı budur, baş götürüb birdəfəlik itim. Hara?» Bax elə bu axırıncı sözün əlində yesir olmuşdu, gen dünya başına dar gəlirdi. Çörəkdən-çaydan imtina edib çəkildi yatağına, soyunmadan sərildi arasını açmaq istəmədiyi bəduğur yorğan-döşəyinə: qapıdan girib bacadan yoxa çıxdı doyunca tərlətmədiyi yataqdakı unudulmaz sevinci. Gurçat kimi peyda olan «şaxta» onun qönçələməyə başlayan həyatini bir göz qırpımında elə vurdu ki, yamyaşıl yarpaqlar quruyub xəzəl oldu…

Dəmirçi Əmir həyətində it saxlamağı sevməzdi: «Qonşulardan ehtiyatlanan zəncirə it bağlayar, kimin mənə paxıllığı var», - deyərdi. Müharibənin qələbə şənliyindən illər keçsə də, çoxları ümidini kəsmirdi, əlini üzmürdü. Başında müxtəlif fikirlər dolaşırdı. Gəlinindən şübhələndiyindən onunla üzbəüz gəlməkdən xəcalət çəkirdi. Tülküdurmazdan evdən çıxar, şər qarışanda həyətdə hənirlənərdi. Olan-qopandan həvəssiz-həvəssiz dalmınar, kor-peşman girərdi yorğanına. Həyatdan yamanca küsmüşdü. Gözlərinə yuxu gəlsin deyə istidən boğulsa da, başını büləyərdi, amma faydası olmazdı. Bu axşam da yamanca vurnuxurdu andıra qalmış döşəkdə. Qulaqlarında ayaq səsi eşidildi. Yorğanı elə qolazladı ki, küncü pəncərənin layına ilişib şappıldatdı. Çölü-bayırı dənətlədi, kimsəni görmədi. «Yox, məni qara basır, lənət sənə, a şeytan!» - qayıtdı yerinə…

Qaragüney kəndinin güneyindəki «Talabağ»ın qalın yerlərində canavar mağaraları vardı. Vəhşilərin qorxusundan adamlar ora təkbaşına getməkdən üşənərdi. «Örkəndolanmaz» dağdağan, qarağac, qoz, çinar şəllərinə sırmanmış yoğun tənəklərdən baxanların gözünü qamaşdıran kavra, qarağartı salxımlarının beşi-altısı pudluq cəvərəni doldurardı. Üzüm şəllərindəki bolluq sanki onları bir-birinin bəhsinə yarışdırırdı. Payıza dönəndə kənd camaatına əmək-günü hesabına meyvələrdən başqa çaxır da paylanardı, şirnikləndirmək üçün. Əmir kişi bu nemətlərdən imtina edərdi, öz həyətindəki meyvələri həmkəndlilərinə ehsan kimi paylayardı.

Təzəcə gözünün çimirini almışdı ki, «Ay ev yiyəsi!» səsindən diksindi. «Allahu-Əkbər!» deyib qapıya cumdu.

- Kimsən, ay Allah bəndəsi, gecənin bu vaxtında?

- Allah qonağı istəmirsiniz ki? – səs bərəyənin dalındakı sərv ağacının yanından gəlirdi.

- Allaha da qurban olum, qonağına da, - ürəyinin çırpınsıtsından bütün bədəni əsirdi Əmirin. Tir-tir əsən əlilə qapının qarğadilini çıxartdı. Gecənin zülmət qaranlığında boynunu qucaqlayanın kim olduğunu anlamayan Əmir gecikmiş qonağın qolundan yapışıb özündən aralamağa çalışdı.

- Qağa, məni tanımadın, mənəm ey, Sarvanam! – eşidəndə kişi lay divar kimi sərildi yerə, başladı təzəcə başı üzülmüş xoruz təki partlamağa.

- Bıy, boyuna qurban olum, ay bala, ölüm qabağında, bu sənsənmi?! Ay Allah, sənə min şükürlər olsun, balam sağmış! Ay Leyli, ay qızım, çırağı gətir bura, yüyür, ey, gör kim gəlib! Ay camaat, ay ellər, pəncərəmizdə günəş doğub! – Sərvinaz elə qışqırdı ki, gecə yarısı olmasına baxmayaraq, bir andaca kəndin yarısı selləndi haya. Sevincindən ya təəccübündənmi əli-qolu əsən Leyli qalmışdı key vəziyytədə: bilmirdi oynasın-gülsün, Sarvanı qucaqlasın, yoxsa sinəsinə tökülmüş sünbül saçlarını yaylığının altında gizlədib yaşmaqlansın.

- Gözlərin aydın olsun, ay Əmir qağa, başını qaldır, ey, dur ayağa, qoçlardan birini Baba ocağına qurban de, fırlat! Gör nələr

olurmuş bəzən inanmaq istəmədiyimiz dünyada! Allah əyər də, düzəldər də, görürsünüz?

Əlihüseyn kişi yapışdı Əmirin qolundan «hım» deyib yerindən tərpətməyə çalışdı. Hələ də özünə gələ bilməyən Əmirin gözləri axırdı, yuxuluya oxşayırdı.

- Sərvinaz bacı, əl götür o zəhrimardan bir dolça gətir bura, deyəsən, bizim buna gücümüz çatmayacaq, tez ol! – Dolçanı Əmirin dodaqlarına yaxınlaşdıran kimi başladı qurtuldatmağa. – Əə, qırışmalın biri, bəlkə özünü əzişdirirsən arvad-uşağın ortasında.

Sanki qaya dağdan qopurdu. Gözlərini ovuşdura-ovuşdura yerindən durub Sarvana yaxınlaşdı Əmir. Otuzluq lampanın şöləsini onun üzünə tutdu, qollarını açdı… «Şükür sənə, İlahi!» – dedi, hönkürtüylə oğlunu qucaqladı.

Gecəykən biş-düş hazırlayan qonşular, yaxınlar Sarvanı sorğu-suala tutdular. Öyrəndilər ki, ölümcül yaralanmış Sarvanı meyit maşınına tullayıb arxaya apamış, sonra da hərəkət edən hərbi hospitalın meyitxanasına yollayıblar. Çox-çox sonralar eşitdiyinə görə, meyidləri saf-çürük edərkən aydın olur ki, onun nəbzi vurur, azacıq da olsa nəfəs gəlir. Müsibətli günlərdən sonra özünə gələn Sarvanı İtaliyaya, oradan da, nə bilim, haralara itirirlər. «Səni əsir kimi sovetlərə qaytarsaq, onsuz da güllələnəcəksən!» - aldadıb başını bəlaya salıblar. Stalinin ölümü minlərlə «vətən xaininə» yol açdığı kimi Sarvan da ata ocağına qayıdır.

- Daha bəsdi, oğlum, yol gəlib yorulmusan. Səhərə az qalıb, get bir az dincəl, - Əlihüseyn kişi də sağollaşıb sevinə-sevinə düşdü yola.

- Gördüklərim, eşitdiklərim, görəsən, yuxudu, yoxsa gerçəklik! – deyib oğlunu bir də qucaqlayıb öpən Əmir bilmirdi ki, ömrünün bu çağında axırıncı dəfədir sevinir, gülür. Adamlar çəkiləndən sonra Sərvinaz gəlininin boynunu qucaqlayıb, göz vurdu:

- Uşaq yoldan gəlib, qoy gözünün qurdunu öldürsün. Paltar-palazı talvara qaldırın, yerinizi rahatlayın. Mən də gedim Əmirə gözaydınlığına, yaşmağını düzəldib qapını örtdü…

- Leyli can, - Sarvan pıçıldadı, - ürəyim elə döyünür ki, səndən ötrü, mən çıxım qapıdakı çardağa, sən yorğan-döşəyi gətir. Bu

şax-şəvəlin üstündə yatmaq yüz dəfə quşetkadakından ləzzətlidi: nə silkələnir, nə də cırıldayır.

- Quşetka nədir, əə? Deyəsən özgə dildə danışırsan!

- Yox, aaz, o da çarpayı kimidi. Bizim taxtımız ondan da rahatdı, ey! – deyib Leylinin çiynindən elə çimdik götürdü ki, az qaldı ufultusunu evdəkilər duysun.

- Barmaqların nə yaman sərtləşib, ay insafsız! Heç bilirsənmi başımıza nələr gəlib?

- Qoy hesabatımız qalsın sabaha, indinin vaxtı deyil, gülüm, nə yaxşı ki, yenidən birlikdəyik. Qorxurdum, hardasa ölüb-qalaram, qarğa-quzğuna yem olaram. Səni evimizdə görməkdən də artıq səadət lazımım deyil. Bir neçə gündür həyətimizin həndəvərində dolanırdım. Əgər səni görməsəydim, ortaya çıxmadan rədd olacaqdım bu yerlərdən. Səndən səhər tezdən açılmış gül iyi gəlir, gülüm. Səninçün ölməyə dəyər, Leylim mənim! – deyib sarıldılar bir-birinə «Məcnunla Leyli». Nəhayət əldən düşmüş sevgililər məst olub dünyanın ən şirin yuxusunda mışıldadılar, şən, xürrəm, bəxtəvər. Aldığı kamından, rahatlıqdan ya da gecikmiş yemək-içməkdənmi, yayın ancaq səhərə yaxın səngiyən istisindənmi Sarvan yamanca susamışdı, ancaq bu cənnət yuxusundan ayıla bilmirdi. «Səs-küylə səhənglərini doldurub evə tələsən, baxışlarıyla yan-yörədən keçənləri yandırıb-yaxan qız-gəlindən Leylini soruşan Sarvanın «Yandım, amandı, mənə su verin!» fəryadı yanındakını da oyatdı».

- Kimlə danışırsan, ay pəhləvan! – Sarvanın gözündən öpəndə, Sarvan gərnəşdi.

- Yamanca susamışam, canım mənim, o çaydanı ver çəkim başıma.

- Səni susadacağım günlər hələ irəlidədi, Sarvan, dəvəmizi xıxmağa qoyma, - dedi, axşamdan yanında hazırladığı su dolu qabı ona verdi. Çaydanın lüləyini ağzına dürtüb gücü gəldikcə sümürən Sarvan «Oxxay!»dan sonra sudan aralandı, Leylini bütün vücuduyla qucaqladı, yuxuladı.

Dan yeri ağarırdı. Bütün aləmi nuruna bələyən günəş saçlarını ətrafa səpələyəndə Leyli sivişib Sarvandan aralandı ki, onları

belə görməsinlər, ayıbdı axı, nə deyərlər. Həyətə axışanlar gah Leylini, gah Sərvinazı, gah da Əmiri qucaqlayır, marçamarç öpürdülər.

- Sağ əlin bizim başımıza, ay Sərvinaz, hardan doğdu bu günəş, bizimkilərdən də xoş xəbər gələydi. Aaz, hanı boyuna qurban olduğum, qoy biz də görək! – Oğlunun «qara kağızını» hələ də sandığında saxlayan Qızyetər arvad o yan-bu yana boylanıb Sarvanı səslədi.

- Qədəmlərinizə canım qurban, ay gözümün işıqları, uşaq yamanca yorunuqdu, yuxusundan kal durğuzmaq istəmirəm, bir hovurdan aralığa çıxar, görərsiniz.

- Nə deyirik, qoy sən deyən olsun, əməllicə dincəlsin, qaçmırıq haa.

Gəlib gedənləri dil-ağızla yola salan Sərvinaz Leylini səslədi:

- Üzün ağ olsun, bala, bizi tək qoymadın, bəlkə sənin duaların Sarvanımızı bizə qaytardı. Gedim çay-çörəyi süfrəyə düzüm, sən də get onun ora-burasına keçib ayağa qaldır, gəlib-gedənlərlə əl tutuşsun. Baax, gör gün hara qalxıb. Dağ boyda adamlar gəlir, o isə yuxu bişirir.

Elə bu sözləri gözləmirdimi Leyli. Təzəcə geydiyi ipək paltarda su sonası kimi sığallana-sığallana yollandı Sarvanı ayıltmağa.

- Ey cavan oğlan, deyəsən, axşam bərk işləmisən, daş daşıyanlar kimi yatmısan. Dur ayağa, təmbəluşka kişi! Sarvan bəy! Eşidirsən, sənin yanına gəlib, ey, adamlar. Dur onların pişvazına! – Sarvanın heç qurcalanmadığını görəndə, başladı böyür-bucağını dürtmələməyə. Daş, dindi, Sarvan qımıldanmadı. Qaçdı qaynanasının yanına.

- Nənə, ay nə, bir Sarvana baax! Od kimi yanır!

- Lal qalasan, gəlin, dilin necə var gəlir belə deməyə? – başındakı şamaxısını boynuna dolayıb, odlağa yüyürürmüş kimi dürtüldü otağa. Əlini oğlunun yanaqlarına sürtdü, çağırdı-çağırdı, səs eşitməyib, əl atdı saçlarına. – Vay, başıma kül olan canım, bu uşağa nə olub, od tutub bədəni, heç gözlərini də açmır! Ay camaat, balam əldən gedir, balama kömək edin! Evi yıxılan canım, nə işdi başımıza gəldi oturduğumuz yerdə!

Sərvinazın hayına yüyürən Əmir tələsdiyindən qapının astanasına ilişib tir meyit oldu.

- Balama nə elədin, ifritənin qızı?! – yapışdı Leylinin saçlarından, başladı döyəcləməyə. – Bəlkə onu zəhərləmisən, hıy, cavab ver, cavab ver, ləçərin balası!

- Baba, mən də sizin kimi heç nə bilmirəm, qibləyə and olsun! – boğula-boğula yalvardı Leyli.

- Sənin qiblənə də, özünə də… - əl atdı gəlinin boğazına, başladı təpikləməyə. – Öldürəjəm, öldürəjəm! Sənin işindi, sənin, sənin, gorbagorun balası! – Otağa doluşanlar gözləri hədəqəsindən çıxan, xırıltısı ətrafa yayılan Leylini Əmirin əlindən almağa çalışdılar, gücləri çatmadı.

- Nə edirsən, ay tərs oğlu, tərs, əlini saxla, görək, nə olub?! – Əlihüseyn kişi özünü yetirdi. Ayaqlar altında çabalayan Leylini sürütlədilər yan otağa.

- Daha nə olacaq, bundan da betər bəla gələr adamın başına, a qurbanınız olum, onun işidi bu! – Başına döyə-döyə yüyürdü qapının dalında uzanıqlı qalan sandığın yanına, başladı qapağını əlləşdirməyə. – Oğlumu beləmi öldürmək istəyirdin, Tanrı, axı ondan əlimizi üzmüşdük!

Arvad-uşaq qarışdı bir-birinə. İş-işdən keçmişdi, Sarvana əncam tapılmadı. Hay-həşirdən göydəki quşlar da qıvxırtı qoparmışdı. Sarvanın meyidinin üstünə qara yaylıq salınmışdı: üzünü cıran kim, saçını yolan kim. Əmirin əlindəki tüfəngi dartışdırıb alan kolxoz sədri onu saldı adamların arasına. Hamı qalmışdı mat: kimdi günahkar!

- Rayondan prokuror, müstəntiqlər gəlib. Təcili yardım maşını səni gözləyir. Camaat nə hayda, sən nə hayda, ay bədbəxt. Biri ölüb, o biri can üstədi. İnnən belə heç nə mümkün deyil. Özünü ələ al, - həm çox sərt, həm də təskinlik dolu sözlərdən qaça bilməyən Əmir əl qatdı başına. Qanadları qırılmış qartal kimi çırpına-çırpına xırp düşdü.

Kənd əhli nə qədər etiraz etsə də, Sarvanın meyitini tibbi ekspertizaya apardılar. Günün saraltısı qalmışdı həkimlərin rəyi eşidiləndə. Ətraf rayonlarda da adı məşhur olan qocaman cərrah

İsayev Sarvanın mədəsindən üç-dörd noxud boyda qapqara hörümçəyi naqqacın ucunda yanındakılara göstərdi.

- Yetmişdən artıq yaşım var, amma belə möcüzəyə rast gəlməmişəm. Hayıf rəhmətlikdən! Çəkiləsi dərd deyil, - başındakı cərrah papağını, üzündəki sarğını götürüb tərini silə-silə cərrah otağından çıxdı.

- Başınız sağ olsun, Allah rəhmət eləsin. – güclə dilləndi ağsaqqal həkim. Sarvanın ölümündən bir cümə keçmişdi. Qəbrinin yanındakı baş daşına daha bir cüt ipək yaylıq bağlandı: qara, qırmızı. O gündən Əmiri soruşanlar iki söz eşidirdi: «Yox, görməmişəm».

***20 sentyabr – 13 oktyabr 2008.***
***Bakı-Kizlyər (Dağıstan).***

# ONU BAĞIŞLAYIMMI?

- Bəzən insan doğulduğumdan sevinmirəm. «Canlılardan ən ağıllısı insandır» deyənlərə gülməyim gəlir, çünki delfinlərin həyatından xəbərsizdilər. Yaranmışların ən dəhşətlisi, qaniçəni, töküb dağıdanı elə insanın özü deyilmi? Sivil aləmi yaradan insandırsa, bu aləmi yerlə-yeksan edən, varlığını yoxa çevirən də elə insandı. İnanmırsınızsa, anlamağa çalışın. İnsan olmayan canlı və ya cansız bioaləm üçün yaşamaq, artmaqdan qeyri duyğu yoxdur. Şübhəniz varsa, baş vurun suda, quruda yaşayan «dilsiz» canlıların yaşadığı aləmə: dənizə, gölə, çaya, meşəyə, bağa, dağa, səhraya… Qeyri insanlar, bitkilər bizim adət etmədiyimiz tərzdə varlıqlarını qoruyur, bir yerdən, bir şəraitdən başqasına köç edir, özlərinə xas olanı davam etdirirlər. «Ali məxluq» sandığımız ikiayaqlılar hansısa bir vasitəni icad edir, bunun köməyilə başqasına qənim kəsilirlər…

Ortaboy, qarayanız, eynəyinin tez-tez burnunun ucuna sürüşməsindən dilxor olan Hüseyn müəllim gözlərini auditoriyanın dənizə baxan pəncərəsindən ayırmadan danışır, səsini gah yüksəldir, alçaldır, gah da çiyərinə çəkdiyi hava axınına ara vermək üçün dərindən nəfəs alırdı. Sanki bu boyda otaqda tək idi. Mühazirəsini dinləmək üçün heç kəs cınqırını çıxarmağa cürət etmirdi. Gözlərini qırpmadan sevimli müəllimin hər sözünü acgözlüklə dinləyir, icmal dəftərinə köçürürdülər.

- Hüseyn müəllim, çox üzr diləyirəm, nədənsə sizdən əvvəl mühazirə oxuyanlar bizi inandırmağa çalışırlar ki, kainatı dəyişməyə yalnız insan dühası qadirdi, bütün aləm insan qüdrətilə dəyişdirilə bilər, çünki təkcə onun düşünmə qabiliyyəti mövcuddur.

- Elədirsə, qalaktikada, Şimal buzlu okeanında, atmosferdə baş verənlərin qarşısında niyə acizdir! Hamı həyəcanlanır ki, atmosferdəki dəyişiklər, ozon qatında yaranmış yırtıqlar faciədən xəbər verir. Qorxudan titrəyirlər.

- Məhz bunların qarşısını almaqda insan təfəkkürü çalışır, deyildiyinə görə.

- Fərd anlayışını həm canlıya, həm də qeyri canlıya aid edə bilərikmi? – Hüseyn müəllim lap arxada əyləşmiş qızların əhatəsindən səslənən ucaboy oğlana tərəf çöndu, eynəyini burnunun üstündə tarazladı. – Təbiətdəki canlılardan yalnız insan özü üçün sərfəli olan müdafiə sistemləri yaradır, nitqini özü kimi fərdlərə çatdırmağa çalışır, özünə bənzərləri özünə sərfəli ölçüdə «fəth edir», öz hegemonluğuna tabe edir. Qeyri düşüncə tərzindəkiləri özünə tabe etməyə çalışır. Bütün dediklərimizin əksi olaraq qeyri insanlar, yəni canlılar, tək öz qüvvələrindən istifadə edir, suda və quruda. Onlar yalnız vərdişlərini inkişaf etdirirlər, duyğularını intuitiv şəkildə başqasına göndərirlər. Bu fikirlərlə razılaşa bilərsinizmi?

- Bəli, buna sözümüz yoxdu, - yerbəyerdən dilləndilər.

- Özlərinin yaratdıqları bəs deyilmiş kimi, insanlar qeyri canlıların da qüvvəsindən bəhrələnirlər. Qeyri canlılar ancaq qidalanmaq, nəsil artırmaqla kifayətlənirlər, uyğunlaşır, şəraitdən asılı olurlar. Onların topu, topxanası, ordusu, qanun məcəlləsi, polisi yoxdur.

- Zalım oğlu elə bil bütün fəlsəfəni yığıb kəlləsinə. Heç o biri müəllimlərdən bəziləri oxuduqları mövzunu belə izah eləmirlər…

Gözünü Hüseyn müəllimdən çəkmirdi Dürdanə. Gündə bir yaraşıqda gəlirdi mühazirələrə. Praktiki məşğələlərdə gözgörəti utanmaqdan-zaddan kənar idi davranışlarıyla. Baxanlara məhəl qoymurdu. Fikri-zikri müəllimlərin də sevimlisi, çox əlamətləriylə başqalarından fərqlənən Hüseyn Seyidovda idi. Bacarsaydı yoldairizdə qollarından yapışar, «zorla gedib oturardı xarabasında», lap məşhur operettada deyildiyi kimi. Üst-başına vurduğu ətirlərdən yanındakıların da ağlını başından çıxarırdı.

İnstitut müəllimlərindən çoxu hərdən Hüseyn müəllimin qoltuğuna girər, kənara çəkər, müəyyən mülahizələrdə fikrini öyrənmək üçün sorğu-suala tutardı.

Moskvada M.Lomonosov adına universitetdə oxuyarkən Hüseyn heç kəsin gözləmədiyi ərköyünlük etmişdi: «saç-saqqalını elm yolunda ağardan» qocaman professor qoltuğundakı dəftər-kitabla

auditoriyanın qapısından girmək istəyəndə, Hüseyn onunla qapının astasında toqquşur, dəhlizə üz tutur.

- Cavan oğlan, bu nə ədəbsizlikdi, göstərirsiniz? Zəngin səsini eşitmədiniz?! – acıqlanır, geri qayıdacağını gözləyir.

- Bağışlayın, professor, mən qiraət zalında hazırlaşmağı sizin mülahizələrinizdən üstün bilirəm, - deyib aralanır. Bir təhər növbəti zəngi gözləyən şişman bədənli professor pərt halda özünü salır kaferdaya.

- Siz bunun hoqqabazlığına nə ad verərdiniz, yəni o qədər də özünə inanmaqmı olar! Baxarıq,sessiyada necə dil çıxaracaq! Heç kimin xahişinə məhəl qoymayacağam! Qoy bacarığını onda göstərsin hamıya! – gileyləndi professor.

Vaxt-vədə yetişir. Növbəti imtahan sessiyasında universitetin xüsusi komissiyası yaradılır. İncik qalmış professorun «hayıfını» çıxmaq istəyən həmkarları ha çalışırlar «hoqqabazın» dizini qatlasınlar, mümkün olmur. Sensasiya yaratmış Hüseyn professorların bütün suallarından alnıaçıq çıxır. Komissiya üzvlərinin bir-birinin üzünə baxdığını görən şişman görkəmli Anatoli Petroviç Kliçman yerindən qalxır, Hüseynin əlini sıxır.

Universitetdən fərqlənmə diplomuyla Bakıya qayıdan Hüseyn Seyidovu tələbələr öz aralarında «kəllə» adlandırırdı M.F.Axundov adına Dillər İnstitutunda.

- Müəllim, belə görünür, ictimai elmlərdə sizin başınız çıxmayan sahə yoxdu.

- O qədər də şişirtmək nəyə lazım. – Qrupumuzun ağsaqqalı Nazimin sözlərindən incik kimi gülümsündü tələbələr arasında gəzinərkən. Hər fasilə vaxtı uşaqlar onun ətrafına toplanır, maraqlarını gizlətmirdilər. Auditoriyaya nadir hallarda bir-iki kitab gətirərdi, əyanilik kimi.

- Biliyinizə şübhə edə bilmərik. Çoxlarının sizin fikrinizə ehtiyacını hamımız görürük. Sabah-birisi gün dövlət imtahanını bir təhər başa vurub hərə bir rayona üz tutacaq. Hələlik sizin elmi dərəcəniz, adınız görünmür. Bunu necə anlayaq? – gələcək dilçi Baxış təəssüfünü bildirdi.

- Bilirsinizmi, dostlar, el arasında belə deyim var: «Dad yarımçıq əlindən». Dahi Nizaminin «yarımçıq papaqçıdan kamil palançı yaxşıdır» nəsihətini unutmaq olmaz. Bir vaxtlar sizin sualınıza bənzərini Onore de Balzaka da ünvanlayıblar, sonralar tələsməyin əbəs olduğunun şahidi olublar. «Hər şeyin öz vaxtı» deyənlər haqlıdırlar. Kənd uşaqları eşidiblər ata-analarından: «Tələsən təndirə düşər». «Xəstə çox arzulasa da, armud vaxtında yetişər».

…Hüseyn müəllim orta məktəbi bitirən kimi universitetə qəbul olunmuşdu. Yoldaşlarımızdan çoxu əsgəri xidmətdən gəlmişdi. Çoxumuz onunla az qala həmyaşıd idik. Buna görə də gənclərlə ünsiyyətdə olmaqdan xoşlanırdı, üstəlik, o da rayon balası idi.

Mühazirəçilərdən bəziləri saat hesabına iki-üç yerdə işlədiyindən bir neçə qrupun birləşdirilməsi xahişini Hüseyn müəllim məmnuniyyətlə qəbul edirdi. Bu, ona həm də maddi kömək idi: axı subaykən dəm-duz etməyin nəyi pisdi!

Tələbələrdən yayınmağı Hüseyn müəllim də sevmirdi. İstər institutda, istərsə də yolda-küçədə çoxları diqqət yetirirdi: «saxtalığı sevirmi?»

Ayda bir-iki dəfə rektorla kafedra müdirlərinin xahişilə müxtəlif bədii gecələr, disputlar, sual-cavab yığıncaqları keçirilirdi institutda. Şübhəsiz ki, belə məclislərdə hamı çalışırdı Hüseyn müəllimin fikrini, məsləhətini eşitsin. Təkcə Azərbaycan deyil, Aropa, Asiya, Amerika şair-yazıçılarının, filosoflarının, alimlərinin yaradıcılığını mükəmməl mənimsəmişdi «zalım oğlu». Bülbül kimi ötürdü hər yerdə.

60-70-ci illərdə Kommunist Partiyasına üzv olmaqdan ötrü çoxları dəridən-qabıqdan çıxırdı: ölkə siyasətçilərinin bayrağı yamanca fəğan edirdi. İş o yerə çatmışdı ki, bütün təsərrüfatlarda, ictimai-siyasi idalərərdə hamılıqla partiyanın «aparıcı» rolunu bayraq edirdilər. İnstitutda işlədiyinə görə Hüseyn müəllimin də bu kampaniyadan kənarda qalması «yolverilməz» sayılırdı. Təbliğat maşını çox qılıqlanırdı, amma gənc filoloqu ələ almaq mümkün olmurdu. «Mən özümü bununçün hazır hesab etmirəm», - deyirdi. Yuxarıdakılarla az-çox üzdə olanlarla oturub-duran institut partiya təşkilatı katibi Əfəndizadə rektora üz vurdu ki, «kəlləni» də xaş qazanına

salsınlar. Azacıq işartı hiss olunanda institutda məhdud tərkibdə partiyaya namizədlik üçün toplantı yarandı. Yaltaqlığıyla gözəgirənlərdən biri də Qriqori Manqasaryan («tarix elmləri namizədi») idi. Yeri gəldi-gəlmədi hamıya irişərdi. Bir neçə müəllimdən sonra azərbaycanca güclə danışan, tələbələrin «irişə dayı» aldandırdığı başabəla tarixçi dörd tərəfinə boylandı, sağ əlini ehtiyatla qaldırdı, qırıq-qırıq dilləndi:

- Ela man da cavan muğallimın partiyamıza qabul olunmasına istaram ki, sıralarımız artsın. Ama, ay canım, nadansa o özi bundan qırxana oxşamırmı? Bela olmaz axi! Bizda qorxmazlar partiyamıza qabul olunsa, yaxşi olar, daa…

Yerbəyerdən bu dili topux vuran «tarixçinin» kəkələməsindən incidilər. Göz ağardıb dodaq büzənlər də tapıldı, amma açıq danışmaqdan ehtiyatlandılar nədənsə. «Hoha-hoyla boyunduruğa yaxınlaşdırırıq, bu köpək oğlu samını göydə yellədir ki, hürkütsün».

- Səni yaltaq kimi tanıyıram, yaltaq kimi də qalacaqsan! - Hüseyn müəllim hirslə toplantıdan uzaqlaşdı. «Ara qarışdı, məzhəb itdi». İlk toplantı beləcə pozuldu.

Leysandan qabaq göy üzünü tutmuş bulud rənginə bənzəyirdi Hüseynin görkəmi. Himə bənd idi ki, hər yanı selə qərq etsin. Qəfil gələn «tufana» qoşulub partkomun otağından çıxıb özünü verdi yaxınlıqdakı çayxanaya.

Moskvada oxuyanda hərdən cavanların çox sevdiyi M.Qorki adına parka gedər, əylənərdi. Doğma Bakıdakı parklara, rəqs meydançalarına az üzükərdi: vaxtının çoxunu mərkəzi kitabxanalarda keçirməkdən zövq alırdı. Basin küçəsindəki «ayaqüstü kafedə» istiotlu-xardallı yeməkdən və bir fincan kakaodan sonra özünü xeyli üzüntülü hiss edirdi. Yavaş-yavaş getsə də, tezliklə Füzuli meydanını arxada qoyub M.Maqomayev adına filarmoniyadan dənizkənarı parka sallandı. «Yaşıl teatr»dan gələn musiqi sədası dənizdən qopub adamları bihuşedici aləmə səsləyirdi. Axşamın mehi Hüseyni susqunluqdan ayıltdı. «Cavanlıq küskünlükdən uzaqlaşmalıdı, əks halda dönüb olacaq ömrünü qeybətdə keçirən qocanın biri», - vaxtilə özünün dediyindən eyham duydu. Xəlvəti təbəssüm üzünü

«sığalladı». «Sən də cavan deyilsən, ay səfeh? Cəmiyyətdən ayrılma, axtarıb tayını tap» - düşündü.

Bilet kassasından aldığı kağız jetonu qapıda dayanmış gombul qadına verdi. Hay-harayla hoppanıb-düşənlərin qollarına ilişə-ilişə meydançanın ortasından keçdi, yaxınlıqdakı uzun oturacaqda əyləşdi. «Qadın rəqsi» ətrafı ağuşuna almışdı. Rəqsin son akkordunu gözləyən Hüseyn arabir sinə-sinəyə sıxılmış cütlüklərin pıç-pıçısını eşidir, kimin ürəkdən danışdığını, kiminsə «xalaxətrinə» qımıldandığına fikir verirdi. Orkestrin susmasıyla özünü səhnəyə atan oğlan nə dedisə, klarnet çalan göy «beşliyi» döş cibinə basdı, sağ əlini qoydu gözünün üstünə. Ovurdunu şişirdib bayaqki rəqs havasını bir daha səsləndirməyə başladı. Meydançanın bəzəyi olan qızların allı-güllü geyimlərindən yayılan ətir qoxusu dağ çiçəklərini xatırladırdı. Səs-küylə dövrə vuran cütlüklərin qayğısız gülüşləri Hüseyni qəlbən doğma kəndlərinə səsləyirdi…

«Geniş həyətdə qurulmuş toyxanadan sərinləmək üçün «qartal qanadlarını» gərmiş, kölgəsindəki insanlara cöh verən, budaqlarından sallanan salxımlardan özü də xoşhallanan dağdağan şəlinin altına tələsən oğlanların yanaqları Göyçay narına bənzəyirdi. Qol-qola yapışıb yallı gedən oğlanlar, qızlar bu anlarda dünyanın ən bəxtəvəri deyirllərmi?!»

- Cavan oğlan, sizi narahat etmək olarmı? – üz-gözündən dağ bənövşəsini andıran qız Hüseynin qarşısında ayaqlarını cütləşdirdi. Yarıqatlaq halda gərdənini aşağı endirdi, gülümsündü. «Bu ulduz hardan parladı, İlahi, məni göz atmasın barı!» – Ani düşüncə Hüseyni xəyaldan ayırdı.

- Siz… siz… mənim… ləsiniz?! – az qala özünü itirəcəkdi. «Allahım, məni pərt olmağa qoyma!» - pıçıldadı öz-özünə.

- Bəli. Sizi narahat etmək olarmı?

- Məmnuniyyətlə, xoş… xoşdur. – Hüseyn ona tərəf uzanmış sol əli öz əlində gördü, qorxa-qorxa sıxdı. Unutdu ki, ayağa qalxmaq lazımdı. Elə bil kimsə çiyinlərindən tutub silkələdi. Yan-yörəsinə boylanıb «Buyurun» dedi. Dodaqdlarını dişlərinə sıxdı. – Bağışlayın, lütfən. – Hiss etdi ki, belə vasvasalıq qarşısındakını hürküdər, uzaqlara qova bilər. Sol əlilə qızın sağ əlini ovcunun içində

tutan Hüseyn sağ əlini onun gərdəninə toxundurmaqdan üşəndi. Onun sol əlini öz çiynində görəndə saktiləşdi. Oynayanlardan aralanmağa çalışan gənc müəllim ürəkləndi, kənar baxışlardan çəkinməkdən vaz keçdi. Yenicə tapışmış cütlük, sən demə, kiminsə nəzərindən yayınmayıb: növbəti dövrədən sonra qızın onu meydançanın kənarına dartdığını hiss etdi.

- Həmişə şənlənməkdə olasınız, Hüseyn müəllim! Buralarda sizi də görməkdən məmnunuq. – Nazim gülə-gülə dilləndi. Vəziyyətin belə olmasından tutulan Hüseyn müəllim deməyə söz tapmadı. Auditoriyada gördüyü tələbələrdən bir neçəsi Nazimin ətrafında toplanıb təzəcə rəqsə başlayan cütlüyə maraqla baxırdı. Gözlərindən çoxlarını yandırıb yaxan sarıbəniz qızın bu gözlərdən aralanmasına tabe oldu. Əllərindən yapışdığı müəllimin tələbələrlə rastlaşmasından tutulduğunu hiss edən «ceyran» bu görüşü göydə axtardığı halda yerdə tapmışdı. Xeyli uzaqlaşandan sonra dodaqlarını onun qulağına yaxınlaşdırdı, fəxrlə pıçıldadı:

- Nə qəşəng rəqs edirsiniz, müəllim! Rayon uşaqlarından belə incəliyə az rast gəlmək olar.

- Hardan bilirsiniz ki, müəlliməm? – Hüseyn təəccübləndi. – Bəlkə telepatikliyiniz var!

- Belə səliqə-səhman ancaq müəllim tayfasında ola bilər. – Üzünü onun yanağına yaxınlaşdırmağa çalışdı.

- Qəribə müşahidəniz var, amma mən müəllim deyiləm. – İstədi söhbətdən uzaqlaşsın, amma hiss elədi ki, alınmayacaq. Qarnını ona sürtən qız özünü çox arxayın aparırdı.

- Yəqin, adımı bilmək sizinçün maraqlı olar. – «Dağ qoçunun qaşları» altından ona tuşlanmış alma gözlərdən aydınca duyulan istiqanlılıq yavaş-yavaş Hüseynin ağlını başından azdırırdı.

- İlk baxışdan maraqlı görünən məsələ sonradan peşmançılığa da gətirə bilər.

- Hər sözdən fəlsəfə yaratmaq necə?

- Görürəm, yaxşı mühakimə yürüdürsünüz. Mübahisə etməyək, olarmı?

- Hakimin qənaəti müttəhimi razı salmaya da bilər, ancaq tabe oluram. – hər ikisi şirin qəhqəhəylə gülüşdü, bir-birinin ortasın-

dan yapışıb dövrə vurdular. Yavaş-yavaş isinişir, nəyinsə təmmənasında olduqlarını güclə gizlədirdilər.

- Mübahisədən vaz keçdik, amma təklifinizi bəyənib cürət etmək istəyirəm: adınızı öyrənmək məndə şərəf yaradardı. – Yenidən uğundular, gözlərini işə salmağa çalışdılar. «Nə yeməli gözlərin var, zalım qızı, süzdürdükcə canımı alırsan…»

- Adımdan acıqlansanız, inciyərəm, - qızın üzündəki təbəssüm Hüseyndə baş qaldıran etibarı artırdı. – Məni Dürdanə deyə çağırırlar, istəsəniz lap…

- Yox, yox, doğrudan da gözəl adınız var, heyranedici səslənir. Adınızla qarıyasınız. Qəşəng ad tapıblar, əhsən. Görkəminizə də çox yaraşandı.

- Deyəsən, yaxşı atmacanız var. Bunu da məndən qəbul edin. – Bu dəfəki gülüşləri lap çox çəkdi…

«Azərbaycan» kinoteatrına çatanda dayandılar.

- Tanışlığımızdan narazı qalmadınız ki? Söhbətimiz elə uzun çəkdi ki, bura necə çatdığımdan xəbərim olmadı.

- Demək istəyirsiniz ki, evinizə çatmısınız, eləmi?

- Elədir ki, var, müəllim! – Axırıncı sözə xüsusi intonasiya yapışdırdı. – Hər şeyin azı, dostluğun çoxu. Dostluq hər şeyə qadirdi, - gözünü qıydı Dürdanə.

- İlk görüşümüz kaş dostluğa çevriləydi! (Gizli duyğu keçirdi qəlbindən!)

- Bu birtərəfli olmasa, yaxşıdır. Deməyin ki, yamanca dilavərəm. «Qaşqabaqlının bəxti çox vaxt üzügülən olmur» - nənəm deyərdi.

- Elə nənəyə mən də rəhmət deyirəm.

Felin şərt forması icbar formasıyla birləşdi, tanışları sağollaşdırdı. Dürdanəylə tanışlıqdan bir neçə gün keçmişdi, amma Hüseyn müəllim onu görə bilmirdi. Birdən yadına düşdü ki, onun şəhərli ya rayondan olmasını soruşmayıb. Bu, dilxorluğunu daha da artırdı. «Əfəlliyinə» görə özünü qınayırdı. «Hallıca-dulluca insan balasıyla tapışdım», kəndliliyim başıma ağrı gətirdi. Onu bir də hardan tapa bilərəm? Deyəsən, lap mən deyən idi: mədəni, gözəgəlimli, hərzəlikdən, sırtıqlıqdan uzaq. Canı yanmış göydən düşmə oldu, dincliyimi apardı özüylə. Karsızın birisiymişəm. Barı onunla yaxından tanış

olaydım! Bu yaxınlarda bir də görməsəm, «bir daş altdan, bir daş üstdən». Kim eşitsə, məni haqlı olaraq əfəlin yekəsi adlandıracaq.

Dürdanəni tapdığı kimi də itirmişdi: «Yaşıl teatrın» həndəvərində, ayrıldıqları binanın qənşərində çox dolandı. İşıq ucu görünmürdü, geybə çəkilmişdi sanki. Əhvallaşdığı tələbələrdən Nazimi, Baxışı, Hidayəti də görmək istəmirdi. «Nəyə lazım, başıma gələni başqasına danışmaq. Mən onlardan yuxarıyam axı. Nə deyərlər mənə». – Öyündü.

Mısmırığını sallayaraq işə gedər, tələbələrin üzünə baxmaqdan yayınar, əvvəlki kimi inandırıcı dəlillərlə dediklərini sübut etməyə maraq göstərməzdi. Belə davranması müəllimlərin də pıçpıçasına səbəb olmuşdu: qulaqları səsdəydi. Son zamanlar kimsə onu yanlamırdı. Ən çox zəhləsi gedən «İrişə» də onunla qabaqlaşmaqdan çəkinirdi. «Yaltaq köpək oğlunu görməkdənsə, zibilxana itinə baxsam yaxşıdı», fikirləşirdi.

Dərsdən çıxıb L.Şmidt küçəsiylə asta-asta addımlayırdı: konservatoriyada bir qoşa saat mühazirə oxumalıydı «Etika və estetikadan». Buranın rektoru Hüseyni göydəndüşmə hesab edirdi. Ü.Hacıbəyovun heykəlinə çatanda gözlərinə inanmadı: par-par parıldayan mavi rəngli «Qaz-31» markalı «Volqa»dan düşən sürücü cəld arxa qapını açdı. Qəttəzə qara kostyum geymiş 30-35 yaşlı kişi maşından çıxdı, arxasınca çıxmaq istəyən qıza əlini uzatdı. Çiyinlərindən qırçınlı şərf sallanan Dürdanə Hüseynə məhəl qoymadan qara kostyumlunun qoltuğundan yapışıb konservatoriyanın taybatay açılan qapısından keçib gözdən itdi.

Azacıq dayanıb özünə gəlmək istəyirdi ki, enlikürək, eynəkli, günəşdən işıldayan qara saçları qulaqlarını örtmüş rektor Qədirbəylinin müşayətilə qayıdan qarayanız kişi «Volqa»ya əyləşdi. Qədirbəyli qımışdı, sol əlilə gözlərinin üstünə yayılmış saçlarını arxaya daradı, qonağına baş əydi, sağ əlini sinəsinə basdı.

- Baş üstə, narahat olmayın, gözümüz üstə yeriniz var, – deyib geri qayıtdı. «Bu nə deməkdi, görəsən. Dürdanəni gətirən onun nəyidi? – Hüseyn heç nə anlamadı gördüklərindən. Ovurdlarında toplanmış havanı «puffuldadıb» mühazirə auditoriyasına yollandı. Tələbələrin səs-küyünü susduran zəngin səsi səngiyən kimi orta-

lıqda quraşdırılmış kürsünün yanında Hüseyn müəllimi salamlayan Qədirbəylinin görkəmindən narahatlıq duyulurdu. Sanki pıçıltıyla ürəyindəkini səsləndirdi:

- Lütfən, bir az diqqətli olun. Mərkəzi Komitədən qonağımız vardı. Tələbələrin gözlənilməz suallarına ehtiyatla cavab verməyə çalışın, adımıza söz gəlməsin, - ayaqlarını asta basa-basa auditoriyanı tərk etdi. Deyilənlərdən pəhsinməyən Hüseyn müəllimin gözləri kimisə gəzirdi. Tünd spirtli içkidən bihal olana bənzəyirdi öz aləmində. Tək bircə dəfə onu «ayıltmağa» çalışan «Bir danənin» üzündə güclə sezilən gizli təbəssümünə toxundu nəzəri. «Nə yaman narahatsan, ay kəndli balası!» süzülürdü baxışından. Necə davranacağını düşünən Hüseyn müəllimin başı o qədər dumalıydı ki, qapıya aparan yolu güclə axtarırdı. Konservatoriyanın çıxış qapısına çatanda kiminsə onun qolundan tutub yavaşca silkələdiyini duydu. Güclə eşidiləcək tərzdə danışırdı Dürdanə. Ətrafına boylandı. Gözlərindən sanki qığılcım səpirdi qarşısında gözünü döyənin sifətinə.

- Tələsirəm, gözləyirlər, həminki yerdə görüşərik! – həyəcanla dedi və həyətdə dayanmış «Volqa»ya tərəf şəstlə addımladı…

Aspirantlara ayrılmış beşmərtəbəli binada Hüseynə balaca bir otaq verilmişdi. Maarif Nazirliyinin göstərişiylə. Birinci mərtəbədəki yeməkxanada bir nimçə kələm şorbası sifariş versə də, iştahası gəlmədi nimçədəkinə «mühazirə oxusun». Könülsüz-könülsüz üz tutdu otaqçasındakı çarpayısına, pal-paltarlı uzandı. Uzun-uzadı gözlərini yumdu, səsini içinə çəkdi, qərb yazıçılarından hansınınsa həyatı qarmaqarışıq halda dolandı başında. Çalışdı ki, mürgüləsin, bacarmadı. Başladı bu yaxınlarda oxuduğu şeiri təkrarlamağa.

Yuxum ərşə qaçıb, gözlərim görmür,
Bu necə dərdimiş, mübtəla oldum!
Yoluma boylanır, izlərin vermir,
Məhəbbət qarşımda bir bəla oldu.

Hayandan başlanır, hayana gedir,
Hayımdan xoşlanır, vayımı edir,
Dayanıb qəsdimə, tayımı didir,
Məhəbbət yolumda sirr, tələ oldu.

Duruşa dözməsən, təslim olarsan,
Qarğışa düşərsən, məzlum olarsan.
Əlacın gəzməsən, külüm olarsan,
Kədərdən vurulmuş şələm olarsan.

Ha vurnuxdu, o yan bu yana yomalandı, rahatlıq tapa bilmədi: «Dürdanəni «Volqa»da gətirib-aparan kim olar?» Birdən özünü döyəcləyirmiş kimi əllərini dizlərinə çırpıb deyindi: «Ay gic oğlu, gic, «dünyanı bacaranlar yeyir» deyənlər yalan danışmayıblar, haa… Nə çox yaşamısan, görüb yola salmısan bir içim su qədər çəkən ömründə! Nə yapışmısan bir dəfə görüşdüyün qızın irtməyindən! Dərə-təpə dolu deyilmi qıznan! «Qız ağacı – qoz ağacı, hər yetirən salbalayar» deyiblər axı! Ay, ay! Hay gününə, beləsi. Qapını indi açıb girmisən qaynar şəhər həyatına. «O olmasın, bu olsun»u havayı deməyiblər ki! Çal-çağırla kef sürənləri görmürsən?» «Yox, belə düşünmək kişilikdən deyil. Dürdanəni unuda bilərəmmi! Yoldan ötənə oxşamır, bu boyda zarafat olar?»

Əlqərəz. Çarpayıdan qalxdı, konülsüz-könülsüz üz tutdu yaxınlıqdakı «Zabitlər parkına». Küçə fənərləri göz vura-vura gəlib-gedənlərin yolunu işıqlandırırdı ki, bir-birinə ilişib vaysınmasınlar. Parkın tən ortasında düzəldilmiş rəqs meydançasındakı atılıb-düşənlərin səs-küyü nəinki saksofonu, gumbultusu qulaqların pərdəsini dartıb paralamağa çalışan iri barabanı, hətta qara zurnanın zil səsini yolda qoyurdu. Səhnənin sağ küncünə yaxın dayanmış şələbığ, görkəmindən müştərisinin çoxluğundan gileylənən restoranda o ki var gilləyib çıxmış sərxoş kimi ləngərlənən orta yaşlı oğlan əlindəki qara qarğıdalı qıçasına bənzəyən mirkofona cırıltılı səslə bağırırdı: «A yordu, yordu, yordu, görək kim kimi yordu!». Oğlanların dodaqlarından gah asılı qalan, gah da o yan bu yana baş gəzdirən «Kazbek», «Belomor» siqaretlərindən yayılan tüstüdən bezib üzünü, burnunu gizlədən açıq-saçıq geyinmiş qızlar yarı ürəkdən, yarı boğazdan qabağa hırıldayır, adamların zəhləsini tökürdülər. Çalğıçılar ara vermək istərkən, yaxası naxışlarla bəzənmiş, Ukrayna istehsalı olan köynək geymiş əcayib görkəmli, üz-gözündən zəhər

yağan oğlan bağırdı: «Ala, demədim, dayanmayın, yoxsa qalxaram ora, ananızı…, balalarını ağlar qoyaram, haa!!! Koppoyoğlanları!»

Bir qədər aralıda dayanıb geri qayıtmaq istəyirdi ki, incə barmaqlı, sinəsindəkilərini lap Hüseynin kürəyinə sıxan qız səsinin incə yerinə salıb gülə-gülə onu arxadan qucaqladı, gözlərini tutdu:

- Silim, süpürüm? - Hüseyn çalışdı ki, sual verənin əlindən buraxılsın, bacarmadı: tutan bərk yapışıb təkrarlayırdı: - Cavab verin, cavan oğlan, silim, yoxsa süpürüm? – Səs o qədər incə çıxırdı ki, Hüseyn tabe olmağa qərar verdi:

- Güləşməyə lüzum varmı? Nə silmə, nə süpürmə, əllərini sürüşdürmə. – Əllər aralananda yanaqları alışıb yanan, görkəmi hər kəsin vücudunu odlayan Dürdanəni gördü.

- Mən sənə neyləmişəm, ay cavan oğlan?! – Mahnının sözlərini qəsdən dəyişdirmişdi. «Qara məni basmamış, mən qaranı basım» deyirdi. – Aya, günə dönmusən, müəllim, üzünü görək! – istədi «Haralarda itbata düşmüsünüz!» desin. Dondurmadan göyərmiş dodaqlarının ucunu qöncələdi, uşaq tovlayırmış kimi gözlərini qıydı, sinəsini irəli verdi. – Yaxşı, yaxşı, bilirəm nə deyəcəksən, bir də təkrar olmayacaq». – Az qala deyəcəkdi: «İçini çəkmə, sil gözlərinin yaşını, ay uşaq».

Gördüklərini ayırd etmək üçün Hüseyn bilmirdi nədən başlasın: qalmışdı gözlərini döyə-döyə.

İki pəzəvəng oğlan yaxınlaşırdı ki, Dürdanə üzünü onlara tutub, iti qovurmuş kimi hayqırdı:

- Ey, ey, gedin burdan, mənim müəllimimdi, narahat olmayın! – Aralıdan Nazimlə Baxışın yaxınlaşdığını görən pəzəvənglər pəhsinmədilər.

- Bura baxın, uşaqlar, gəlmişik ayran içməyə, gəlmədik ara qarışdırmağa. – Baxış özünü irəli verdi ki, qalmaqal olmasın (tərslikdən yaxınlıqda qırmızıpapaqlardan da görünmürdü).

- Qədeş, bura bizim oylaqdı, çüşkə-müşkənin burda at oynatmasına yol vermərik! – deyəndə, ley sərçəni tutan kimi, Hidayət özünü yetirdi.

- Çüşkə-müşkə sənin atondu, düdük oğlu düdük! Sən ölləsən belini qırram! – Pəzəvəngin çənəsindən ilişdirməyilə sərdi yerə.

Özünü sındırmamaq üçün ikincisi sırçradı Hidayətin boynuna. Nazim yan-yörəsinə boylandı: «gələn yoxdu ki!». Qolunu çırmalayırdı ki, Hidayət eləmədi tənbəllik: pəhləvan gücüylə yapışdı boynundakının kürəyindən. Başının üstündə fıtlatdı, qolazladı hələ də yerdə eləşənənin belinə. Ağzından köpük tökə-tökə talış balası öz dilində söyüşün çox ağır mənasından utanmadı. Hay-küyə qaçan «köməkçilər» Nazimin biləyini çırmalamasından ehtiyatlanıb yarı yoldan qayıtdılar. Suyu süzülə-süzülə yerindən qalxıb qaçmaq istəyən pəzəvənglər Tofiqin yanından keçəndə, ayağını atdı çənəsini tutanın topuğuna. Çənəsindən əlini üzüb iməkləyə-iməkləyə kol-kosun arasında yoxa çıxdı. Hadisə elə tez qurtardı ki, ayırd etməyə vaxt qalmadı. Hidayət Baxışla Nazimə göz vurdu: vaxtdı, Hüseyn müəllimlə Dürdanəni aradan çıxartmaq lazımdı.

Göy məscidin yaxınlığında dayanmış «Qaz-21» Hüseynlə Dürdanəni Bakıxanov küçəsindən sivişib M.F.Axundov adına Dillər İnstitutunun yanından Sahil bağına çatdırdı.

- Salamat qalın, cavanlar, gecəniz maraqlı keçsin, - sürücü Hüseynə baxıb irişdi, göz vurub gecənin zəif ay işığında Bakıya xüsusi əzəmət bəxş edən möhtəşəm Xəzərə doğru şütüdü.

- Yaxşı ki, uşaqlar özlərini yetirdi, yoxsa…

- Sənin də təəssübkeşlərin özlərini göstərdi, əhsən, - eyhamla dilləndi Hüseyn müəllim.

- Belələrinə şəhərin harasında rast gəlməzsən? Nə çoxdu haramzadalar. Himə bənddilər, əlləri gicişir qalmaqaldan ötrü.

- Kaş o talış balası kimlərin sayı çox olaydı. İstirahətə çıxanların…» Hüseyn Dürdanənin çiynindən tutub özünə doğru çəkmək istədi, cürəti çatmadı: axı əməlli-başlı tanış deyildilər. – Bilmək olarmı, sənin valideynlərin… - Dürdanə barmağının işarəsiylə onun sözünü kəsdi.

- Tələsmək nəyə lazım, vaxt çatanda, hər şeyi biləcəksən. «Bir sürü atlar, çəməndə otlar, vaxtı gələndə dərisi çatlar». – Başını ehmalca sıxdı Hüseynin sinəsinə. – Belə zamanda mühazirə… - istədi ardını desin, sonraya saxlamağı üstün tutdu. Üz-üzə durub bir-birinə baxırdılar. Hüseynin vücudunu isti təlatüm bürüdü. «Bu məqamdan bəhrələnməyinin «ağlına qusum», - hardasa rastlaşdığı

cümlə təhlil tələb etmirdi. Nədənsə Hüseynin «hücuma» keçmədiyindən lap pərt olurdu Dürdanə.

- Deyəsən, hava yaman darıxdırıcıdı, bəlkə bir az gəzinək? – Dürdanə köksünü ötürdü, addımlamaq istədi. Nəhayət, Hüseyn özünü cəmləşdirib bataqlıq zəlisi kimi yapışdı Dürdanənin budaqda gecikmiş qara gavalıya oxşar dodaqlarından. «Bunu istəməzdim» - Dürdanə dodaqlarını ayırmağa cəhd etdi, alınmadı: özünün də ürəyi gedirdi. Xeyli «vuruşdular». Bir-birinin gücünü sınayıb budaqdan qopub yerə tappıldayan cüt alma kimi halsızlaşıb düşdülər yaxınlıqdakı uzun oturacağın ortasına. Ürəkləri az qalırdı ağızlarından çıxsın. Bir neçə dəqiqə susdular, nəzərlərini yayındırmağa da çalışdılar. Təkcə özləri xəbərdar idi daxillərindəki duyğulardan.

- Nədənsə sən başqalarından çox fərqlənirsən. – Dürdanə Hüseyndən gözlərini çəkmirdi.

- Elə sən də. Moskvada oxuyanda fikir verirdim: başqa millətlərdən olan qızları birləşdirən tək ortaqlıq onların cinsləriydi. Bu göstəricidən başqa onlarda nə desən özünü biruzə verirdi. Azərbaycanlı qızları elm, beynəlxalq münasibətdən başqa ədəb-ərkan, milli maraq fərqləndirirdi. Saf düşüncə, etibar, sədaqət onların amalı idi.

- Bəs sarıbaşlar, fındıqburunlar nəylə fərqlənirdi, sizcə, müəllim! – sinəsindən götürülən ərkyana çimdik Hüseyni auditoriya kürsüsündən Sahil bağına qaytardı. Səninki elə «moral oxumaqdan» gəlib. Bu qədər də yox də! – Sünbül saçlarını əllərində elə qulacladı ki, gənc müəllimi xəcalət təri basdı. Başa düşdü ki, qarsındakını «gəl-gəldən» başqa heç nə maraqlandırmır. Çalışdı mövzunu dəyişsin, bacarmadı. Dürdanənin əvəzinə özü başını söykədi qarşısındakının döşünə.

- Ürəyin nə yaman döyünür, xanım qız, olmaya…

- Eeh! Xəstə sənin özünsən ki, gecəylə gündüzü qarışdırmısan! Fikrin qalıb elmin darvazasının qabağında boynu bükülü, qapını açan tapılmır ki, tapılmır. – İkisi də uğundu, sarıldılar bir-birinə. Güc gərək, onları ayırsın, görüm.

İlk dəfə sağollaşdıqları binaya çatanda, Dürdanə qəflətən Hüseynin qolundan yapışdı, yaxınlıqdakı parad darvazasının arxasına sürütlədi. Ağzını onun qulağına səmtləyib qorxa-qorxa pıçıldadı:

«Suss!» Küçədən ötənlərin addım səsi qaranlıqda yoxa çıxandan sonra səkiyə qayıtdılar. «Bizimkilərdəndi. Xudahafiz!». Dayanıb nəyisə gözlədi, susdu, könülsüz-könülsüz aralandı. Pilləkənlərdən eşidilən ayaq səslərindən Hüseyn anladı: Dürdanəgilin mənzili üçüncü mərtəbədədi. Yavaş-yavaş addımlayırdı ki, ayağına ilişən daşın təsirindən ufuldayıb aşağı əyildi: ayaqqabısına bir şey olmayıb ki? İndi anladı: Dürdanə ayrılanda nəyisə arzulayırmış. Artıq gecikmişdi. Yaxınlaşan trolleybusu görüb əlini yellətdi…

- Aha, deyəsən «qaçağımız» gəlir. Hiss olunur ki, «qonaqlığı» pis keçməyib. Lap məsti-xumara oxşayır. Biz nə halda, o nə halda! – Üçlük gülə-gülə yaxınlaşdı Hüseyn müəllimə. Nə vaxtandı boynumuzu bükmüşük komendantın otağında, ət tökdürən loğazlarını dinləyirik.

- Minnətdaram, uşaqlar, sizə verdiyim narahatlığa görə…

- Əşşi bəsdi, mən ölüm, qovla belə sözləri. Hə, noolsun ki, sən müəllim, biz tələbəyik. Müəllim – tələbəlik öz yerində, dostluq ayrı şeydi, – Hidayətin üzünə baxan Nazimin də onunla razılaşdığını hiss etdi.

- Yaxşı, de görək, Dürdanəni babat yola sala bildinmi? – «babat» sözünə ayrı məna verdi xüsusi vurğusu – Baxış maraqlandı.

- … Ee… - istədi desin: «o qədər də narazılığımız olmadı». Əvəzində dostları qucaqladı. «Üç muşketyor» kimi bir-birinə əl verib güldülər, ayrıldılar. Yataqxananın pilləkənlərinə yaxınlaşanda Cəlil kişi soruşdu:

- Deyəsən, qonaqlarınız sizi axtarırdı, tapışdınızmı?

- Tapışdıq, tapışdıq, sağ olsunlar, narahat olublar.

- Əsasları varmış də, yəqin, bax gör saat neçəyə qalıb. – «Bir az da dayansam, yüz sual verəcək, yüzünə də cavab almamış əl çəkməyəcək», - Hüseyn sağollaşıb yollandı otaqçasına.

Bütün gecəni gözüaçıq qalmağa hazır idi sevindiyindən. «Səfərə çıxmaq istədiyi «həyat gəmisinə» uğurlu dəniz havası, sakitlik, bir də ilk sözdən deyiləni anlayan komanda lazım idi ki, sükanı əldən verməsin». «Növbəti görüşdə daha yaxından söhbətləşmək lazımdı. Elə etməliyəm ki, onunla münasibətlərimizə göz dəyməsin, peşmançılıq olmasın». «Peşmançılığın əsas səbəbi ehtiyac və

anlaşılmazlıqdı», - oxumuşdu Floberin bir əsərində. «Möhkəm ailə inam və ehtibar, etiqad və sadiqlikdən yaranır», - oxumuşdu dühası qarşısında müntəzir dayanmaq istədiyi Nizaminin əsərində. «Qarşılıqlı hörmətlə qurulan ailəni dağıtmaq müşkül işdi», - deyərdi ömrünün səksən ilini ömür-gün yoldaşı Laləzərilə başa vuran Behbudalı babası. «Dünya malına susamağın axırı sərgərdanlığa aparır», - öyrədərdi tələbələrinin adlandırdığı Asif Ata.

«Elə həyat yoldaşı seçin ki, ömrünüzün hədər getməsindən azaylanmayasınız», - təvəqqe edərdi özünə ağsaqqal bildiyi Qulam müəllimlə dostluğuyla fəxr edən Abdulla Sabanov, institutun dekanı. «To, o çyom çitayeş v kniqax, poroyu ne sovpadayet s jiznyu», - qovorila v svoix lektsiyax Bela Abramovna Axundova.

«Bax bu axırıncının ortaq məxrəcini tapmalıyam, kaş özümü unutmayım», - fikirləşirdi subaylığın daşını atmaq üçün yol axtaran Hüseyn müəllim. Bununçün götür-qoy edirdi tənhalıqdan canını qurtarmağı düşünən romantik. Yorğan-döşəyə baxıb köksünü ötürürdü. Gecənin uzunluğuna dözməyib əsir oldu yuxunun caynağında.

Növbəti görüş üçün lap əldən düşdü: yağlı əppəyə dönüb «itə yem olmuşdu» Dürdanə. Özünü onun əlində oyuncaq sanırdı. Son vaxtlar nə mühazirələrdə, nə də məşğələlərdə görünmürdü «Leyli». Söz-söhbət gedirdi ki, hansısa yüksək vəzifə sahibidi atası, amma bu haqda özündən eşitməmişdi. Ürəyində belə bir ailəylə yaxınlıq etməkdən xoşlanırdı, pillələr barədə düşünürdü. Fransız yazıçısı Flober demişkən, «yüksək mənsəbə çatmaq üçün kübarlar aləmindəki qadınların qalibi olmalısan». Birdən «yuxudan ayıldı», yanından elə çimdik götürdü ki, qaldı ufuldaya-ufuldaya. «Kələklə gələn, küləklə gedər», ay axmaq. «Əlidən də olarsan, Vəlidən də». Peşman oldu yanlış düşüncələrindən. Xatırladı ki, qoca nənəsi çox sevərdi babasından eşitdiyini: «Halal zəhmətlə qazanılan çörək baldan şirin olur». «Namussuz namusludan utanmaz». Qərara gəldi: Dürdanənin zəif damarını tutmaq lazımdı. Bəlkə «o heç mənə lazım deyil».

Mərdəkan qəsəbəsində Hüseynin ana tərəfindən qohumları yaşayırdı. Çoxdan onlardan xəbərsiz idi. M.Əzizbəyov adına metrodan yollanan 24 saylı marşrut avtobusunda yol gedirdi. Buzovna

dairəsinə çatanda yaşıl paqonlarına bərkidilmiş ulduzları günəşdən parlayan milis kapitanı əlindəki zolaqlı dəyənəyini başının üstündə dik tutdu, sol əlilə Buzovnadan gələn maşına «yol açıqdı!» işarəsi verdi. «Çayka» markalı hökumət maşını asta-asta avtobusun yanından ötəndə Hüseyn az qaldı qışqırsın: sürücüdən arxada əyləşmiş Dürdanə sol qolunu maşının pəncərəsindən yarı asılı sallayaraq «deyirdi»: «Baxın, bu mənəm!» Üz-gözündən məmnunluq duyulurdu…

- Zağulbadakı bağımıza getmişdik. İnan ki, sənnən ötrü səhrada susuz dolaşana bənzəyirdim. Elə bilirdim, kimsə yatağıma taxtabiti atıb. Ürəyim qəfəsdəki vəhşi quş kimi çırpınırdı bütün gecəni. Səhərləri gözüaçıq açırdım.

- Daha bəsdi, o qədər təşbih gətirdin ki, saymaqda hesabımı itirdim. – İkisi də dartındı, qollarını aralayıb elə sarıldılar ki, «öldürsən də ayrılan deyiləm» pıçıldaşdılar, əl qatdılar bir-birinin dodaqlarına.

Son zamanlarda Hüseyn eynəksiz dolanırdı, qorxurdu: o qədər də cazibəli görünmürdü, cavankən qocalana oxşayırdı eynəklə görünəndə. İşləri başından aşdığından evdəkilərdən xəbər tuta bilmirdi. Dəfələrlə Xəqani küçəsindəki «Danışıq məntəqəsi»ndən kor-peşman qayıtmışdı. Elə buna görə imtahan sessiyasını səbirsizliklə gözləyirdi.

«Vətən» kinoteatrında hind filminin nümayişi gedirdi. «Zita və Gita» filmini çoxları tərifləyirdi. Zala daxil olub yerini rahatlamışdı ki, arxasından çiyninə toxunan əldən diksinib çevrildi.

- Zəhmət olmasa, bir qədər sağa əyləşin, bizə mane olursunuz. – Yarıqaranlıqda pıçıldayanın oğlan ya qız olduğunu anlamadı. Bir az keçmişdi ki, bayaqkı müraciət təkrarlandı.

